# Xalq qəzeti

Xalqın qəzeti!

№ 114 (30808) 3 iyun 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# “Əsrin müqaviləsi”ndən başlanan global enerji əməkdaşlığı marafonu

## Prezident İlham Əliyev 30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” sərgilərinin və 30-cu “Baku Energy Forum”un rəsmi açılış mərasimində




**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi “Caspian Power” və 30-cu Yubiley “Baku Energy Forum”un rəsmi açılış mərasimində iştirak edib.**


**(ardı 2-ci səhifədə)**


# Avropada yeni liderlik örnəyi



**Azərbaycan bu gün dünyanın və Avropanın əsas diqqət mərkəzində olan ölkələrdən biridir. Son illər Azərbaycanın belə cəlbedici əməkdaşlıq üçün aparıcı dövlətlərin marağına səbəb olması təsadüfi deyil. İlk olaraq onu bildirmək istərdim ki, 2020-ci ilin sentyabr ayında başlanan və noyabr ayının 10-da Azərbaycanın Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi bizim haqqımızda təsəvvürləri dəyişdi. Azərbaycanın qüdrətli Ordusu müzəffər Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dünya hərb tarixində misli görünməyən zəfərə imza atdı.**

İlham Əliyev müharibənin gedişatında dünyanın nüfuzlu media qurumlarına bir neçə dildə sərbəst müsahibələr verir, erməni vəhşiliyini və işğalçılığını faktlarla dünyaya çatdırırdı. Necə deyərlər, Ordumuz döyüş, dövlət başçımız isə diplomatiya meydanında döyüşürdü. Heç kimə sirr deyil ki, İlham Əliyev özünün fantastik zəkası, yüksək intellekti, siyasi savadı, uzaqgörən siyasəti nəticəsində Avropada yeni lider örnəyi yaradıb. Bu gün Avropa onu yeni lider kimi qəbul edir. İlham Əliyevin Avropada nə qədər qəbul edilən populyar lider olmasını onun Albaniya və Macarıstana son səfərləri zamanı bir daha gördük. Hər birimiz, hər bir azərbaycanlı liderimizlə fəxr edib qürur duyduq.

Prezident İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü zamanı Azərbaycanın etibarlı tərəfdaş olduğu, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyi vurğulandı. Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu xüsusi əhəmiyyətə maikdir. Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxundu. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu dedi, bu gün Avropanın 10, o cümlədən Aİ-nin 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğuladı.


***(ardı 7-ci səhifədə)***


# Ukraynanın “Hörümçək toru”nun irimiqyaslı təyyarə ovu

## *Rusiyanın hərbi aviasiya üstünlüyünə sarsıdıcı zərbə endirildi*

**İyunun 1-də Ukrayna tərəfindən Rusiyanın strateji aviasiyasına endirilmiş zərbə çoxşaxəli əhəmiyyət daşıyır. Mütəxəssislərin fikrincə, bu hadisə münaqişənin hərbi, psixoloji və strateji aspektlərinə ciddi təsir göstərəcək. Eyni zamanda, bu əməliyyat strateji əhəmiyyətli hərbi bazaların təhlükəsizliyinə dair təsəvvürləri köklü şəkildə dəyişir.**

Ukrayna Təhlükəsizlik Xidmətinin (UTX) Rusiyanın dərin arxa cəbhəsində yerləşən bombardmançı təyyarələrin məhv edilməsinə yönəlmiş genişmiqyaslı xüsusi əməliyyatı gündəmin əsas müzakirə mövzularındandır. KİV-in məlumatına görə, UTX eyni vaxtda Belaya, Dyagilevo, Olenya və İvanovo hərbi hava bazalarına PUA hücumları həyata keçirərək Rusiya Federasiyasının strateji aviasiya potensialına ciddi zərbə endirdi. İlkin məlumatlara əsasən, azı 41 ədəd Tu-160, Tu-22M3 və Tu-95 təyyarəsi



sıradan çıxarıldı, ümumi itkilərin dəyəri isə yeddi milyard ABŞ dollarından çox qiymətləndirilir. Rusiya Müdafiə Nazirliyi də Murmansk, İrkutsk, İvanovo, Ryazan və Amur vilayətlərindəki hərbi hava obyektlərinə hücum faktını təsdiqləyir.


**(ardı 15-ci səhifədə)**


# Sərhəddəki mülki ...silahlılar




səhifə ⇨ 8


# Zəngəzur dəhlizi və “Fransa koordinatorluğu”




səhifə ⇨ 8


# Kabus Zəngəzur dəhlizinin “başında dolaşır”





səhifə ⇨ 11


# Ermənistanda din-dövlət qarşıdurması

## *Paşinyan II Qaregini və ruhaniliyi üzüsulu getməyə çağırır, yoxsa...*



**Baş nazir Nikol Paşinyanla Erməni Apostol Kilsəsi, daha dəqiq desək, kilsəbaşı, bütün ermənilərin katolikosu II Qaregin arasındakı ziddiyyətlər Ermənistanda ictimai-siyasi həyatın başlıca müzakirə mövzularından biri olaraq qalır. Məlum olduğu kimi, Paşinyan əvvəlcə hökumətin iclasında dini məbədlərin standartlar əsasında fəaliyyət göstərməli olduğunu, ibadət yerlərinin əmlakına nəzarət mexanizminin formalaşdırılmasının vacibliyini vurğulamışdı. Daha sonra isə o, özünün “Facebook” sosial şəbəkəsindəki hesabında II Qaregin və onun rəhbərlik etdiyi struktur əleyhinə ittihamlar irəli sürmüşdü.**

Baş nazirin bildirdikləri, eləcə də ittihamları gündəmə gətirərkən seçdiyi ifadə tərzi belə deməyə əsas verir ki, Nikolun şəxsiləşdirdiyi məqamlar var. Məsələn, Paşinyan yazıb ki, bəzilərini onun hələ də rəsmi nikahda olmaması və vətəndaş nikahına üstünlük verməsi narahat edir. “Halbuki ruhani elitanın yarısı eyni vəziyyətdədir və bu, heç kimi narahat etmir” - deyən baş nazirin erməni din xadimlərinin şəhvətə qurşandıqlarını vurğuladığı aşkardır.


***(ardı 9-cu səhifədə)***


# Mötəbər tarixi həqiqətlər məbədi


səhifə ⇨ 13

# “Əsrin müqaviləsi”ndən başlanan qlobal enerji əməkdaşlığı marafonu

## Prezident İlham Əliyev 30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” sərgilərinin və 30-cu “Baku Energy Forum”un rəsmi açılış mərasimində





**(əvvəli 1-ci səhifədə)**

Böyük Britaniyanın “ICA Events” şirkətinin İdarə Şurasının müşaviri **Tomas Hord** çıxış edərək dedi:

– Zati-aliləri, hörmətli cənab Prezident.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Təşkilat Komitəsinin adından böyük şərəf hissi ilə sizi 30-cu yubiley “Bakı Enerji Həftəsi”ndə salamlayıram. Zati-aliləri cənab Prezident, fürsətdən istifadə edərək Azərbaycanı ötən axşam fantastik qələbə münasibətilə də təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımızı ifadə edirik. Cənab Prezidentin iştirakı bu tədbirin Azərbaycanın enerji sektoru və bütövlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulayır. 1994-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal enerji səhnəsinə ilk cəsarətli addımlarını atdı. İlk dəfə keçirilən Xəzər Neft və Qaz Sərgisi Azərbaycanın müasir enerji strategiyasının və qlobal enerji əməkdaşlığının dinamik rolunu əks etdirən, əsasını qoyan tarixi “Əsrin müqaviləsi”nin imzalanması ilə eyni vaxta təsadüf etdi. O vaxtdan bəri “Bakı Enerji Həftəsi” enerjinin gələcəyini formalaşdırmaq üçün hökumətləri, qlobal şirkətləri və sənaye ekspertlərini bir araya gətirərək regionun ən nüfuzlu platformalarından birinə çevrildi.

Builki yubiley tədbiri Azərbaycanın enerji potensialına artan beynəlxalq marağı və inamı əks etdirən yeni iştirakçılar və milli pavilyonlarla yanaşı, 30 ölkədən 200-dən çox şirkəti qəbul edir.

Mən Azərbaycan Respublikasının Energetika Nazirliyinə, SOCAR-a, bütün dəyərli tərəfdaşlarımıza və sponsorlarımıza bu mühüm tədbirin həyata keçirilməsində əvəzsiz dəstəyinə görə səmimi təşəkkürümü bildirirəm. İcazə verin, hamınızı bu əlamətdar yubiley münasibətilə təbrik edim və sizə dəyərli müzakirələr, yeni əməkdaşlıqlar və maraqlı imkanlarla dolu, uğurlu, məhsuldar və ruhlandırıcı həftə arzulayım. Çox təşəkkür edirəm.

Böyük şərəf hissi ilə tribunaya Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevi dəvət edirəm.

*

Sonra dövlətimizin başçısı çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Xanımlar və cənablar, sabahınız xeyir olsun.

Əvvəlcə, bütün qonaqlarımızı salamlayıram və bizimlə birlikdə olduqlarına görə təşəkkür edirəm. Eyni zamanda, təşkilatçılara da Azərbaycanın enerji gündəliyini davamlı olaraq dəstəklədiklərinə görə minnətdarlığımı bildirirəm.

Artıq qeyd edildiyi kimi, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar “Əsrin müqaviləsi” adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı.

Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək.

Çünki bu gün həmin dövrə nəzər salanda aydın olur ki, müstəqillik uğrunda yol həmin tarixi məqamdan başladı. O zaman Azərbaycan müəyyən obyektiv səbəbdən xarici investorlar üçün riskli ölkə hesab edilirdi. Ölkədə vətəndaş qarşıdurması yeni başa çatmışdı, iqtisadiyyat iflic vəziyyətində idi, inflyasiya 1000 faizlə ölçülürdü və yoxsulluq hökm sürürdü. Bununla yanaşı, ərazilərimizin Ermənistan tərəfindən işğalı nəticəsində 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Təsəvvür edirsiniz ki, gələcəklə bağlı nə dərəcədə qaranlıq mənzərə yaranmışdı?! Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir.

Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir. Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir.

Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı.

Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib.

Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir.

Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır.

Ötənilki “Bakı Enerji Həftəsi”ndəki çıxışım zamanı mən iştirakçılara məlumat verdim ki, o zaman biz səkkiz ölkəyə təbii qaz ixrac edirdik. Bu gün isə deyə bilərəm ki, həmin ölkələrin sayı 12-yə çatıbdır və bu, hələ də son deyil.

Biz ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindəyik. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilmişdir.

Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük.

Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir. Hər kəs üçün uğurlu vəziyyət yaranır və biz hər zaman istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balansına diqqət yetirmişik. Çünki zənnimcə, bu amil gələcək enerji əməkdaşlığı baxımından olduqca vacibdir.

Bizim təbii qaz ixracımız ötən il 25 milyard kubmetrə çatmışdır. Biz hasilatı artırmaq niyyətindəyik, çünki artıq müqavilələr imzalanıbdır və proses getməkdədir. İşlər planlarımıza uyğun getsə, biz 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artıracağıq və o, xarici bazarlara təklif ediləcəkdir.

Bununla yanaşı, imzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, biz 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacağıq. Bu da bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcək.

Yəni, Azərbaycanın yaşıl enerji gündəliyi olduqca iddialıdır. Neft və qazla zəngin olan ölkənin xarici investorlarla bərabər yaşıl enerjiyə sərmayə qoyması bizim məsuliyyətimizi nümayiş etdirir.

Bütün bu yaşıl enerji potensialımız sayəsində biz, əlbəttə ki, Azərbaycanın elektrik enerjisinə artan tələbatını təmin edəcəyik, əsasən bərpaolunan enerji hesabına təmin edəcəyik. Bunun nəticəsində bir neçə milyard kubmetr qaza qənaət ediləcəkdir və bu həcm ixrac oluna biləcək.

Əlbəttə, ola bilər ki, COP29-un sədri olaraq neft və qaz haqqında danışmağımız bir o qədər də uyğun deyil. Ancaq bizim COP29-la bağlı gündəliyimiz çox praqmatik idi. Biz populizmdən, yalançı narrativlərdən uzaq idik. Həmin gündəlik ölkələrin qazıntı yanacağına olan tələbatının praqmatik hesablamalarına əsaslanır.

Bəzi ölkələrdə bu gün qazıntı yanacağı növləri ilə yaşıl enerji arasında olan balans nəzərə alınmır. Nəticədə genişmiqyaslı enerji kəsilməsi, enerji sisteminin çökməsi baş verir. Həmçinin burada daha mürəkkəb ssenarilər də baş verə bilər. Yəni, bəzi müəyyən addımları şərtləndirən meyillərə rəğmən həmin balansın qorunması düzgün siyasətdir.

Azərbaycana gəldikdə, biz təbii qazın hasilatının həcmini artırırıq. Çünki buna ehtiyacı olan ölkələr var və biz bu tələbatı ödəməliyik. Eyni zamanda, biz tərəfdaşlarımızla birlikdə yaşıl enerji layihələrinə də yatırım edirik.

2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir. Yəni, bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaqlar. Həmçinin imzalanmış yeni sazişlər və nəzərdə tutulan müqavilələr həmin potensialı təmin edəcəkdir.

Ötən il “Bakı Enerji Həftəsi” çərçivəsində toplam 1000 meqavat yaşıl enerji həcmində müqavilələr imzalandı. Bu tədbir çərçivəsində də bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaqdır. Yəni, biz bu yol ilə irəliləyirik.

COP29 haqqında danışarkən onun həqiqətən də uğurlu olduğunu qeyd etməliyik. Onun “Bakı sıçrayışı” adlandırılması bir çox hədəflərə nail olmağımızla bağlıdır. Onların hər birini sadalamaq istəmirəm. Ancaq burada mühüm nailiyyət kimi, İtki və Zərər Fondunu və inkişafda olan ölkələr üçün nəzərdə tutulmuş yardımın 100 milyard dollardan 300 milyard dollara qədər artırılmasını qeyd etmək istəyirəm. Bununla yanaşı, 10 il davam edən müzakirələrdən sonra karbon bazarı da işlək vəziyyətə gətirildi.

Enerji bazarında məsuliyyətli aktor, hər zaman real hədəfləri qarşısına qoyan və müxtəlif oyunçuları bir araya gətirə bilən ev sahibi olan Azərbaycanın mirası məhz bundan ibarətdir.

COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr, – inkişaf etmiş ölkələr, – və bundan əziyyət çəkən, hətta bəzilərinin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam edəcəyik.

Bir daha bütün qonaqlarımızı salamlayır və “Bakı Enerji Həftəsi”nə uğurlar arzulayıram.

Sağ olun.

*

ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə baş müşaviri **Vayat Tolki** çıxış edərək dedi:

-Təşəkkür edirəm, cənab Prezident Əliyev, nazirlər, möhtərəm qonaqlar.

Bu gün sizinlə, həqiqətən də əlamətdar tədbirdə - 30-cu yubiley “Bakı Enerji Həftəsi”ndə böyük şərəf hissi ilə iştirak edirəm. ABŞ və Azərbaycan enerji sektorunda onilliklərə söykənən təcrübəyə, müştərək əməkdaşlığa malikdir. “Əsrin müqaviləsi”nin imzalanmasının ildönümünün keçirilməsi də ikitərəfli enerji münasibətlərini təcəssüm etdirir. “Əsrin müqaviləsi”ndən Cənub Qaz Dəhlizinə qədər Azərbaycan həqiqətən də enerji təhlükəsizliyinin regionda və ondan geniş coğrafiyada həlledici oyunçu olduğunu sübut etmişdir. Azərbaycanla ortaq maraqlarımızı əks etdirən və enerji təhlükəsizliyinin təmin olunmasında işbirliyinə sadiqliyimizi təsdiq edən mühüm bir mesajı – cənab Prezident Trampın məktubunu diqqətinizə çatdırıram.

“Əziz cənab Prezident.

Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisinin keçirilməsi münasibətilə təbrik edirəm. Bu, Azərbaycanın, həqiqətən də, regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir. Otuz il ərzində iki millətimiz, iki xalqımız, həqiqətən də, enerji sərvətləri fonunda karbohidrogen sektorunda liderliyini nümayiş etdirmişdir. Həqiqətən də, qlobal enerji ehtiyatlarının növbəti onillərlə qarşılanması baxımından da bu çox önəmlidir ki, hər bir xalqın resursları öz rifahına xidmət etsin.

ABŞ Azərbaycanla tərəfdaşlığını enerji sabitliyinin həyata keçirilməsinin mümkünlüyü istiqamətində də davam etdirmək əzmindədir. Biz bu önəmli sektorla birlikdə səylərimizi enerji müstəqilliyinin dayanıqlılığı və iqtisadi artım istiqamətində reallaşdıra bilərik. Bu gözəl tədbirlə bağlı bir daha təbriklərimi çatdırıram. Səmimi-qəlbdən,

**Donald Tramp**”.

*

Sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri **Alparslan Bayraktar** Prezident Rəcəb Tayyib Ərdoğanın “Bakı Enerji Həftəsi” ilə bağlı məktubunu oxudu.

“-Hörmətli iştirakçılar.

Dəyərli qonaqlar.

Hamınızı ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.

Ötən illərdə olduğu kimi, bu il də “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən tədbirlərin əbədi qardaş iki ölkə - Türkiyə və Azərbaycan başda olmaqla bölgəmiz üçün uğurlu olmasını diləyirəm.

Can Azərbaycan ilə yaxın münasibətlərimiz bütün sahələrdə olduğu kimi, enerji sahəsində də güclü şəkildə və qətiyyətlə davam etdirilir. Enerji sahəsində bir çox nailiyyətə illər ərzində birlikdə imza atdıq. Son illərdə yaşanan qlobal geosiyasi proseslər enerji təhlükəsizliyi məsələsində Türkiyə-Azərbaycan əməkdaşlığının nə qədər önəmli olduğunu bir daha təsdiqləmişdir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız bu əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana deyil, eyni zamanda, bölgənin və Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir.

Mart ayında açılışını etdiyimiz İğdır-Naxçıvan boru kəməri illərə və uğurlara əsaslanan enerji əməkdaşlığımızın ən yeni örnəyini təşkil etmişdir. Xəttin fəaliyyətə başlaması Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini və bizi birlikdə daha da gücləndirmişdir.

Türkiyə ilə Azərbaycan arasında elektrik əlaqələrimizin artırılması bizim üçün strateji əhəmiyyət kəsb edən digər bir layihədir. Bu çərçivədə həm Türkiyə-Naxçıvan, həm də Türkiyə-Gürcüstan interkonnektor potensialının genişləndirilməsi sürətlə atmalı olduğumuz yeni addımlardır. Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında yeni elektrik interkonnektor xəttinin yaradılması məqsədilə yaşıl elektrik nəqli və ticarəti ilə bağlı əməkdaşlığa dair anlaşma memorandumunu imzaladıq.

*(ardı 3-cü səhifədə)*

# “Əsrin müqaviləsi”ndən başlanan qlobal enerji əməkdaşlığı marafonu

## Prezident İlham Əliyev 30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” sərgilərinin və 30-cu “Baku Energy Forum”un rəsmi açılış mərasimində



**(əvvəli 2-ci səhifədə)**

Bölgəmizin enerji təhlükəsizliyi və rifahı baxımından növbəti tarixi addım olan bu layihəni də, inşallah, ən qısa müddətdə yekunlaşdırmağı hədəfləyirik.

İki ölkə arasında təbii qaz sahəsində yeni layihələr üçün hələ də böyük potensialın olduğunu görürük. Uzun illərdir həm Türkiyəyə, həm də Avropaya ciddi miqdarda qaz tədarük edən Azərbaycanın dünya enerji bazarında bu strateji rolunun, xüsusilə yerləşdiyimiz mövqedə əhəmiyyəti çox böyükdür. Qarşıdakı dövrdə türkmən qazının hər birimizə fayda verəcək şəkildə Azərbaycan və Türkiyə vasitəsilə ixracı məsələsində əməkdaşlığımızı genişləndirmək üçün mühüm fürsət vardır. Bu layihə həm tədarük yollarının şaxələndirilməsinə, həm də regional rifaha töhfə verəcəkdir.

Enerji sahəsindəki bu dinamik şəraitin və proseslərin yaxından müzakirə ediləcəyi “Bakı Enerji Həftəsi”nin bütün iştirakçılarına uğurlar diləyir, bu tədbirin təşkilində əməyi keçənlərə təşəkkür edirəm.

Keçən həftə Laçında görüşdüyüm qardaşım Prezident İlham Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram.

Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti”

Daha sonra çıxış edən nazir **Alparslan Bayraktar** dedi:

– Cənab Prezident Əliyev.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Sizi çox önəmli platforma olan “Bakı Enerji Həftəsi”ndə böyük şərəf hissi ilə salamlayıram. Mən səmimi-qəlbdən Zati-aliləri cənab Prezident Əliyevə və Azərbaycan hökumətinə liderliyinə görə, həmçinin bu tədbirin keçirilməsində göstərdiyi səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Əlbəttə, kibertəhlükəsizlik, bazarlarda dəyişən vəziyyət istər-istəməz öz təsirini göstərir. Burada tədarük və təchizatla yanaşı, çeviklik, dayanıqlılıq, resursların əlçatanlığı da ön plana gəlir. İnfrastruktur ehtiyaclarının sürətlə artdığı vəziyyətin fonunda sabitlik məsələsi də gündəmə daha kəskin gəlir ki, bunların təmin olunması üçün resursları şaxələndirməliyik. Geniş tədarük imkanları yüksək qarşılıqlı bağlantı və etibarlı bazarların olması ilə şərtlənir. Üç əsas səbəb - təhlükəsiz təzminat, asılılığın azaldılması və əlçatanlılıq məsələləri önəmlidir. Bunların təmin olunması üçün alternativ enerji, nüvə enerjisi, neft və qaz sənayesinin, həmçinin kritik mineral qazıntıların inkişaf etdirilməsi önəmlidir.

Türkiyədə alternativ enerji elektrik enerjisinin 60 faizini təşkil edir. Keçən il Bakıda COP29 zamanı biz qarşıya mövcud Günəş və külək enerjisini 2035-ci ilədək 120 giqavata çatdırmaq məqsədi qoymuşuq. Bunun üçün də keçən il biz enerji səbətinə 7 giqavat alternativ enerji daxil etdik. İnfrastrukturun inkişaf etdirilməsində məqsəd iqtisadiyyatın artan tələbatını qarşılamaqdır. Bunun üçün gələn il batareya depolarını və nüvə stansiyasını istifadəyə verməyi nəzərdə tuturuq.

Coğrafi baxımdan Türkiyə bu sahədə əlaqələri genişləndirmək əzmindədir. Eyni zamanda, daxili karbohidrogenlərin istehsalına da töhfə verməliyik. Bu gün Sakarya qaz yatağında gündəlik 9,5 milyon kubmetr qaz hasil edirik və bu rəqəm 2026-cı ildə iki dəfə artacaq və 2028-ci ilədək isə gündəlik 40 milyon kubmetrə çatacaq.

Əlbəttə, biz, kritik mineralların əhəmiyyətindən də xəbərdarıq və qazıntı layihələrinə həm daxildə, həm də beynəlxalq miqyasda aktiv olaraq investisiya yatırılmaqdadır və buraya nadir qazıntılar da daxildir.

Möhtərəm iştirakçılar, Türkiyə ilə Azərbaycan arasındakı tərəfdaşlıq həqiqətən də bir strateji modeldir. Onun kökləri tarixi, mədəni və ortaq bağlarla ifadə olunur. Bu gün biz əsas sazişin imzalanması ilə Azərbaycanda neft-qaz istehsalını daha da artıracağıq. Söhbət “Şəfəq-Asiman” layihəsi üzrə sazişdən gedir. Bu, “Turkish Petroleum”, SOCAR və bp arasında üçtərəfli bir işbirliyi olacaqdır.

Yekunda mən səmimi-qəlbdən cənab Prezident İlham Əliyevə və Azərbaycan Hökumətinə təşəkkürümü ifadə edirəm ki, bizi bir daha bir araya gətirmişdir. Enerji sektorunda üzləşdiyimiz çağırışlar mürəkkəbdir, lakin mən əminəm ki, əməkdaşlıq və dialoqla biz təhlükəsiz enerji gələcəyi qura biləcəyik. Təşəkkür edirəm.

**

Avropa Komissiyasının Energetika Baş idarəsinin direktoru **Kristina Lobilyo Borrero** çıxış edərək dedi:

– Zati-aliləri Prezident Əliyev.

Hörmətli nazirlər, səfirlər və “Bakı Enerji Həftəsi”nin iştirakçıları.

İcazə verin, Avropa Komissiyası adından Azərbaycanı “Bakı Enerji Həftəsi”nin keçirilməsi, həmçinin COP29-un uğurlu təşkili münasibətilə təbrik edim.

Biz 2030-cu ilədək bərpaolunan enerji ehtiyatlarının istehsalını üç dəfə artırmaq və enerji səmərəliliyini ikiqat çoxaltmaq səylərini təsdiq edirik. Siz isə milli reallıqların nəzərə alınması şərti ilə, amma orta hədəf və məsuliyyətlə inklüziv keçid üzrə konsensus əldə edilməsinə köməklik göstərirsiniz. Energetika keçidi enerji təhlükəsizliyi və iqtisadi rəqabətqabiliyyətlilik əsasında həyata keçirilməlidir. Bu, sadəcə, siyasi məqsədlərdən ibarət deyil, həmçinin iqtisadi və geosiyasi sabitliyin əsasıdır. Son illərin hadisələri xüsusi israr və aydınlıqla bizə bu dərsi verdi.

Rusiya–Ukrayna müharibəsi göstərdi ki, enerjidən silah qismində istifadə oluna bilər. Avropa İttifaqı (Aİ) özünün enerji sistemi tarixində şaxələndirməyə, bərpaolunan enerji mənbələrinə və tərəfdaşlıq münasibətlərinə əsaslanan yeni fəsil açır. Bu gün Rusiya qazının idxalında 2021-ci ildəki Aİ-yə tədarük olunan təbii qazın ümumi həcminin 45 faizdən 13 faizə qədər azalması müşahidə olunur.

Azərbaycan bu yeni fəsildə güclü tərəfdaşdır. Amma hələ yolun sonuna çatmamışıq. Mayın 6-da Avropa Komissiyası Rusiya enerjisindən uzaqlaşmağın yollarını müəyyən edən “Repower EU” adlı yeni yol xəritəsini təqdim etdi.

Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə nəqli, o cümlədən Trans-Adriatik Boru Kəmərinin 2026-cı ilə qədər planlaşdırılan genişləndirilməsi bu səylərin mühüm tərkib hissəsidir. Amma bizim tərəfdaşlığımız təkcə qazla bağlı deyil. Söhbət sabahın enerji sisteminin qurulmasından gedir.

Bu, bərpaolunan elektrik enerjisi, hidrogen və inteqrasiya olunmuş enerji sistemlərinə sərmayə qoymaq deməkdir. Azərbaycan bərpaolunan enerjinin əsas istehsalçısı olmaq potensialına və ambisiyasına malikdir. Dənizdə külək və Günəş enerjisini inkişaf etdirmək planlarınızı alqışlayırıq və Azərbaycanın nəhəng bərpaolunan enerji potensialını dəstəkləmək üçün birgə işi davam etdirməyə hazırıq.

Əməkdaşlığımız daha çox yaxınlaşmağa doğru bu irəliləyişi əks etdirir. Biz Azərbaycanla birgə sərmayə qoymaq, layihələr hazırlamaq və həyata keçirmək istəyirik. Avropanın özəl sektoru bu baxımdan güclü tərəfdaşdır.

Avropa şirkətləri elektroliz qurğuları, smart şəbəkələr, külək turbinləri və enerjisaxlama sistemləri də daxil olmaqla təmiz texnologiyalar sahəsində dünya liderləridir. Aİ-nin Qara dəniz regionuna bir neçə gün əvvəl başlayan yeni strateji yanaşması enerji keçidi və qarşılıqlı enerji əlaqəsi üzrə daha sıx əməkdaşlıq etməyi planlaşdırır. Qara dəniz regionlarımızı birləşdirən əsas qapıdır. Qara dənizə strateji yanaşmamız bərpaolunan enerji mənbələrinin inteqrasiyasını sürətləndirmək, enerji sisteminin sabitliyini və dayanıqlılığını təmin etmək üçün əsas amil kimi daha güclü daxili və regionlararası enerji inteqrasiyasının təşviqinə yönəlib. Beləliklə, gəlin ümumi ambisiyalarımızı konkret nəticələrə çevirək. Gəlin, təkcə alıcılar və satıcılar kimi deyil, həm də davamlılığın, tərəqqinin və enerji təhlükəsizliyinin təmin edilməsində tərəfdaşlar kimi irəliyə doğru addımlayaq.

Dəvətə görə bir daha çox sağ olun. “Bakı Enerji Həftəsi”nin iştirakçılarına məhsuldar iş arzulayıram.

Sağ olun.

*

OPEC-in Baş katibi **Haysam Əl-Qays** çıxış edərək dedi:

– Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri cənab Prezident İlham Əliyev.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Zati-aliləri Prezident Əliyev neft və qaz resurslarını belə təsvir etmişdir: “Allahın sovqatı, hədiyyəsi”. Bu ifadə həqiqətən də tarixdə bir rezonans yaradıb. İllərdir, onilliklərdir və bundan sonra da bu məsələ dünyamız üçün həqiqətən də önəmli olacaqdır. Yalnız neft və qaz istehsalçıları üçün deyil, həmçinin neft və neft məhsullarından gündəlik həyatlarında istifadə edən istehlakçılar üçün də önəmli olacaqdır.

Cənab Prezident, mən həm müdrik fikirlərinizə, həm də praqmatik siyasətinizə görə Sizə təşəkkür etmək istəyirəm. O fikirlər ki, biz onu keçən dəfə COP29-da, bu səhər isə burada eşitdik. Həmçinin OPEC ilə qeyri-OPEC istehsalçılar, “OPEC Plus” kimi tanıdığımız dövlətlər, ölkələr arasında əməkdaşlıq Bəyannaməsinə verdiyiniz davamlı dəstəyinizə görə Sizə minnətdarıq.

Zati-aliləri, Siz həqiqətən də böyük liderlik nümayiş etdirirsiniz. OPEC və qeyri-OPEC dövlətləri arasında işbirliyinin inkişafında, həmçinin adıçəkilən Bəyannamənin 2016-cı ilin dekabrında qəbulu zamanı verdiyiniz dəstəyə görə Sizə təşəkkür edirik. Cənab Prezident, icazənizlə, dostum, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova da təşəkkürümü ifadə etmək istəyirəm. O, həqiqətən də bu Bəyannamənin hazırlanmasına layiqli töhfə vermişdir.

Zati-aliləri, möhtərəm xanımlar və cənablar, diqqətinizə çatdırmaq istəyirəm ki, neft və neft məhsulları bundan sonra da dünya üzrə əsas istehlak resursları olacaq. Yaddan çıxarmayaq ki, karbohidrogenlər 1980-ci illərdə olduğu kimi, bu gün də dünya enerji resursları səbətinin 80 faizini təşkil edir. Neft və neftdən əldə olunan məhsullar müxtəlif sektorlar və sənayelər üçün yenə də insanın təsəvvür edə biləcəyindən də çox ehtiyacları qarşılayır. Təsəvvür edin ki, neft və neftdən əldə olunan məhsullar yoxdur. Bu zaman nəqliyyat iflic vəziyyətə düşəcəkdir, qida istehsalı dayanacaqdır, səhiyyə xidmətləri və iqtisadi artım tənəzzülə uğrayacaqdır. Dünya ildən-ilə daha da çox neft istehlak edir və bu, bir faktdır. Keçən il qazın, kömürün, neftin və həmçinin alternativ enerji növlərinin istehlakı rekord səviyyəyə çatmışdır. Bir daha vurğulamaq istəyirəm ki, dünyaya bütün enerji resursları lazımdır, xüsusən də dünya əhalisinin sayının, urbanizasiyanın artdığı, süni zəkanın, yeni texnologiyaların inkişaf etdiyi indiki zamanda. Eyni zamanda, digər tərəfdən tullantıların, emissiyaların azaldılması da diqqət mərkəzində saxlanılmalıdır.

Enerji təhlükəsizliyi gələcəkdə də hamı üçün əlçatan olmalıdır. Mən bununla əlaqədar üç xüsusi məqamı qeyd etmək istərdim. Birincisi, bizim enerji gələcəyimiz ideoloji olmamalıdır. Çünki alternativ enerji mənbələrinə keçid uzunmüddətli prosesdir. Bu mənada çıxışlarımızda, mesajlarımızda realist olmaq lazımdır. İkincisi, biz bütün insanların və xalqların enerji cəhətdən də ehtiyaclarını qarşılamalıyıq. Çünki burada hələ də boşluqlar var. Gələcək inkişaf kompleks, inklüziv, ədalətli, eyni zamanda, bərabər imkanlarla ifadə olunmalıdır. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının əsas prinsiplərini nəzərə almaqla demək lazımdır ki, - yeri gəlmişkən, bu da ötən il Bakıda keçirilən COP29-da ifadə olunmuşdu, - Paris sazişinin əsas məqsədi emissiyaları azaltmaqdır, nəinki enerji mənbələrini əvəzləmək. Üçüncüsü, bizə daha çox investisiyalar və sərmayələr lazımdır. Zati-aliləri, xanımlar və cənablar, yalnız neft üçün tələb edilən investisiyalar 17,4 trilyon ABŞ dolları ilə ifadə olunur. Bu isə 2050-ci ilə qədər hər il 650 milyard investisiya deməkdir. Odur ki, müasir texnologiyalara xüsusi diqqət yetirilməlidir. Çünki investisiyalarla yanaşı, texnologiyalar bizə bütün xalqlar və bütün dövlətlər üçün enerji ehtiyaclarını qarşılamağa imkan verəcəkdir.

Zati-aliləri, xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycan həqiqətən də gələcək enerji inkişaf yolunda əsl lider olduğunu nümayiş etdirmişdir. Bu, əyani şəkildə görünür. Azərbaycanın konstruktiv mövqeyi COP29-un Bakıda keçirildiyi zaman, həmçinin OPEC və qeyri-OPEC dövlətləri arasında dialoqda da özünü göstərmişdir. Bu, enerji bazarı sabitliyi baxımından olduqca önəmlidir. OPEC olaraq, biz də Azərbaycanla işbirliyimizi davam etdirmək əzmindəyik ki, hamı üçün sabit, dayanıqlı, təhlükəsiz enerji gələcəyi təmin olunsun. Elə bir gələcək ki, bütün cəhdlər bazarın sabitliyinin təmin olunması üçün səfərbər edilsin. Elə bir gələcək ki, biz gələcəyin enerjisini qarşılamış olaq. Azərbaycan müasir neft sənayesinin beşiyi olduğu kimi, eyni zamanda, bütün enerji növlərinin təşəkkül tapmasının da beşiyidir. Neft, qaz, külək, Günəş enerjisi və digər növlərin. Odur ki, OPEC və onun üzvü olan dövlətlər də bu mövqeyi tam mənada dəstəkləyirlər. Bu inkişaf əsas mövzularla və məqsədlərlə də ifadə olunur. Zati-aliləri, OPEC-in növbəti beynəlxalq seminarına, - yeri gəlmişkən, bu tədbirimiz doqquzuncu dəfə iyulun 9-10-u Vyanada, Hofburq sarayında keçiriləcəkdir - biz Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazovu və digər rəsmi şəxsləri dəvət edirik.

Cənab Prezident, çıxışımın sonunda bildirirəm ki, bu tədbirdə Sizinlə bərabər iştirak etmək böyük şərəfdir. Təşrif buyurduğunuz üçün Sizə bir daha təşəkkür edir, “Bakı Enerji Həftəsi”nə uğurlar arzu edirik. Çox sağ olun.

*

Böyük Britaniyanın Xarici İşlər, Birlik və İnkişaf Nazirliyi və Enerji Təhlükəsizliyi və Sıfır Emissiya Nazirliyinin Birgə Beynəlxalq Enerji Bölməsinin rəhbəri xanım **Sofi Vestleyk** çıxış edərək dedi:

– Zati-aliləri, cənab Prezident Əliyev.

Nazirlər, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Burada – “Bakı Enerji Həftəsi”ndə çox möhtərəm iştirakçılar qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Böyük Britaniya hökuməti adından bir daha Azərbaycana bu dəvətə görə təşəkkür edirəm.

Birləşmiş Krallıq ölkələrimiz arasında əməkdaşlığı böyük şərəf hissi ilə qeyd edir. Bu əməkdaşlığın kökləri onilliklərə gedib çıxır. Bu əməkdaşlıq həqiqətən də xalqlarımızın rifahı, eyni zamanda, Avropa və qlobal enerji təhlükəsizliyi baxımından əlamətdar olmuşdur. Keçən ilin noyabrında bizim ölkənin Baş naziri COP29-a gələrək Azərbaycanın qlobal iqlim dəyişikliyində lider rolunu vurğulamışdır. Azərbaycan, eyni zamanda, qlobal və ədalətli enerji keçidində də lider rolunu oynayır. Yeni alternativ enerji ilə bağlı layihələrin ərsəyə gəlməsi Azərbaycanın həmişə enerji təhlükəsizliyində oynadığı rolunu vurğulamış olur. Birləşmiş Krallıq bundan sonra da Azərbaycanla bu yolda birlikdə irəliləyəcəkdir.

Uzunmüddətli enerji və iqlim təhlükəsizliyi ilə əlaqədar təbii ki, yeni yanaşmalar, yeni texnologiyalar da tətbiq olunmalıdır. Biz Birləşmiş Krallıqda 2050-ci ilə qədər sıfır tullantıya nail olmağı və həmçinin 2030-cu ilə qədər təmiz elektrik enerjisi istehsalını qarşıya məqsəd qoymuşuq. Eyni zamanda, Komissarın da qeyd etdiyi kimi, 2035-ci ilə qədər emissiyaların 85 faiz azaldılmasını hədəfləmişik.

G-7 ölkələri arasında biz kömürdən imtinanı bəyan edən ilk dövlət olmuşuq və investisiyaları bu sahəyə yönəltməyə çalışırıq. 2024-cü ilin iyulundan başlayaraq 43 milyard funt sterlinqdən daha çox özəl investisiya təmiz enerji sektoruna, alternativ enerji mənbələrinə yatırılacaqdır ki, bu, Birləşmiş Krallıqda qaz sənayesinə yatırılmış investisiyadan daha çox sərmayədir. Bu, artıq yeni iş yerləri deməkdir.

Mən çox şadam ki, Birləşmiş Krallıq və Azərbaycan enerji əməkdaşlığımızda yeni fəslə imza atmışdır, Enerji İşçi Qrupu yaradılmışdır və çox iddialı bir iş planı qurmuşuq. Bu alternativ elektrik enerji bazarları və digər sahələri də özündə ehtiva edən bir təşəbbüsdür. Bunun həqiqətən də uzunömürlü enerji tərəfdaşlığı olacağına, dayanıqlı gələcəyin qurulmasına öz töhfəsini verəcəyinə ümid edirik.

Mən sizin hamınıza bu 30-cu yubiley tədbirində - “Bakı Enerji Həftəsi”ndə uğurlar diləyir, maraqlı ideyaların enerji əməkdaşlığına xidmət etməsini arzulayıram. Çox sağ olun.

Qeyd edək ki, “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən tədbirlərdə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi iştirak edir. Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən “Bakı Enerji Həftəsi” həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən birinə çevrilib.

“Bakı Enerji Həftəsi” əsasını müstəqil Azərbaycanın beynəlxalq ixtisaslaşmış sərgisi olan “Caspian Oil and Gas” sərgisindən götürüb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Yarandığı gündən etibarən “Caspian Oil and Gas” sərgisi neft, qaz və energetika sahələrinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı məkana çevrilib. Keçirildiyi 30 il ərzində “Bakı Enerji Həftəsi” Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə verib, dünyanın 80 ölkəsindən 9 mindən çox şirkəti, 170 mindən artıq ziyarətçini cəlb edib.

Bu il sərgi iştirakçılarının 35 faizini yeni şirkətlər təşkil edir. Azərbaycanın neft, qaz və enerji sektoruna beynəlxalq maraq artmaqda davam edir: sərgi iştirakçılarının təxminən 70 faizini xarici şirkətlər, 30 faizini isə yerli müəssisələr təşkil edir. Bu, yüksəksəviyyəli beynəlxalq əməkdaşlıqla yanaşı, yerli biznesin fəal iştirakını da bir daha nümayiş etdirir.

13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji “Caspian Power” sərgisində beynəlxalq və yerli şirkətlərin energetika və yaşıl enerji mənbələrinin inkişafı, istifadəsi sahəsindəki yeniliklər, həmçinin bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə Günəş, külək, geotermal enerji, istilik energetikası, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri, enerji resurslarına qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunur.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış oldu.

**(ardı 4-cü səhifədə)**

# “Əsrin müqaviləsi”ndən başlanan qlobal enerji əməkdaşlığı marafonu

## Prezident İlham Əliyev 30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” sərgilərinin və 30-cu “Baku Energy Forum”un rəsmi açılış mərasimində

**(əvvəli 3-cü səhifədə)**






Dövlətimizin başçısı əvvəlcə Azərbaycanın və strateji tərəfdaşlarının enerji təhlükəsizliyinə mühüm töhfə verən SOCAR-ın stendinə baxdı. Bildirildi ki, SOCAR qlobal enerji şirkəti olaraq milli sərvətlərimizin beynəlxalq bazarlara çıxarılmasında strateji rol oynayır. Neft-qaz şirkətindən beynəlxalq enerji şirkətinə transformasiya istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirən SOCAR keyfiyyətli idarəetmə, şəffaflıq və müasir yanaşmalar əsasında enerji sektorundakı mövqeyini ardıcıl olaraq möhkəmləndirir. Axtarış-kəşfiyyat, hasilat, nəqletmə, emal, istehsal, marketinq, yanacağın pərakəndə satışı, qaz paylanması və bərpaolunan enerji mənbələrinin inkişafı kimi sahələrdə uğurla fəaliyyət göstərən şirkət rəqəmsallaşma, innovasiya, yaşıl enerjiyə keçid vasitəsilə davamlı inkişafı və dayanıqlı artımı təşviq edir. SOCAR, həmçinin iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edərək ekoloji cəhətdən təmiz, aşağıkarbonlu və qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verir.

“bp Azərbaycan” da sərgidə təmsil olunur. Dünyanın aparıcı enerji təchizatçılarından biri olan bu şirkət enerji mənbələrinin təhlükəsiz işlənməsi və hasilatı ilə məşğul olaraq müxtəlif enerji həlləri təqdim edir. Azərbaycanda 33 ildir fəaliyyət göstərən bp beş iri layihənin operatorudur və ölkənin enerji sənayesində mühüm rol oynayır. bp bu dövrdə tərəfdaşları ilə birgə Azərbaycana təxminən 85 milyard dollar sərmayə yatırıb, minlərlə iş yeri yaradıb və geniş sosial layihələr reallaşdırıb.

“Türkiye Petrolleri Anonim Ortaklığı” (TPAO) şirkəti qardaş ölkənin karbohidrogen kəşfiyyatı və hasilatı sahəsində 70 ildən çox təcrübəyə malik milli neft şirkətidir və Türkiyənin enerji sektorunun əsas iştirakçılarındandır. Azərbaycanla yanaşı, bir sıra ölkələrdə fəaliyyət göstərən şirkət 2025-ci il üçün İnvestisiya Proqramında dövlət müəssisələri arasında ən böyük investisiya büdcəsinə sahibdir. Şirkət 1994-cü ildən Azərbaycanda bir sıra enerji layihələrində iştirak edir.

İtaliyanın “MAİRE” şirkəti enerji keçidini təşviq etməkdə ixtisaslaşmış aparıcı texnologiya və mühəndislik qrupudur. Şirkət təkrar bazar üçün hərtərəfli mühəndislik və inşaat həlləri, davamlı texnoloji həllər təklif edir. Hazırda 45 ölkədə fəaliyyət göstərən “MAİRE” şirkəti 20 min layihə tərəfdaşından ibarət qlobal şəbəkə tərəfindən dəstəklənir.

“Almaniya Federativ Respublikasının Milli Pavilyonu”nda müxtəlif sənaye sahələrinə dair geniş çeşiddə məhsul və xidmətlər təqdim olunur. Bunlara avtomatlaşdırma və proses avadanlıqları, ölçmə və idarəetmə sistemləri, neft və qaz emalı üçün avadanlıqlar, laboratoriya və süzgəc sistemləri daxildir. Bundan əlavə iştirakçılar neft və qazın nəqli, kəşfiyyatı və hasilatı sahələrində həllər, boru kəmərlərinin tikintisi, texniki baxışı və təmiri üzrə texnologiyalar, eləcə də inteqrasiya olunmuş texniki xidmətləri təqdim edirlər.

Baş ofisi Budapeştdə yerləşən “MOL Group” beynəlxalq, inteqrasiya olunmuş neft, qaz, neft-kimya və pərakəndə satış şirkətidir. Bir əsrdən artıq təcrübəyə və 24 min nəfərlik işçi qüvvəsinə malik şirkət 30-dan çox ölkədə fəaliyyət göstərir. “Azəri-Çıraq-Günəşli” layihəsinin 3-cü ən böyük səhmdarı olan şirkət Azərbaycan da daxil olmaqla 9 ölkədə kəşfiyyat və hasilat aktivlərinə malikdir.



Rusiya Federasiyasının “Tatneft” şirkəti də sərgidə təmsil olunur. Şirkət neft və qaz hasilatı, neft emalı və kimyası, yanacaqdoldurma məntəqələri şəbəkəsi, elektrik enerjisi, neft-qaz sənayesi üçün avadanlıqların istehsalı ilə məşğul olur və sərgidə öz xidmətlərini ziyarətçilərə təqdim edir.

Çin Xalq Respublikasının “Sinopec SJ Petroleum Machınery Co.” şirkəti 1941-ci ildə təsis edilib. Şirkət əsasən quruda və dənizdə neft-qaz yataqlarının kəşfiyyatı, hasilatı avadanlıqlarının tədqiqatı, istehsalı və servisi ilə məşğul olur. Həmçinin müştərilərə neft-qaz yataqlarının kəşfiyyatı və hasilatı avadanlıqları üçün inteqrasiya olunmuş həllər təqdim edir.




“Uzbekneftegaz” ASC Özbəkistanın bu sahədə aparıcı şirkətidir. O, hasilatın artırılması, daxili bazarın təchizatı və ixracın genişləndirilməsi istiqamətlərində fəaliyyət göstərir. Şirkət yüksəkdəyərli məhsul istehsalına, emalına və xarici investisiyaların cəlbinə önəm verir. 2020–2030-cu illəri əhatə edən strategiyası modernləşmə, enerji təhlükəsizliyi və innovasiyaya əsaslanan “Uzbekneftegaz” Özbəkistanın enerji müstəqilliyini və iqtisadi inkişafını gücləndirmək məqsədilə texnoloji yeniliklərin formalaşmasında əsas rol oynayır.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti dünyanın ən sürətlə inkişaf edən bərpaolunan enerji şirkətlərindən biridir. Qlobal təmiz enerji lideri kimi “Masdar” Günəş, külək, geotermal, enerjisaxlama batareyası və yaşıl hidrogen sahələrində layihələr həyata keçirərək enerji keçidini sürətləndirməyə çalışır. 2006-cı ildən etibarən 40-dan çox ölkədə layihələrə sərmayə qoyan şirkət təmiz və sərfəli enerji təminatına töhfə verir. Şirkət 2030-cu ilədək 100 QVt-lıq bərpaolunan enerji portfeli yaratmağı və yaşıl hidrogen istehsalında lider olmağı hədəfləyir. Qeyd edək ki, “Masdar” şirkəti 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasını istifadəyə verib.

Amerika Birləşmiş Ştatlarının (ABŞ) “Schlumberger” (SLB) şirkəti enerji innovasiyalarını təşviq edən qlobal texnologiya şirkətidir. “SLB” dünyada enerji sənayesinin məhsuldarlığını, davamlılığını təmin etmək üçün qabaqcıl rəqəmsal həllər, innovativ texnologiyalar təklif edir. Şirkət 120-dən çox ölkədə fəaliyyət göstərir.

Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti bərpaolunan enerji sahəsində dünyanın qabaqcıl qurumlarından biridir. O, Azərbaycanda Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq 240 MVt gücündə Xızı-Abşeron külək elektrik stansiyası layihəsini inkişaf etdirir. “ACWA Power” 14 ölkədə 101 elektrik enerjisi və su şirinləşdirmə obyektinin tərtibatçısı, investoru və operatorudur. “ACWA Power”in 107,5 milyard ABŞ dolları dəyərindəki portfeli 78,85 QVt elektrik enerjisi və gündə 9,5 milyon kubmetr şirinləşdirilmiş su istehsal etmək gücünə malikdir.

Fransanın qlobal multienerji şirkəti olan “TotalEnergies” metan emissiyalarının monitorinqi və azaldılması sahəsində innovativ həllər təqdim edir. Belə ki, şirkət idarə etdiyi bütün hasilat obyektlərində metan sızmalarını fasiləsiz və real vaxt rejimində aşkar edən avadanlıqlar yerləşdirir. Bu avadanlıq “Metan Daimi Monitorinq Layihəsi” adlanır və ilk dəfə olaraq “Caspian Oil & Gas” sərgisində “TotalEnergies”in stendində təqdim edilir.

***

Sonra Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi.

Sonda birgə foto çəkdirildi.

# Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.**

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana “Bakı Enerji Həftəsi” ilə bağlı göndərdiyi məktuba görə təşəkkürünü bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən Alparslan Bayraktar bir neçə gün əvvəl Laçında keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladı və həmin tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Görüşdə “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin bu sahədə beynəlxalq əməkdaşlığın qurulması, əlaqələrin genişləndirilməsi və yeni yanaşmaların tətbiqi baxımından rolu vurğulandı.

Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi və liderliyi ilə ölkələrimizin bir çox qlobal layihələr həyata keçirdikləri, həmçinin Türkiyə Petrolları (TPAO), BOTAŞ-la SOCAR arasında uğurlu əməkdaşlığın qurulması məmnunluqla qeyd edildi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə böyük sərmayədar olduğu vurğulandı.

Söhbət zamanı ölkəmizdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində mühüm layihələrin icra olunduğu qeyd edildi, Azərbaycan və Türkiyənin bu istiqamətdə əməkdaşlığının bundan sonra daha da genişlənəcəyinə ümidvarlıq bildirildi. Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğu vurğulandı və bu xüsusda gələcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin təsisçisi və direktorlar şurasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul edib.**

Görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlığın bir çox sahələrdə, o cümlədən enerji və bərpaolunan enerji sahələrində inkişafından məmnunluq bildirildi.

Ölkəmizlə “ACWA Power” şirkəti arasında uğurlu layihələrin həyata keçirildiyi vurğulandı. Bu şirkətin Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyası layihəsini inkişaf etdirməsinin əhəmiyyətinə toxunuldu.

Vurğulandı ki, “ACWA Power” ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması üzrə tenderin qalibi olub və hökumətlə müqavilə şərtlərinin razılaşdırılmasının son mərhələsidir. Qısa müddət ərzində son müqavilə sənədlərinin imzalanması və suyun duzsuzlaşdırılması zavodunun tikintisinə başlanılması ilə bağlı hazırlıq işləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, həmçinin Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin yüksək səviyyədə keçirilməsi ilə bağlı təbriklərini çatdırdı.

Məhəmməd Əbunəyyan Azərbaycan Prezidentinin və Səudiyyə Ərəbistanı Kralının dünyada baş verən hadisələrlə bağlı böyük liderlik nümunəsi göstərdiklərini dedi. O, Səudiyyə Ərəbistanı Krallığından ölkəmizə yatırılan investisiyalara dövlətimizin başçısı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.

## Prezident İlham Əliyev Pakistanın neft nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul edib.**

Söhbət zamanı bir neçə gün əvvəl Laçında Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü xatırlandı, bu tədbirin ölkələrimiz arasında qardaşlığın və həmrəyliyin nümayişi olduğu bildirildi.

Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın enerji sahəsini də əhatə etdiyi vurğulandı.

“Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəminə toxunularaq, enerji sahəsində qlobal səviyyədə əməkdaşlığın genişləndirilməsi baxımından bu mühüm tədbirlərin rolu qeyd edildi.

Görüşdə ölkələrimiz arasında enerji, həmçinin bərpaolunan enerji sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair müzakirələr aparıldı.

Qonaq Azərbaycan şirkətlərini Pakistanın enerji sektorunun imkanları ilə tanış olmağa dəvət etdi.

## Prezident İlham Əliyev “Schlumberger Overseas S.A” şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də ABŞ-ın “Schlumberger Overseas S.A” (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul edib.**

Söhbət zamanı “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin əhəmiyyətinə toxunularaq, bu tədbirlər zamanı qlobal enerji məsələləri ilə bağlı müzakirələrin aparıldığı vurğulandı.

“Schlumberger Overseas S.A” şirkətinin Azərbaycanda uğurla həyata keçirdiyi layihələr qeyd edildi, şirkətin 30 il ərzində Azərbaycanda neft və qaz yataqlarının işlənilməsində iştirakının, o cümlədən SOCAR və bp ilə əməkdaşlığının davam etdirilməsinin vacibliyi bildirildi.

Görüşdə şirkət tərəfindən “SOCAR Green” şirkəti ilə birlikdə Kəlbəcər və Laçın bölgələrində geotermal enerji mənbələrinin istifadəsi ilə bağlı potensial layihənin həyata keçirilməsi barədə məlumat verildi.

Söhbət zamanı ölkəmizlə bu şirkət arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev “ExxonMobil” şirkətinin vitse-prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də “ExxonMobil” şirkətinin vitse-prezidenti Con Ardilli qəbul edib.**

Con Ardill “ExxonMobil” şirkətinin rəhbəri Darren Vudsun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını şirkətin rəhbərinə çatdırmağı xahiş etdi.

Görüşdə “ExxonMobil” şirkətinin Azərbaycanda uzunmüddətli fəaliyyəti, o cümlədən “Azəri-Çıraq-Günəşli” layihəsində səhmdar qismində iştirakı qeyd olundu. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə “ExxonMobil” arasında bu gün imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə Azərbaycan Prezidentinə məlumat verildi.

Qonaqlar Azərbaycanda neft-qaz, enerji sahələrinin inkişafı üçün mövcud olan münbit şəraiti xüsusilə qeyd etdilər.

## Prezident İlham Əliyev minifutbol üzrə Dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib

**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə Dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış etdi:**



### Prezident İlham Əliyevin çıxışı

– Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatı dünən başa çatdı. Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazanmışdır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə, komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var. Təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var. Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından Sizə təşəkkürümü bildirirəm. Sağ olun.

*

**Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dedi:**

– Möhtərəm cənab Prezident, mən şəxsən bütün federasiya adından, futbolçular adından, məşqçi heyəti adından Sizə öz dərin təşəkkürümü bildirirəm ki, bu gün bizi qəbul edirsiniz. Doğrudan da, bu gün bizim üçün həm şərəfli, həm də uğurlu bir gündür. Biz doğma divarlar arasında dünya çempionu olmuşuq. Bu, hər bir futbolçu üçün çox önəmli bir haldır. Sizə deyə bilərəm ki, bütün oyunlar zamanı bütün azarkeşlər bizi dəstəkləyirdi. Xalqımız televizorun önündə bizi dəstəkləyirdi. Əlbəttə ki, futbolçular da çox böyük zəhmət çəkdilər və hər bir oyunda bir ailə kimi ruhlarını, canlarını qoydular. Doğrudan da, azarkeşlər onları irəli səsləyirdi.

Möhtərəm cənab Prezident, əlbəttə ki, Sizin idmana, gəncliyə, ümumiyyətlə bütün futbolsevərlərə, minifutbolsevərlərə verdiyiniz dəstək bizim uğurumuzun əsas sütunu idi. Bunu hər bir futbolçu bilir və Sizə dərin təşəkkürümüzü bildiririk.

Həmçinin Sizin sahibkarlara göstərdiyiniz dəstək göz önündədir. Onlar futbolun bu növünə yatırımlar edirlər. Bizim çox güclü çempionatımız var. Sponsorlar oraya dəstək göstərir. Əlbəttə ki, biz bu çempionatdan ən güclüləri yığaraq bu gün milli komanda yaratmışıq. Onlar həm Avropa çempionu, həm də dünya çempionu oldular. Son dəfə Siz bizi qəbul edərkən Sizə söz verdik ki, çalışacağıq yeni titullar, yeni uğurlar qazanaq. Bizim üçün çox şərəflidir ki, bu dünya kubokunu Sizin önünüzə gətiririk.



Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və

Sizə çox dərin təşəkkürümü bildirirəm, bu qələbəni biz xalqımıza, Vətənimizə, Sizə və hörmətli Mehriban xanıma həsr edirik. Çox sağ olun, Sizə çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

Milli komandanın baş məşqçisi Elşad Quliyev: Hörmətli Prezidentimiz, öz adımdan, komandanın adından təşəkkür edirəm ki, bizi dəvət etmisiniz. Biz 2022-ci ildə də Avropa çempionu olanda Siz bizimlə səmimi söhbət etdiniz və tapşırıqlarınızı verdiniz. O gündən sonra da biz çalışırdıq ki, yeni nailiyyətlər əldə edək. İnşallah, qismət oldu, dünən dünya çempionu olduq. Bunun üçün Sizə çoxlu təşəkkür edirik və xalqımıza, federasiyamıza “Çox sağ ol!” deyirik. Sağ olun.

*(Ardı 6-cı səhifədə)*

# İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident!**

2 İyun Respublika Günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Dostluq, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-İtaliya dövlətlərarası münasibətlərinin hazırda dinamik və hərtərəfli inkişaf etməsi bizi sevindirir. Bu gün ölkələrimiz iqtisadiyyat, ticarət, energetika, sərmayə, müdafiə, humanitar, o cümlədən elm, təhsil və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət göstərir, əməkdaşlığımız ildən-ilə yeni məzmunla zənginləşir. Azərbaycan etibarlı strateji tərəfdaşı olan İtaliya ilə münasibətlərin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət verir. Siyasi əlaqələrimizin intensivliyi, ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu bunun üçün yaxşı zəmin yaradır.

Ən iri ticarət tərəfdaşımız olan İtaliyanı təmsil edən şirkətlər Azərbaycanda uzun illərdən bəri uğurla fəaliyyət göstərir və ikitərəfli münasibətlərimizin dərinləşməsində xüsusi rol oynayır. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərində ölkənizin şirkətlərinin yer alması tərəfdaşlığımızın yüksək səviyyəsindən xəbər verir.

Enerji sektorunda əməkdaşlıq Azərbaycan-İtaliya münasibətlərinin aparıcı istiqamətlərindən biridir. Bu sahədə geniş gündəliyə malik səmərəli işbirliyimiz, Cənub Qaz Dəhlizi çərçivəsində birgə fəaliyyətimiz Avropanın enerji təhlükəsizliyinin təminatına böyük töhfə verir.

Humanitar əlaqələrimizin də yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur. İtaliyanın beş aparıcı universiteti ilə birgə layihə çərçivəsində yaradılan İtaliya–Azərbaycan Universiteti əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir.

Mən ölkələrimiz arasında artan siyasi dialoqu yüksək qiymətləndirirəm. Bu gün biz qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq Azərbaycan-İtaliya əlaqələrini daha da dərinləşdirmək əzmindəyik.

Əminəm ki, ölkələrimiz arasında dostluğun və çoxölçülü strateji tərəfdaşlığın möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 may 2025-ci il**

# Prezident İlham Əliyev minifutbol üzrə Dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib




**(əvvəli 5-ci səhifədə)**

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda dedi:**

– Möhtərəm cənab Prezident, Azərbaycanı belə möhtəşəm təmsil edən bütün bu şəxslərlə birlikdə burada olmaq mənim üçün, həqiqətən də, şərəfdir. Sizin qarşınızda onları bu böyük uğur münasibətilə bir daha təbrik etmək və bu turniri Azərbaycana gətirdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Bu, zənnimcə, mənim Bakıya 8-ci səfərimdir. İlk dəfə 2017-ci ildə burada olmuşam, Azərbaycan Minifutbol Federasiyasından olan bu insanlarla görüşmüşəm. Deməliyəm ki, onlar, həqiqətən də, böyük iş gördülər. Onlar Avropa çempionluğunu, dünya çempionluğunu qazandılar. Mən Sizə növbəti çempionatlarda uğurlar arzulayıram. Bilirəm ki, Sizin qrafikiniz çox məşğuldur. Sizi bu gün başlayan "Bakı Enerji Həftəsi"ndə gördüm. Bizimlə və bütün bu şəxslərlə görüşmək imkanına görə təşəkkür edirəm. Ümidvaram ki, bu uğur sayəsində Azərbaycanda yeni nəsil minifutbolçular meydana çıxacaq. Çünki şübhəsiz ki, bu nailiyyətiniz Azərbaycanda minifutbolun inkişafına, xalqa və bütün cəmiyyətə müsbət töhfə verir.

Bildiyimə görə, Azərbaycan Minifutbol Federasiyası ölkədə minifutbol arenasına sahib olmaq üçün böyük səylər göstərir. Ümidvaram ki, Dünya Minifutbol Federasiyası və yerli hökumətlə birlikdə bu, uğurlu bir layihə olacaq. Çünki, şübhəsiz ki, bu insanlar 2022-ci ildə Avropa çempionluğu, 2025-ci ildə dünya çempionluğunu qazanmaqla buna həqiqətən də layiqdirlər. Onların burada cənab Prezidentin qarşısında olmaqları ilə fəxr edirəm.

Dəvətə görə təşəkkür edirəm, sizin hamınıza uğurlar arzulayıram.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram. Federasiya adından Azərbaycanda minifutbolun inkişafına verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Bu dəstək bizim üçün həqiqətən də qiymətlidir və biz Azərbaycanın beynəlxalq idman institutları ilə əməkdaşlığını yüksək qiymətləndiririk.

Əminəm ki, bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək.

Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır.

Bir daha sizi təbrik edirəm.

*

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

# "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**
**Hörmətli qonaqlar, xanımlar və cənablar!**

Sizi "Bakı Enerji Həftəsi"nin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bu mühüm tədbir enerji sahəsində nailiyyətlərimizin təqdimatı və gələcək prioritetlərin müzakirəsi üçün önəmli platforma rolunu oynayır. Biz artıq sayca 30-cu tədbirdə – yubiley tədbirində iştirak edirik ki, bu da onun uğurlu tarixini və əhəmiyyətini bir daha təsdiqləyir.

"Bakı Enerji Həftəsi" ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilmişdir. Enerji diplomatiyasının inkişafına, strateji tərəfdaşlıqlar qurulmasına və qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə töhfə verən bu tədbir ilk milli sərgi brendimiz kimi tarixə düşmüşdür.

Ötən illər ərzində bu təşəbbüs enerji sahəsində qlobal meyillərə uyğun şəkildə genişlənmiş və "Bakı Enerji Həftəsi" formatını almışdır. Ənənəvi enerji mənbələrindən bərpa olunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edildiyi "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır.

Eyni zamanda, bu tədbir Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun, beynəlxalq nüfuzunun və uzaqgörən strateji baxışının bariz təzahürüdür. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və yaşıl enerji üzrə davamlı inkişaf bu gün də ölkəmizin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə görülən işlər qlobal enerji bazarında Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini daha da gücləndirir. Tədbirin geniş miqyası və beynəlxalq əhatə dairəsi də bunu təsdiq edir. Dünyanın səksən ölkəsindən şirkətlərin iştirak etdiyi "Bakı Enerji Həftəsi" beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın tutduğu yerin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası kimi inkişafı isə dayanıqlı enerji strategiyasının əsas istiqamətidir. Uğurlu strateji yanaşmalar enerji sektorunda Azərbaycanın davamlı inkişafı üçün yeni imkanlar yaradır. Həyata keçirilən təşəbbüslər həmçinin ətraf mühitin qorunmasına məsuliyyətli münasibətimizi və enerji sahəsində liderlik iddiamızı əks etdirir.

Əminəm ki, "Bakı Enerji Həftəsi" öz zəngin ənənəsinə və innovasiyaya açıqlıq prinsipinə sadiq qalaraq, beynəlxalq dialoqun dərinləşməsinə, yeni tərəfdaşlıqlar qurulmasına və faydalı əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.

Bugünkü tədbirdə nümayiş etdirilən sərgilər münasibətilə təşkilatçıları və bütün iştirakçıları bir daha təbrik edir, hər birinizə səmərəli müzakirələr, uğurlu layihələr və davamlı əməkdaşlıq arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2025-ci il**

# "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 645 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri "Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası energetika nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini";

1.3. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" abzası ləğv edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Avstriya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Slovakiya ilə Azərbaycan arasında münasibətlərin uzun illərdir dostluq və qarşılıqlı hörmət əsasında inkişaf etdiyini, gələcək əməkdaşlıq üçün böyük potensial yaratdığını məmnuniyyətlə qeyd edirəm. Strateji tərəfdaşlığımızın bu əlaqələri daha da möhkəmləndirərək yeni imkanlar yaratmasını yüksək qiymətləndirirəm.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün ölkənizə səfərimi və şəxsən görüşümüzü xoş duyğularla xatırlayıram. Sizi Slovakiyada eyni yüksək qonaqpərvərliklə salamlamaq fürsətini səbirsizliklə gözləyirəm. Əminəm ki, görüşümüz ikitərəfli əlaqələrimizin uğurlu inkişafına mühüm təkan verəcəkdir.

Zati-aliləri, Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, əmin-amanlıq, sabitlik, uğurlar və rifah arzulayıram.

Bratislavada görüşümüzü və səmərəli müzakirələrimizi səbirsizliklə gözləyirəm.

Zati-alinizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasındakı möhkəm əlaqələrin davamlı şəkildə inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və firavanlıq diləyirəm.

**Dərin hörmətlə,**

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

*

**Zati-aliləri!**

Uruqvay Şərq Respublikasının xalqı və hökuməti adından və şəxsən öz adımdan 28 May - Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, əziz xalqınıza sülh və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər yaranıb və tam əminəm ki, bu münasibətlər mədəni, siyasi əməkdaşlıq zəminində möhkəmlənəcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Yamandu ORSİ,***
***Uruqvay Şərq Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram. Sizə davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında möhkəm dostluq əlaqələrinin və qarşılıqlı hörmətin olduğunu vurğulamaqdan məmnunluq duyuram.

Mən ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığımızı bundan sonra da möhkəmləndirmək və dərinləşdirmək üçün birgə səylər göstərəcəyimizə əminəm.

Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı bildirirəm.

**Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

*

**Zati-aliləri!**

Dost ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə uzun ömür, cansağlığı, müvəffəqiyyətlər, Azərbaycan Respublikasına və dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

*

**Möhtərəm cənab Prezident!**

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Türk Dövlətləri Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Müstəqilliyinin bərpasından keçən dövr ərzində siyasi, iqtisadi və sosial sahələrdə böyük irəliləyişlərə nail olmuş Azərbaycan Respublikası Zati-alinizin müdrik siyasəti sayəsində daha da inkişaf etmiş, regional və beynəlxalq məsələlərdə fəal iştirakı ilə seçilmiş, xüsusilə də sülhün, sabitliyin, əməkdaşlığın və rifahın təşviqində göstərdiyiniz səylərlə regionun lider ölkəsinə çevrilmişdir.

Türk Dövlətləri Təşkilatına daim göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, bu il Azərbaycanda keçiriləcək Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşü əməkdaşlığımızı və türk dövlətləri arasındakı həmrəyliyi daha da möhkəmləndirəcəkdir.

Fürsətdən istifadə edərək, bu əlamətdar bayram münasibətilə Zati-alinizə davamlı uğurlar, bütün Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik arzulayıram.

**Dərin hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

*

**Möhtərəm cənab Prezident!**

Əlamətdar bayram – 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram Azərbaycanın milli dövlətçiliyinin dirçəlişinin, ölkənin davamlı sosial-iqtisadi inkişafının və onun beynəlxalq arenada nüfuzunun möhkəmlənməsinin rəmzidir.

Bu gün qarşımızda öz gələcəyini inamla quran, ərazi bütövlüyünü bərpa etmiş və Qafqaz regionunda sabitliyin, tərəqqinin təmin olunmasında getdikcə daha çox mühüm rol oynayan qalib suveren Azərbaycan dayanır.

Əminəm ki, qarşıdakı illər ölkələrimiz arasında çoxplanlı əməkdaşlığın və ənənəvi dostluq əlaqələrinin bundan sonra da möhkəmlənməsində əlavə perspektivlər açacaqdır.

Möhtərəm cənab Prezident, bu bayram münasibətilə Sizə möhkəm cansağlığı, əmin-amanlıq və çoxşaxəli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

*

**Möhtərəm cənab Prezident.**

MDB Parlamentlərarası Assambleya Şurasının – Müstəqil Dövlətlər Birliyi iştirakçılarının adından 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Bu əlamətdar gün təkcə azadlığın, suverenliyin və ərazi bütövlüyünün bərpasının deyil, həm də Azərbaycan xalqının birliyinin, onun ölkənin tarixi və mədəniyyəti ilə qürur duymasının rəmzidir. Bu gün respublika beynəlxalq arenada öz mövqelərini möhkəmləndirərək və ölkənin tərəqqisinə xidmət edən mühüm layihələri həyata keçirərək irəliyə doğru inamla addımlayır.

Sizə - görkəmli dövlət xadiminə möhkəm cansağlığı, Azərbaycan Respublikasının əmin-amanlığı və onun vətəndaşlarının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

# Prezident İlham Əliyev Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




**Azərbaycan Prezidenti İlham Əliyev 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.**
**AZƏRTAC paylaşımı təqdim edir.**

# Baş nazir Pakistanın neft naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliklə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə dinamik inkişafından məmnunluq ifadə olunub.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərin beynəlxalq enerji əməkdaşlığının təşviqi baxımından əhəmiyyəti qeyd edilib.

Görüş zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq imkanları müzakirə olunub, perspektivli neft-qaz layihələri nəzərdən keçirilib.

# Xankəndidə Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu




**Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil və dövlət-özəl tərəfdaşlığının inkişafını təşviq etmək məqsədi daşıyan Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu keçirilib.**

Forum Elm və Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin tərəfdaşlığı, Qarabağ Dirçəliş Fondu, Təhsilin İnkişafı Fondu, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunub.

Qarabağın bərpası və inkişafında bütün tərəflərin koordinasiyalı fəaliyyətinin vacibliyini bir daha gündəmə gətirən tədbirdə dövlət qurumlarının nümayəndələri, bölgədə yerləşən xüsusi nümayəndəliklərin heyəti, özəl sektor təmsilçiləri, Qarabağ Universitetinin professor-müəllim heyəti olmaqla, 200-dən çox iştirakçı yer alıb.

"Gələcəyin Qarabağı üçün birgə addımlar" konsept mesajı ilə keçirilən forumun açılış mərasimində Qarabağ Universitetinin rektoru Şahin Bayramov, elm və təhsil naziri Emin Əmrullayev və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edərək, Qarabağ bölgəsində təhsilin inkişafı, insan kapitalının gücləndirilməsi və dövlət-özəl sektor əməkdaşlığının strateji əhəmiyyəti barədə fikirlər səsləndiriblər.

"Qarabağ Təqaüd Proqramı"nın təsis olunması forumun əsas nəticələrindən biri olub. Belə ki, fərqli sektorları təmsil edən qurum və şirkətlər - Qarabağ Dirçəliş Fondu, "Veysəloğlu" Şirkətlər Qrupu, Azərbaycan Beynəlxalq Bankı, "Kapital Bank" ASC, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı, "McDonald's Azərbaycan" QSC, "PSG Capital" İnvestisiya şirkəti, ASELSAN şirkəti, "GEN ilaç" şirkəti, "LANDAU School" məktəb kompleksi, Hədəf Şirkətlər Qrupu, "Çaşıoğlu" şirkəti, "İnci" Şirkətlər Qrupu, "Code Academy", Bakı Dizayn Akademiyası və TUNA şirkəti Qarabağ Universitetində təhsil alan tələbələr üçün təqaüd təsis etmək öhdəliyini üzərlərinə götürüblər. Əsas məqsəd regionun sosial-iqtisadi inkişafına töhfə vermək, dövlət-özəl sektor əməkdaşlığını gücləndirmək, eləcə də gəncləri Qarabağa yönləndirmək və regiona olan marağı artırmaq, tələbələrə maddi dəstək göstərmək, onların akademik və peşəkar inkişafını təşviq etməkdir.

***XQ***

# Avropada yeni liderlik örnəyi

**(əvvəli 1-ci səhifədə)**




Ölkəmizin Orta Dəhlizdə oynadığı rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd etdi. Dövlətimizin başçısı Orta Dəhlizlə yüklərin daşınma həcminin artdığını da dedi.

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunuldu.

Prezidentin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə görüşü zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Tiranada keçirilən Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin maraqla qarşılanması, diqqət mərkəzində olması, bunun qarşılığında Ermənistanın baş naziri Nikol Paşinyanın kölgədə qalması diqqətdən yayınmadı. İlham Əliyevlə Paşinyanın görüşündən onların davranışları, jestləri və ünsiyyət forması siyasi-psixoloji baxımdan çox vacib mesajlar idi. Görüşdə İlham Əliyevin qalib ölkənin qalib lideri olması açıq-aşkar şəkildə özünü büruzə verirdi.

İlham Əliyevin sakit, sabit, bir qədər də məğrur duruşu, jestlərinin minimal olması onun güclü və vəziyyətə nəzarət edən tərəf olduğunu nümayiş etdirirdi. Nikol Paşinyan isə masa arxasında irəliyə doğru əyilmiş vəziyyətdə əyləşərək bir-birinə uyuşmayan jestlər ilə gülünc görkəmdə görünürdü. Paşinyanın üz ifadəsində və hərəkətlərində emosional gərginlik və narahatlıq hiss edilir, sanki Prezident İlham Əliyevi inandırmağa çalışırdı ki, ona inansın.

Albaniyanın paytaxtı Tiranada keçirilən ASB-nin 6-cı Zirvə toplantısı İlham Əliyevin və Azərbaycanın beynəlxalq nüfuzunun gücləndirilməsi baxımından əhəmiyyətli tədbir idi. Həmin sammitdə 50-yə yaxın ölkənin liderləri iştirak edirdilər.

Bu cür mötəbər tədbirdə ölkəmizin iştirakı Azərbaycanın həm regional, həm də qlobal miqyasda necə vacib ölkə olduğunun göstəricisidir.

Prezident İlham Əliyevin istər tədbirin plenar sessiyalarında iştirakı, istərsə də bir sıra Avropa liderləri ilə keçirdiyi görüşlər Azərbaycanın diplomatik fəallığının mühüm nümunəsi kimi qiymətləndirilməlidir. Tədbir zamanı diqqətçəkən məqamlardan biri İlham Əliyevin Fransa prezidenti Emmanuel Makronla görüşü oldu. Liderlərin bu görüşü son vaxtlar iki ölkə arasında yaranmış gərgin münasibətin üzərinə bir növ su səpmiş kimi oldu. Paşinyanın kənardan baxışları isə onun növbəti məğlubiyyəti idi. Təbii ki, bu, sadəcə başlanğıcdır. Fransa ermənipərəst mövqeyindən tam əl çəkməli, onları silahlandırmağı dayandırmalı və bölgədə davamlı sülhün bərqərar olmasına maneçilik törətməməlidir. Hərçənd ki, indiki məqamda, bu, ağlabatan deyil.

Dövlət başçımızın Tiranada keçirdiyi görüşlər Azərbaycanın qarşısına qoyduğu gələcək hədəflərinə çatması baxımından önəmli diplomatik mərhələdir. Avropa ölkələri ilə dialoqun dərinləşməsi, əməkdaşlıq imkanlarının genişlənməsi və beynəlxalq arenada ölkəmizin mövqeyinin daha da möhkəmlənməsi üçün belə tədbirlər strateji əhəmiyyət daşıyır. Azərbaycan bu kimi zirvə görüşlərində iştirak etməklə təkcə siyasi dialoqu gücləndirmir, eyni zamanda, ölkənin milli maraqlarını qlobal gündəmə çıxarır, tərəfdaşlarını daha yaxından tanıdır və mövqelərini konkret arqumentlərlə müdafiə edir. Bu isə müasir dövrdə uğurlu dövlətçilik və effektiv xarici siyasətin əsas şərtlərindən biridir.

Bundan öncəki tədbirlərdə olduğu kimi, Tiranada baş tutan sammitdə də İlham Əliyev əsas diqqət mərkəzində idi. Nüfuzlu liderlər onunla söhbət etmək, salamlaşmaq və fikir mübadiləsi aparmaq üçün sanki bir-biri ilə yarışırdılar. Bu isə İlham Əliyevin necə nəhəng siyasətçi və lider olduğunu göstərir.

İlham Əliyevin Avropa Siyasi Birliyinin Zirvə toplantısına səfəri Azərbaycanın dünyada artan statusunu bir daha təsdiqləyən böyük uğur kimi dəyərləndirilməlidir. Bunu rusiyalı politoloq İqor Korotçenko xüsusi olaraq vurğulayıb: "Azərbaycana və onun rəhbərinə maraq Tiranada müxtəlif dövlət liderlərinin forumun kənarında Azərbaycan lideri ilə danışıqlar aparmaq istəyi ilə təsdiqlənib. Bu, obyektiv şəkildə Bakının tutduğu siyasi mövqenin hörmət və digər dövlət liderlərinin birbaşa tərəfdaşlıq münasibətləri qurmaq istəyi doğurması ilə izah olunur. Bu həm də onunla izah olunur ki, bir sıra enerji layihələrinin icrası çərçivəsində Azərbaycan Avropa Birliyinin enerji təhlükəsizliyinin təminatçılarından biridir. Ümumiyyətlə, hətta Nikol Paşinyan və Emmanuel Makron kimi liderlər də mövcud problemləri həll etmək, rəğbət oyatmaq və müəyyən, ən azı görünən nəticələr əldə etmək üçün İlham Əliyevlə görüşməyə can atırdılar. Bu baxımdan demək lazımdır ki, İlham Əliyevin təbəssümlə əl sıxmağı real siyasətdən çox aydın şəkildə fərqləndirir. Axı Parisin anti-Azərbaycan siyasət yeritdiyi məlumdur.

İlham Əliyev bu gün Qərbdə hörmət edilən liderdir. Azərbaycanın statusu və rolu artır. E.Makron kimi siyasətçilər Prezident Əliyevlə müqayisədə solğun görünürlər. İlham Əliyev zalda olanda və ya haradasa danışanda E.Makron açıq-aydın eyni liqada yox, ikinci liqada oynayır. İlham Əliyev isə yüksək liqada çıxış edir. Rəcəb Tayyib Ərdoğan onu qarşılayan və üstünlüyünü göstərməyə çalışan E.Makrona kifayət qədər təzyiq göstərdi. Fransa iyrənc siyasət yürüdür, Azərbaycan və Türkiyə ona Bakı və Ankaranın maraqlarının olduğu yerdə fəaliyyət azadlığı verməyəcəklər. N.Paşinyan isə fəal şəkildə İlham Əliyevlə görüş və təmaslar axtarırdı, hətta hazırkı siyasi gündəmi daha rahat şəraitdə müzakirə etmək üçün qəhvə də təklif etdi".

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatı (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə də İlham Əliyev diqqət mərkəzində idi. Macarıstanın Baş naziri Viktor Orbanın İlham Əliyevlə görüşü zamanı səsləndiriyi fikirlər Azərbaycan rəhbərinin obrazlı desək, siyasi portretini çəkmiş oldu. Orban dedi: "Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub". Daha sonra Orban sözünə davam etdi: "Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir. Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır".

İlham Əliyevin rəhbərliyi altında Avropanın mühüm iqtisadi və siyasi mərkəzlərindən biri olan Macarıstanla Azərbaycanın əlaqələri uğurla inkişaf edir. Cənab Prezidentin qeyd etdiyi kimi, biz dost ölkələrik, strateji tərəfdaşıq: "Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var".

Hər birimizə məlumdur ki, Macarıstan hər zaman Azərbaycanın haqq-ədalət mübarizəsini dəstəkləyib və bu mübarizədə öz köməyini əsirgəməyib. Hazırda Macarıstan Avropa İttifaqı (Aİ) çərçivəsində güclü mövqeyə sahib olan bir dövlətdir. Bu dövlətin qonşu ölkələrlə əlaqələrinin möhkəmliyi və sağlam diplomatik münasibətləri iqtisadi inkişafa zəmin yaratmışdır.

İlham Əliyev iştirak etdiyi bütün tədbirlərdə sülh tərəfdarı olduğunu diqqətə çatdırır. Məhz buna görədir ki, qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Macarıstanda İlham Əliyev haqqında yüksək fikirlər səsləndirərək onun tarixə düşəcəyini açıqladı. Ərdoğan dedi: "Azərbaycan Prezidenti İlham Əliyevin bölgəyə sülh gətirəcək lider olaraq tarixə düşəcəyinə əminəm. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması bu istiqamətdə mühüm addımdır".

Beləliklə, biz İlham Əliyevin simasında Avropada yeni bir liderin yetişdiyini görürük. Bu isə illərdən bəri Azərbaycan xalqının ona olan sevgisi, inamı və etibarı sayəsində əzəmətli obrazını təyin edir. Bunu da dünya görür və etiraf edir.

***Səyyad ARAN,***
***Milli Məclisin deputatı***

# Azərbaycan və İran Birgə Komissiyasının 54-cü görüşü



**Bakıda Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan və İran daimi fəaliyyət göstərən Birgə Komissiyasının 54-cü görüşü keçirilib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, Azərbaycan-İran Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda agentliyin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və "AzərEnerji" ASC-nin nümayəndələri iştirak ediblər.

Görüşdə bir sıra məsələlər müzakirə edilib. Belə ki, Araz su anbarının iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilib, Araz çayında su və energetika ehtiyatlarından birgə istifadə üzrə müvafiq bölgü cədvəlləri hazırlanıb və protokol imzalanıb.

***XQ***

# Daxili işlər naziri Bərdədə vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 1-də və 2-də Bərdə Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin Bərdə şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.



Sonra polis şöbəsinin inzibati binasında Bərdə, Ağdam, Ağcabədi, Şuşa, Laçın, Tərtər, Zərdab şəhər və rayonlarından qəbula gələn 397 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində nazir DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 37 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 328 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*XQ*

**Fransanın Xarici İşlər Nazirliyində Ermənistanla əməkdaşlıq üzrə koordinator postu yaradılıb. Bu barədə məlumatı ölkənin İrəvandakı səfiri Olivye Dekotini dünən Ermənistan–Fransa mərkəzləşdirilməmiş əməkdaşlığı ilə bağlı Gorusda keçirilmiş 5-ci konfransdakı çıxışında verib. Əslində, hər şey aydındır. Fransanın Ermənistanı himayəyə götürdüyü də, birincinin ikincini illüziya bataqlığında boğmaq üçün əlindən gələn hər şeyi etdiyi də.**

# Zəngəzur dəhlizi və “Fransa koordinatorluğu”

## *Dekotini rəsmi Parisin yeni məkrinin anonsunu verir*

Beləliklə, səfir Dekotini bildirib ki, belə bir koordinatorluğun dünyada analoqu yoxdur. Diplomat haqlıdır. Çünki beynəlxalq müstəvidə Ermənistanı Fransa kimi alətə çevirən ikinci dövlətə rast gəlinmir. Ancaq hesab edirik ki, rəsmi Parisin ayrıca koordinatorluq kimi post təsis etməsinə ehtiyac yoxdur. Onsuz da Fransanın xarici siyasəti ancaq Ermənistan üzərində qurulub. Belə təsəvvür var ki, o boyda ölkə işini-gücünü buraxıb yalnız haylarla məşğuldur. Daha yaxşı olar ki, tez bir zamanda referendum keçirilsin və Ermənistan Fransanın quberniyasına çevrilsin. Yəni, de-fakto mövcud olan durum hüquqi cəhətdən də rəsmiləşsin.

Bəli, Prezident Emmanuel Makron administrasiyası özünün erməni təəssübünü göstərmək üçün dəridən-qabıqdan çıxır. Bu mənzərə istər-istəməz, yada 2025-ci il yanvarın 14-də imzalanmış ABŞ-Ermənistan Strateji Tərəfdaşlıq Xartiyası adlandırılan və pafosla təqdimatı aparılan sənədi xatırlatdı. Məlum olduğu kimi, sənədin ərsəyə gəlməsindən cəmi altı gün sonra Birləşmiş Ştatlarda Prezident Donald Tramp dövlət başçısı kimi fəaliyyətə başladı və hazırda sözügedən xartiyadan nəinki danışan, adını belə tutan yoxdur. Heç şübhəsiz, Makron prezidentlikdən gedəndən sonra Fransa XİN-dəki koordinatorluq da tarixin zibilliyinə göndəriləcək.

Amma hələlik Ermənistan üzrə ayrıca koordinatorluğa “ehtiyac” var. Bunu səfir Dekotininin bildirdikləri də təsdiqləyir. Onun sözlərinə görə, Ermənistanla Fransa arasında çoxşaxəli əlaqələr mövcuddur. Əlaqələrin məqsədi də var. Söhbət geosiyasi vəziyyətə təsir göstərməkdən gedir. Yəni, Paris və İrəvan birləşib qlobal duruma təsir göstərəcəkmişlər. Hər halda, yanaşmanın bəsit olduğunu təxmin etmək o qədər də çətin deyil. Fransa kimi dövlətçilik ənənələrinə malik ölkə nə günə qalıb ki, onun geosiyasi duruma təsir vasitəsi Ermənistandır. Amma təəccüblənməyək. Çünki Makron Fransası, həqiqətən, pis gündədir.

Əlbəttə, belə konfransın Gorusda, daha dəqiq desək, Sünikin – Zəngəzurun mərkəzində keçirilməsi sıradan məsələ deyil. Fransa erməni avantürasına mənəvi obraz qazandırmaqla məşğuldur. Elə səfir Dekotininin digər söylədikləri də fikrimizin sübutudur. Məsələn, o deyir ki, Gorus Qarabağdan köçkün düşmüş ermənilərin məskunlaşdığı bölgədir. Halbuki həmin ermənilərin böyük hissəsi İrəvana sığınıb, əhəmiyyətli qismi isə ümumən ölkəni tərk edib. Yəni, fransız səfir ağ yalan danışır.

Dekotininin Gorusun sülh yaradan şəhər olmasına dair ucuz populizmini də bir kənara qoyuruq. Başlıca məqam diplomatın Gorusu kəsişən şəhər kimi qələmə verməsidir. Onun sözlərinə görə, əsas fəaliyyət sülhün qurulmasına yönəldilib: “Gorus yenidən yolayrıcına çevriləcək və bizim burada varlığımız, məncə, çox əhəmiyyətlidir”.

Dekotini nə söylədiyinin fərqindədir. Diplomat ölkəsinin Ermənistan hakimiyyətinin “Dünyanın kəsişməsi” avantürasının müdafiəsinə qalxdığını vurğulayır. O zaman belə bir sual yaranır: Görəsən, Azərbaycan torpaqları işğalda qalanda Fransanın rəhbərliyində kiminsə yadına Gorusu kəsişən nöqtəyə çevirmək düşürdümü? Əsla yox! Digər tərəfdən, erməni iqtidarının “Dünyanın kəsişməsi” təşəbbüsünün Azərbaycanın Zəngəzur dəhlizi ideyasına qarşı olduğu məlumdur. Yəni, indi səfir Dekotini Gorusu kəsişmə nöqtəsinə çevirməklə, ölkəsinin açıq şəkildə məhz Zəngəzur dəhlizinə qarşı çıxdığını ortaya qoyur. Belə nəticəyə gəlmək olar ki, barəsində əvvəldə söz açdığımız koordinatorluğun başlıca missiyası da elə budur.

Əvvəldə Fransanın Ermənistanı illüziya bataqlığında boğduğuna dair fikir də bildirmişdik. Sonda bir daha həmin fikrin üzərində dayanaq. Məsələ ondadır ki, rəsmi İrəvan var gücü ilə Ermənistanı regional kommunikasiyaların açar fiquruna çevirmək niyyəti güdür. Fransa bu məqsədə “erməni kartı”nı daim işlək vəziyyətdə saxlamaq vasitəsi kimi yanaşır. Halbuki rəsmi Paris başda olmaqla, ermənipərəstlərin unutduqları bir məqam var – Cənubi Qafqazda Azərbaycanın razılığı olmadan heç bir layihə gerçəkləşə bilməz.

Azərbaycan isə mövqeyində qətidir. Ölkəmiz Zəngəzur dəhlizini böyük Orta Dəhliz ideyasının tərkib hissəsi kimi görür. Mövcud xüsusdakı başlıca məqamlardan biri də Naxçıvana yoldur. Rəsmi Bakı yolun maneəsizliyində - heç bir gömrük və sərhəd nəzarəti olmadan fəaliyyət göstərməsində maraqlı və



israrlıdır. Yol “Azərbaycandan Azərbaycana yol” statusu daşımalıdır.

Ermənistan məsələnin bu qoyuluşu ilə razı deyil. Ona görə də ölkəmiz Tehranla Naxçıvana yolun İran ərazisindən keçməsi barədə razılıq əldə edib. Ancaq görünən budur ki, Fransa başda olmaqla dünya ermənipərəstləri məsələnin bu tərəfi ilə də razı deyillər. Onlar Ermənistanın qlobal marşrutdan kənarda qalma reallığı ilə barışa bilmirlər və heç şübhəsiz, qarşıdakı müddətdə vəziyyəti gərginləşdirmək, ümumən Orta Dəhliz ideyasının gerçəkləşməsinə maneçilik törətmək istəyəcəklər. Bu məntiqlə Gorus, daha doğrusu, Sünik əsas nöqtədir. Həm də ona görə ki, Fransa başda olmaqla, ermənipərəstlər yaxşı bilirlər ki, onların regionda vəziyyəti destabilizə etmək cəhdləri ölkəmizin müqaviməti ilə üzləşəcək. Fransa XİN-də yaradılmış koordinator postu əslində, bu perspektivi əlavə nəzarətdə saxlamaq vasitəsi kimi “cəlbedicidir”. Koordinatorluğun məkrli niyyətə hesablandığını təsdiqləyən ən mühüm məqam da budur.

***C.ƏVƏZ***
***XQ***

# Sərhəddəki mülki ...silahlılar

## *“Aİ missiyası” Ermənistanda Qərbin informasiya forpostuna çevrilib*

**2025-ci ilin əvvəlində Avropa İttifaqının (Aİ) Ermənistandakı mülki müşahidə missiyasının mandatı daha iki il müddətinə uzadıldı. Bu qərar Ermənistan və Azərbaycan arasında sülh sazişinin mətni üzrə razılaşmanın əldə olunmasından bir qədər əvvəl qəbul edildi. Diqqəti cəlb edən məqam odur ki, sazişin bəndlərindən birində açıq şəkildə qeyd olunur ki, üçüncü ölkələrin qüvvələri iki dövlətin sərhədində yerləşməyəcək. Ermənistan tərəfi bu hüquqi “nonsens”ə özünəməxsus şəkildə verdiyi şərhində bildirib ki, sülh sazişi imzalandıqdan sonra Aİ misiyasının fəaliyyəti ilə bağlı “qarşılıqlı qəbul edilən həll yolları” tapılacaq.**

Rəsmi Bakı dəfələrlə Aİ müşahidə missiyasının fəaliyyəti ilə bağlı bir sıra ciddi iradlarını səsləndirib. Bakı haqlı olaraq bildirir ki, missiyanın Ermənistan ərazisində yerləşdirilməsi zamanı Azərbaycanın razılığı alınmayıb. Halbuki regionda fəaliyyət göstərən hər hansı beynəlxalq strukturun legitimliyi üçün tərəflərin razılığı mühüm şərt sayılır. Azərbaycanın diplomatik bəyanatlarında Aİ-nin fəaliyyətinin müşahidəçilik missiyasından kənara çıxaraq kəşfiyyat və geosiyasi təsir alətinə çevrilməsi ehtimallarına diqqət yetirilir.

Yeri gəlmişkən, Azərbaycan məlum missiya ilə bağlı mövqeyində heç də tək deyil. Rəsmi Moskva da analoji yanaşmanı bölüşür. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dəfələrlə bəyan edib ki, Aİ yalnız Ermənistanın deyil, bütövlükdə regionun, o cümlədən Rusiyanın, İranın və Azərbaycanın maraqlarına zidd kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Xüsusilə 2024-cü ilin noyabrından 2025-ci ilin fevralınadək Rusiya və Azərbaycanın həm hökumətyönlü, həm də müstəqil mediada Aİ ilə bağlı oxşar yanaşmaların müşahidə edilməsi bir daha təsdiq edir ki, bu məsələ informasiya savaşında yeni koordinasiyalı cəbhəyə çevrilib. Azərbaycanın elektron mediasında yayılan bəzi görüntülü materiallarda müşahidəçilərin fəaliyyətinə dair vizual kadrlar özlüyündə “kəşfiyyatçılarla” bağlı bütün şübhələri tam təsdiqləməsə də, cəmiyyətdə müəyyən rəyin formalaşmasına zəmin yaratdı. İntəhası, burada əsas narahatlıq fransız-alman jandarm-hərbçilərinin fəaliyyət sferasının qeyri-şəffaflığı, məlumat-hesabatların Aİ-nin “beyin mərkəzləri”nə ötürülməsi ehtimalıdır.



***

Yerli ekspertlərdən bəziləri bu qənaəti bölüşürlər ki, Aİ-nin adı mülki missiyası artıq “silahlı qruplaşmaya” çevrilməkdədir. Missiyanın mandatının uzadılması zamanı hərbi texnikadan, xüsusi cihazlardan istifadə, müşahidəçilərin silahlanması və s. kimi məsələlər gündəmə gətirilib. Bütün bunlara baxmayaraq, Aİ israrla bildirir ki, missiya tamamilə mülki xarakter daşıyır və yalnız Ermənistan ərazisində fəaliyyət göstərir...

**Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri Fərhad Məmmədov mövzu ilə bağlı XQ-yə açıqlamasında maraqlı bir məqama diqqət çəkdi:** “Missiya şərti sərhəddə, Ermənistanın şərqində və cənub-qərbində 1000 kilometrdən çox ərazidə fəaliyyət göstərir. Bir neçə ay bundan əvvəl hay mediası avtomobil qəzasına düşmüş Ermənistan vətəndaşlarının həyatını xilas edən Aİ missiyasının üzvləri haqqında məlumat vermişdi. Yəni, Aİ müşahidəçiləri İrəvan–Gümrü yolunda baş vermiş qəzada yaralanan insanları xilas ediblər. Axı, bura Ermənistanın Qərb ərazisi, Türkiyə ilə sərhəd zonasıdır. Avropalı missionerlərin bu yolda, Türkiyə ilə sərhəddə nə işləri var?! Amma onlar gileylənirlər ki, min kilometrlik sərhəddə patrul həyata keçirməyə adamları çatmır. Gümrüdə Rusiyanın hərbi bazası yerləşir. Bəlkə onlar Ermənistan–Türkiyə sərhədinə göz dikiblər?!

Bakının təklifi ilə sülh sazişinə Azərbaycanla Ermənistan sərhədində üçüncü qüvvələrin yerləşməsinin yolverilməzliyinə dair bənd daxil edilib. Halbuki Ermənistan Aİ missiyasının timsalında üçüncü tərəfin sərhəddə şübhəli xidmətinə icazə verib. Bu missiya, guya, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə yardım edəcəkmiş. Həm də onun vasitəsilə Aİ bu prosesə texniki dəstək vermək, tərəflər arasında sülh və etimad mühiti yaratmaq niyyətində imiş. Bu gün sərhədlərin delimitasiyası və demarkasiyası prosesi ikitərəfli formatda gedir. Yəni, Aİ heç bir halda orada iştirak etmir. Və bu iki element Azərbaycan tərəfinin narazılığının tam haqlı olduğunu ortaya qoyur”.

F.Məmmədov hesab edir ki, Aİ missiyasının mandatının uzadılması sülh müqaviləsinin imzalanmasına maneələr yaradır: “Ola bilsin ki, bu missiyanın Ermənistanda mövcudluğu onun təhlükəsizlik sisteminin tərkib hissəsi kimi qəbul edilir. Əgər Paşinyan Aİ missiyasını sərhədin delimitasiya və demarkasiya olunmuş hissələrindən çıxarmağı təklif edirsə, deməli, Ermənistanın özünün belə imkanı var. Bu, danışıqlar prosesinin tərkib hissəsi ola bilər. Ermənistanın öz ərazisində hansı qüvvələrin olacağına özü qərar verə bilər. Amma bu qüvvələr şərti sərhəddə cəmləşib, anti-Azərbaycan məzmunlu feyk-informasiya yayırsa, Bakının təxribat xarakterli belə hərəkətlərə



uyğun reaksiya vermək hüququ var. Odur ki, mandatı daha iki il uzadılmış missiyanın funksionallığını dəyişdirmək barədə danışıqlar aparmaq zərurəti yaranıb”.

***

Bəli, funksionallıq ciddi əhəmiyyət kəsb edən məsələdir. Burada əsas problem ondan ibarətdir ki, Qərb Aİ missiyası vasitəsilə Ermənistanı təkcə özünün müşahidə obyektinə deyil, həm də geosiyasi dayağına çevirir. Azərbaycan üçün bu, regiondaxili güc balansının pozulması təhlükəsini yaradır. Eyni zamanda, bu xarakterli missiyalar Ermənistan cəmiyyətində yanlış təhlükəsizlik illüziyası formalaşdırmağa xidmət edir. Guya, Qərb Aİ mülki missiyasının əlindəki hərbi-siyasi resurslarla Ermənistanı Azərbaycan tərəfindən gözlənilən “təcavüzdən və işğaldan” qoruyacaq. Əlbəttə, burada beynəlxalq ictimai rəylə manipulyasiya cəhdləri göz qabağındadır.

Azərbaycan hələ iki il bundan əvvəl bəyan etmişdi ki, sərhədlərin demilitarizasiyası yalnız Bakı və İrəvan arasında birbaşa qarşılıqlı razılaşma əsasında baş verə bilər. Bu prosesdə kənar qüvvələrin, üçüncü tərəfin iştirakı regionda sabitlik deyil, əksinə, yeni risklər yaradacaq. Rəsmi Bakının irəli sürdüyü bu format öz bəhrəsini verdi və sərhədin müəyyən hissəsində reallaşdırılan demarkasiya işlərindən İrəvanın özü də məmnun qaldığını bildirdi və proses hökumətlərarası işçi qruplarının planlı fəaliyyəti ilə davam etdirilir.

Azərbaycanın diplomatik mövqeyi həm də beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanır. Bu prinsiplər dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı və daxili işlərinə müdaxilənin yolverilməzliyidir. Azərbaycan, eyni zamanda, onu da qeyd edir ki, əgər sülh sazişinin mətni üzrə tərəflər razılığa gəliblərsə, üçüncü tərəfin iştirakı danışıqlar prosesini ləngidən və qarşılıqlı etimadı zədələyən amilə çevriləcək.

Sonda onu da qeyd edək ki, Aİ-nin şərti sərhəddəki müşahidə missiyası yalnız balanslaşdırılmış, bölgə ölkələrinin hamısının maraqlarını nəzərə alan yanaşma sərgilədiyi təqdirdə sülhə töhfə verə bilər. Əks halda, bu missiya Cənubi Qafqazda hələ də kövrək sülhə söykənən mürəkkəb geosiyasi qütbləşməni daha da dərinləşdirə bilər. Bundan zərər çəkən tək tərəf isə Ermənistan olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistanda din-dövlət qarşıdurması

(əvvəli 1-ci səhifədə)

Əslində, Paşinyanın dedikləri Erməni Apostol Kilsəsinin mənəvi deqradasiyaya uğradığını göstərir. Durumun müxtəlif təzahürləri - II Qaregindən tutmuş, digər din xadimlərinədək bir çoxlarının əxlaqsızlığı erməni kluarlarında geniş müzakirə olunur. Lakin burada müəyyən tabu mövcuddur. Heç kəs, loru dildə desək, dərinə getmək istəmir. Elə Paşinyanın özü də, nə qədər kilsəyə qarşı müxalif mövqe tutsa da, indiyədək vəziyyəti gərginləşdirməmişdi. Amma hazırda...

Nikol və komandasının üzvləri yaxşı bilirlər ki, II Qaregin və tərəfdarlarını susqunluqla qarşılamamaq “ölümə” bərabərdir. Ona görə də Paşinyanın jurnalist dostları və blogerləri katolikosu vaxtaşırı hədəfə alırlar. İndi isə Paşinyanın kilsə ilə qarşıdurmasının iki başlıca səbəbi var. Birincisi, erməni iqtidarı 2026-cı il seçkilərinə hazırlığa başlayıb. Hakimiyyət düşərgəsi ölkənin eks rəhbərliyini hədəfə alır, parlament tribunasından Ermənistanın ikinci prezidenti Robert Koçaryanın atasının türk, daha doğrusu, azərbaycanlı olması faktını qabardır. Yəni, hay iqtidar komandası xalqın başa düşdüyü dildə danışaraq ittihamların dozasını artırır.

Nəzərə alaq ki, Ermənistanda "ekslərin" başlıca dayağı məhz kilsə, II Qaregindir. O Qaregin ki, bu günlərdə İsveçrəyə səfər edərək paytaxt Bern şəhərində erməni icması qarşısındakı çıxışında bildirmişdi ki, Ermənistan 2020-ci ildə müharibəyə cəlb edilib, savaş nəticəsində "Artsax" əhalisi azalıb, indi isə “insanlar çoxəsrlik vətənlərindən məhrum olublar”. Katolikosun ikinci məqam kimi vurğuladığı məsələ Qarabağda guya erməni mədəni, mənəvi və tarixi irsinin məhvidir. O, eyni zamanda, Azərbaycanın suveren Ermənistan ərazilərinə təcavüz etdiyini iddia edib, ölkəmizin guya sülh istəmədiyini söyləyib, diqqəti "Azərbaycanda saxlanılan erməni hərbi əsirlər" məsələsinə yönəldib, Qarabağ ermənilərinin geri qayıdış hüququndan dəm vurub.

Bir sıra erməni ekspertlər bildirirlər ki, Nikolu qəzəbləndirən də məhz bu açıqlamalar olub. Çünki II Qareginin dedikləri kilsəyə siyasi proseslərin katalizatoru statusunu qazandırır. Axı erməni kilsəsi təkcə dini məbəd deyil, həmçinin, siyasi məsələlərin, hətta terror planlarının qurulduğu məkandır və tarixən də belə olub. Paşinyan isə 2018-ci ildən etibarən din və dövlət işlərinin ayrılmasına dair Qərbyönümlü, sekulyar mövqe tutur, kilsənin siyasi təsir imkanlarını məhdudlaşdırır. Ermənistandakı kilsə-hakimiyyət qarşıdurmasının kökündə də məhz bu amil dayanır.

Bəli, 2018-ci ildə "Qarabağ xuntası"nı devirərək hakimiyyətə gəlmiş Paşinyan yaxşı anlayır ki, həmin xuntanın, belə demək mümkünsə, müqəddəslik sığınacağını tam zərərsizləşdirə bilməyib və bu cəhət onu və tərəfdarlarını daim narahat edir. Nikol dövlətin dini məbədlərə ayırdığı vəsaiti azaltsa da, dini təhsilin dəstəklənməsində dəyişikliklər etsə də, bütün bunlar arzu olunan nəticəni vermir. Onun kilsəni keçmiş rejimlə əlaqədə və korrupsiyada ittiham etməsi də yetərli olmur.

Qeyd edək ki, II Qaregin və tərəfdarları hakim düşərgənin ittihamları qarşısında geri çəkilmirlər. Xüsusən də 2020-ci ilin 44 günlük müharibəsi onlara əlavə əsas verir. Katolikosun 2020-ci ilin dekabrında və 2021-ci ilin fevralında iqtidarı istefaya çağırdığı bəllidir. Məlumdur ki, Paşinyan 2021-ci ilin əvvəlində növbədənkənar parlament seçkilərinə getməyə məcbur olmuşdu. Çünki II Qareginin istefa çağırışlarının üsyana çevriləcəyindən ehtiyat edirdi. Bu




taktiki addım baş nazirə vəziyyəti yumşaltmaq və 2021-ci ilin iyununda seçkilərdə qələbə qazanmaq imkanı yaratdı. Hər halda, kilsə amili öz sözünü deyirdi. Görünür, bu amil aktuallığını qoruyur.

Əlqərəz, Paşinyan 2023-cü ilin mayında Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etdikdən sonra kilsənin ona qarşı hücumları daha da gücləndi. Tavuş arxiyepiskopu Baqrat Qalstanyanın başladığı hərəkat buna nümunədir. Həmin vaxt Nikol da anti-kilsə ritorikasını gücləndirərək bildirdi ki, “Erməni Apostol Kilsəsi dövlətin üzərində dayana bilməz”. Hətta dini quruma siyasi fəaliyyət göstərmək üçün partiya yaratmağı da məsxərə ilə tövsiyə etdi və kilsənin dövlət işlərinə qarışmasının təhlükəli olduğunu vurğuladı.

Paşinyanın anti-kilsə ritorikası 2024-cü ilin mayında özünün pik nöqtəsinə çatdı. Həmin vaxt o, parlamentdəki çıxışında kilsəni "ictimai rəyə təsir edən ən böyük agent" adlandırdı və ona qarşı sərt tədbirlərin görüləcəyini bildirdi. Hazırda isə Paşinyanın qəzəbinin isterik səviyyəyə çatdığı müşahidə olunur. Onun “Facebook” səhifəsində beş-altı saat ərzində ardıcıl şəkildə kilsə əleyhinə ittihamlar irəli sürməsi bunun göstəricisidir. Bu ittihamlardan birini diqqətə çatdırdıq. Digər isə belədir: “Görəsən, yepiskoplardan neçəsi bakirlik andına sadiqdir? Məlum olsa ki, bakirlik andı içmiş bir ruhani bu andı pozub, onda nə baş verəcək? O, vəzifəsindən, rütbəsindən və ruhani libasından məhrum edilir. Bəs mənəvi baxımdan hansı daha dürüstdür: könüllü istefa vermək, yoxsa düşüncələr girdabına düşmək — görəsən istintaq olacaqmı, həqiqət üzə çıxacaqmı? Heç kimin şəxsi həyatı başqa birinin işi deyil. Amma xalqın kilsəyə, mənəvi və əxlaqi dəyərlərə sahib olmağa haqqı var".

Sonda bir məqama diqqət yetirək: görünən odur ki, Nikol kilsəni, ümumən erməni ruhaniliyini ən zəif yerindən vurmağa qərar verib. Leninin və digər solçuların təbirincə desək, onların “müqəddəslik maskasını” çıxarmaq istəyir. Paşinyan bildirir ki, II Qareginin və ona bağlı şəxslərin şəhvət hislərinə hakim ola bilməmələri, iradəsizlik göstərmələri şəxsi iş sayıla bilməz, çünki mənəvi məsuliyyət daşıyırlar. Görünür, erməni iqtidarı artıq onların bu məsuliyyəti hansı səviyyədə daşıdıqlarını müəyyənləşdirib. Nə bilmək olar, bəlkə Nikolun əlində ciddi kompromatlar və faktlar var. Əvvəllər II Qaregin və erməni ruhaniliyi iqtidarı istefaya çağırırdısa, bu dəfə yerlər dəyişibsə, deməli, necə deyərlər, torbada pişik var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Sülhün kəsişməsi”: İrəvanın manipulyasiyası

## *Paşinyan iqtidarı öhdəlikdən yayınır, saxta təşəbbüslərlə oyunbazlıq edir*




**Ermənistan hökuməti 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsini nəzərdə tutan bəndini yerinə yetirməkdən beş ilə yaxındır ki, imtina edir. Halbuki bəyanatın doqquzuncu bəndində Ermənistan Respublikasının vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verdiyi açıq-aydın qeyd olunub.**

Eyni zamanda, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti orqanlarının həyata keçirəcəyi, tərəflərin razılığı əsasında Naxçıvan MR-lə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi də sənəddə öz əksini tapıb. Ancaq rəsmi İrəvan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdənsə, müxtəlif səmərəsiz təşəbbüslər irəli sürür. Belə təşəbbüslərdən biri “Sülhün kəsişməsi” adlı layihədir.

İki həftə öncə – mayın 20-də Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Avropa İttifaqının (Aİ) Şərqi Avropa və Mərkəzi Asiya dövlətlərindəki səfirlərinin İrəvanda keçirilən regional seminarının açılış mərasimində “Ermənistan–Avropa İttifaqı münasibətləri: ümumi gələcəyin qurulması” adlı açılış nitqində bu məsələyə bir daha toxundu. Bildirdi ki, ölkəsi sülh səyləri ilə yanaşı, “Sülhün kəsişməsi” layihəsində təsbit olunmuş prinsiplər çərçivəsində regionumuzda kommunikasiyaların açılmasını fəal şəkildə (?) təşviq edir. Onun sözlərinə görə, bu təşəbbüs Cənubi Qafqazda bütün nəqliyyat və kommunikasiya infrastrukturunun – avtomobil, dəmir yolu, enerji və ya kommunikasiya xətlərinin keçdikləri dövlətlərin suverenliyi və milli yurisdiksiyası altında, qarşılıqlılıq və bərabərlik prinsiplərinə uyğun fəaliyyət göstərməsini nəzərdə tutur: “Biz “Sülhün kəsişməsi”nin Avropa İttifaqının şəffaf, təhlükəsiz və suverenliyə hörmət edən əlaqəyə ehtiyacı getdikcə daha çox vurğulayan “Qlobal qapılar” və Orta Dəhliz layihələrinə tam uyğun olduğunu görürük. Ermənistanın bu çərçivədə iştirakı həm vaxtında, həm də zəruridir. İndi Ermənistanın Avropa ilə əlaqələrini dərin transformasiyaya məruz qalan regionun mərkəzində sadiq, proqnozlaşdırıla bilən, demokratik və prinsipial tərəfdaş kimi daha dərindən və strateji şəkildə möhkəmlətməyin vaxtıdır”.

Mirzoyan onu da bildirmişdi ki, rəsmi İrəvan bu məqsədlə Qara dənizi Xəzər dənizi ilə birləşdirən, Şərqə doğru artan bazarlara və Mərkəzi Asiyanın enerji resurslarına qədər uzanan multimodal dəhlizləri fəal şəkildə araşdırır: “Biz Aİ-nin Mərkəzi Asiya ilə artan əlaqəsini alqışlayırıq və onun Cənubi Qafqaz və Mərkəzi Asiyadakı strategiyaları arasında sinerjini təşviq edirik. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin haqlı olaraq qeyd etdiyi kimi, Ermənistanın Türkiyə və Azərbaycanla sərhədlərinin açılması dönüş nöqtəsi olacaq. Bu, Avropa və Mərkəzi Asiyanı əvvəlkindən daha da yaxınlaşdıracaq. Ermənistan bu regionlar arasında konstruktiv körpü rolunu oynamağa hazırdır və təkcə infrastruktur əlaqəsini deyil, həm də rəqəmsal, enerji və tənzimləyicilərin qarşılıqlı fəaliyyətini təşviq edir”.

***

Əlbəttə, A.Mirzoyanın həmin tədbirdə bu cür gəlişigözəl sözlər söyləməsi gözlənilən idi. Zatən, ondan başqa nəsə gözləməyə də dəyməzdi. Amma bu yerdə “Avazın yaxşı gəlir, oxuduğun “Quran” olsa...” atalar sözü yada düşür. Fakt budur ki, Mirzoyan və onun təmsil etdiyi hökumət öz öhdəliyini yerinə yetirməkdənsə, bundan yayınmaq üzrə “diplomatik məharət” nümayiş etdirir.

Yazının girişində Ermənistanın irəli sürdüyü “Sülhün kəsişməsi” layihəsinin səmərəsiz olduğunu qeyd etmişdik. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin layihə ilə bağlı dəyərləndirməsini xatırlatmaq yerinə düşərdi. Dövlətimizin başçısı 2025-ci il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə demişdi: “Yeni layihələr arasında Zəngəzur dəhlizini qeyd etmək istərdim. Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir”.

Prezident qeyd etmişdi ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq: “Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq, 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiya ilə məşğuldur. Yəqin ki, siz də eşitmisiniz, dırnaqarası “Sülh kəsişməsi” layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki, bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq. Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz.

Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada, xüsusilə, dediyim o bəndə diqqət yetirsin. Yenə də deyirəm, onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Yenə də Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac veriblər. Bunun nəticəsində faktiki olaraq bu günə qədər Azərbaycanın ayrılmaz hissəsi – Naxçıvan Muxtar Respublikası ilə bizim ən qısa və ən rahat bağlantımız yoxdur”.

Beləliklə, aydın olur ki, Ermənistanın irəli sürdüyü bu təşəbbüsdə də məqsədi səmimi deyil. Rəsmi Bakının beş ilə yaxındır Zəngəzur dəhlizinin açılmasını təklif etməsinə, layihənin regionun bütün dövlətləri üçün faydalı olacağını bildirməsinə rəğmən Ermənistan layihənin reallaşmasına imkan verməməklə həm özünü iqtisadi blokadada saxlayır, həm də regionun tranzit potensialını məhdudlaşdırır. İndi isə “Sülhün kəsişməsi” adı altında eyni mahiyyəti dəyişdirərək, fərqli adla öz şərtlərini diktə etməyə çalışır. Azərbaycanın mövqeyi isə birmənalıdır: bütün kommunikasiya xətləri regionun suverenliyi, beynəlxalq hüquq və qarşılıqlı bərabərlik prinsipləri əsasında açılmalıdır. Bu, yalnız regional sabitliyin və iqtisadi inteqrasiyanın təmin olunması üçün deyil, həm də dövlətlərin daxili işlərinə müdaxilənin qarşısının alınması baxımından vacibdir. Ölkəmizin yanaşması beynəlxalq təcrübəyə və BMT Nizamnaməsinin əsas prinsiplərinə tam uyğundur.

Ermənistanın təklif etdiyi konsepsiya bir növ Zəngəzur dəhlizinə alternativ təqdim etmək cəhdidir. Bu yanaşma isə destruktiv mahiyyət daşıyır. Yəni, Ermənistan öz iradəsinə uyğun nəzarət mexanizmləri qurmaqla, Azərbaycanın əsaslı tələbini neytrallaşdırmaq niyyətindədir. Belə bir yanaşma, əslində, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunmuş razılaşmalara ziddir və sülh prosesinə süni maneələr yaratmaq deməkdir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**

– Ermənistanın Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası yönündə atdığı addımlar neqativdir. Xüsusilə, İkinci Qarabağ müharibəsindən sonra imzalanmış üçtərəfli Bəyanatın doqquzuncu maddəsinin yerinə yetirilməsində problemlər var. Əvvəlki dövrlərdə də Ermənistan ayrı-ayrı güc mərkəzlərini prosesə qoşmaq niyyətini ifadə etmişdi. Bu niyyətin arxasında gizlənən məqam ondan ibarətdir ki, İrəvan ayrı-ayrı güc mərkəzlərini regiona dəvət etmək hesabına öz maraqlarını təmin etmək istəyir. Elə hazırkı proses də onu göstərir. Çünki İranın Zəngəzur vilayətinin inzibati mərkəzi olan Qafanda konsulluq açmasından sonra Fransa da vilayətin digər şəhəri Gorusda fəxri konsulluq açdı. Amma bütün bu diplomatik örtük altında regionda ayrı-ayrı dövlətlərin varlığını sübuta yetirən əsas məqam geopolitik amillərlə bağlıdır. Şübhəsiz ki, burada heç bir İran, Fransa vətəndaşının hüquqlarının qorunması, onların pasport-viza məsələlərinin həll edilməsi aktual deyil. Belə bir hal heç gözlənilmir.

Eyni zamanda Fransanın Gorusdakı fəxri konsulu Karmen Apunts “Gorus Frankofonlar İttifaqı” ictimai təşkilatının rəhbəridir və həmin bölgə üzrə frankofoniya siyasətini icra etməkdədir. Belə görünür ki, “yumşaq güc” və geopolitik amillər konsulun təyinatında əsas rol oynayıb.



Ermənistan xarici işlər naziri Ararat Mirzoyan üçtərəfli Bəyanatda əksini tapan öhdəliyə uyğun deyil, öz narrativlərini genişləndirməyə çalışır. Hind okeanı, Fars körfəzi və İran–Ermənistan–Gürcüstan–Qara dəniz–Avropa üzrə keçən “Sülhün kəsişməsi” layihəsi irəli sürülür. Eyni zamanda, ölkəsinin Orta Dəhlizin inkişafında da maraqlı olduğunu bildirir. Amma Orta Dəhlizin Ermənistan vasitəsilə nəqliyyat yollarını şaxələndirə bilməməsini dərk etmək üçün xəritəyə baxmaq kifayətdir.

Digər tərəfdən hesab edirəm ki, Zəngəzur dəhlizinin açılması, hər zaman olduğu kimi, indi də aktuallığını qoruyur. Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Laçından verdikləri qardaşlıq bəyanatları ona dələlət edir ki, bizi qarşıdakı dövrdə böyük bir inteqrasiya gözləyir. Bu inteqrasiya, şübhəsiz ki, Zəngəzur dəhlizinin işə düşməsi ilə mümkündür.

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik



**I MƏQALƏ**

## Cəmiyyətin siyasi identikliyi

“Siyasi identiklik” anlayışı müasir siyasi-nəzəri və fəlsəfi yanaşmalar çərçivəsində mürəkkəb və çoxkomponentli proses kimi dərk edilir. Ümumi anlam belədir: cəmiyyətin siyasi identikliyi — siyasi mənsubluq, inam və dəyərlər əsasında müəyyən edilən sosial identikliyin müxtəlif formalarını özündə ehtiva edən mürəkkəb və çoxcəhətli anlayışdır. Nəzəri dərinliyə varmadan burada üç anlamın sintezini görmək olar:

Birincisi, siyasi identiklik siyasi mənsubluq, inamlar və dəyərlər əsasında müəyyən edilir.

İkincisi, bu, ümumilikdə sosiallaşmanın bir növüdür.

Üçüncüsü, yekun olaraq mürəkkəb və çox tərkib hissəli dinamik proses-şəbəkədir.

Bu tərifdən aydın görünür ki, siyasi identiklik:

1. ictimai strukturların formalaşmasında;
2. siyasi davranışların meydana gəlməsində;
3. sosial hərəkatlarda mühüm rol oynayır.

Bundan əlavə, siyasi identiklik sosial identikliyin forması kimi insanları ümumi dəyərlər, məqsədlər və inamlar vasitəsilə birləşdirir. Bu baxımdan siyasi identikliyi cəmiyyətin xarakterini, onun dəyərlərini və institutlarını müəyyən edən faktorlardan biri kimi də təsəvvür edə bilərik. Siyasi identiklik həm ictimai rəyin formalaşmasına, həm də siyasi qərarların qəbul edilməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Bu anlayışın nəzəri tədqiqinə müxtəlif yanaşmalar mövcuddur. Bizim üçün onlardan ikisi bu mövzu prizmasında daha əhəmiyyətli görünür.

## İki yanaşmanın sintezi

Birinci yanaşma müxtəlif regionlarda hansı tarixi proseslərin siyasi identikliklərin fərqli formalaşmasına təsir etdiyini öyrənməklə bağlıdır. Geniş tədqiqatlar göstərmişdir ki, məsələn, Latın Amerikasında cəmiyyətlərin siyasi identikliyi Şərqi Avropadan kəskin fərqlənir (A.Noell və J.-F.Terpen).

Digər yanaşmanı bunun ideya əksi kimi xarakterizə etmək olar. Yəni bir sıra tədqiqatçılar kollektiv yaddaşın təsiri ilə siyasi identikliyin formalaşması məsələsini araşdırır. Əsasən sosial-psixoloqlar arasında bu istiqamətə maraq çoxdur. Onlar tarixən hər hansı toplumda kollektiv yaddaşın (məsələn, keçmiş haqqında kollektiv təsəvvürlərin) müəyyən dönəmdə cəmiyyətin siyasi identikliyinə təsirlərini öyrənmişlər. Onlardan S.Hantinqton, L.Licata, O.Klein, H.Schuman, Ch.Riegeri qeyd edə bilərik.

XX əsrin son onilliyi və XXI əsrin ilk üç onilliyində vurğulanan yanaşmaların ortaq idraki və metodoloji sahəsində, cəmiyyəti əhatə edən siyasi mühit, müasir geosiyasi çağırışlar kontekstində dövlət siyasəti və digər faktorları nəzərə alan daha mürəkkəb, lakin əhatəli yanaşma formalaşır. Məsələn, C.Hud, H.Marget, G. Patrik, L.Salamon, O.V. Popova və N.V.Qrişin bu istiqamətdə politoloji tədqiqatlar aparırlar.

## Azərbaycan konteksti

Biz cəmiyyətin siyasi identikliyi ilə bağlı mövcud nəzəri yanaşmaları genişləndirə bilərik. Lakin onun Azərbaycan kontekstində fərqli hansısa yeni ideya yarada biləcəyinə əmin deyilik. Bu səbəbdən nəzəri idraki “gəzişmələr”dən konkret Azərbaycan kontekstinə keçmək daha faydalı görünür.

Təəssüf ki, vurğuladığımız aspektdə dərin və əsaslı fəlsəfi və ya politoloji tədqiqata rast gəlmirik. Doğrudur, Azərbaycan fəlsəfi və politoloji fikri kifayət qədər fəal, müxtəlif yanaşmalar prizmasında cəmiyyəti təhlil edən araşdırmalara malikdir. Bizim nəzərdə tutduğumuz əsas tədqiqat hədəfi isə Azərbaycan cəmiyyətinin müasir tarixi dönəmdə azadlıqsevər xalq olduğunu ifadə etməkdir. Bunun üçün iki praktiki nümunəyə müraciət edirik:

Birincisi, XX əsrin 90-cı illərində siyasi, geosiyasi, hərbi, sosial, psixoloji, iqtisadi və ideoloji aspektlərdə Azərbaycan dövlətçiliyi üçün ən böhranlı və mürəkkəb dönəmdə xalqın müstəqil dövlətçilik yolunu seçməsi ilə bağlıdır.

İkincisi, ölkənin ərazi bütövlüyü uğrunda mübarizədə hərbi üsulu seçməyə məcbur qalan hakimiyyətə cəmiyyətin tam dəstək verməsidir.

Beləliklə, cəmiyyətin siyasi identikliyinin təhlilini müasir dövlətçilik tariximizdə mövcud olan iki mühüm və kritik kollektiv seçim məqamına proyeksiya edirik. Hər iki nümunəni birləşdirən politoloji faktorlar mövcuddur. Onların qarşılıqlı təhlili müasir Azərbaycan cəmiyyətinin siyasi identikliyinin başlıca xüsusiyyətlərini anlamaq imkanı yaradır.

## Birinci böhran dönəmi və kollektiv siyasi identiklik

1990-cı illərdə Azərbaycan cəmiyyət olaraq tarixi seçimini dərin və çoxaspektli böhran şəraitində etməli idi. Belə şəraiti kəskinləşmiş xüsusi böhran mühiti adlandırsaq, dayanıqlı və toplumu yönəldə bilən çoxsaylı faktorlar mövcuddur. Dünya xalqlarının tarixi təcrübəsi göstərir ki, belə hallarda aparıcı rolu xalqın yaddaşında əsrlərin sınağından çıxmış “yaddaş kodları” və “dövlət və azadlıq haqqında formalaşmış dəyişməz faktorlar” oynayır.

Azərbaycan üçün xarakterik xüsusiyyət dövlət müstəqilliyi və suverenliyinin təməlində xalqın azadlığı və suverenliyinin dayanmasıdır. Təbii ki, hər bir müstəqil dövlətdə xalq suverenliyi məsələsi vardır. Lakin Azərbaycan Konstitusiyasında dövlət suverenliyinin birbaşa xalqın suverenliyindən qaynaqlandığı açıq ifadə edilmişdir. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada yazılır:

“Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

• Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq...”

Konstitusiyanın I maddəsində yazılır:

**Maddə 1. Hakimiyyətin mənbəyi**

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

İkinci maddədə isə qeyd olunur:

**Maddə 2. Xalqın suverenliyi**

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Bu müddəalardan aydın olur ki, Azərbaycanın ən böhranlı illərində müstəqil dövlətçilik yolunun seçilməsinin təməlində xalqın iradəsi və azadlıqsevər təbiəti dayanır.

Bu əsasda:

– xalqın tələbi ilə ölkədə iqtidar dəyişikliyi baş vermişdir;

– xalq seçdiyi liderə tam inanmışdır.

Xalqın bu cür qərar qəbul etməsinin müstəqillik və suverenlik baxımından mənası dərindir.

Öncə situasiyaya cəmiyyətin daxili prizmasında baxaq. Azərbaycan cəmiyyəti həmin dövrdə ideologiya ilə toplumun ona münasibəti arasında ziddiyyətə düşmüşdü. Belə ziddiyyətdən uğurla çıxmaq böyük siyasi təcrübə, dövlətçiliyə sadiqlik və doğru ideya istiqamətinin müəyyən edilməsini tələb edirdi. İdeyanı lider formalaşdırır, lakin liderin seçilməsi xalqın işidir.

Deməli, xalq müstəqillik ideyasını yaşadacaq lideri müəyyən etmək hüququna və məsuliyyətinə malik olmalıdır. Bunun üçün isə azadlıq, dövlətçilik və suverenlik çox qiymətli olmalıdır. Təcrübə göstərdi ki, Azərbaycan xalqı bunu ideal şəkildə bacardı.

Kiçik bir müqayisə: postsovet ölkələri sırasında bütün xalqlar bu istiqamətdə eyni uğuru əldə etmədi. Nümunə kimi Ermənistan, Ukrayna, Gürcüstan, Moldova göstərilə bilər. Biz onların siyasi identikliyini müzakirə etmək istəmirik, sadəcə diqqəti indi müşahidə olunan bir məqama yönəldirik: vurğulanan və Azərbaycanla uzun müddət eyni siyasi rejimdə yaşamış bu cəmiyyətlərdə tam sabitlik və konkret inkişaf xətti indiyədək formalaşmayıb.

Azərbaycan xalqı isə onlardan daha ağır vəziyyətdə olduğu halda 1993-cü ildə seçdiyi yolda böyük uğurla addımlayır. Yeganə dövlətdir ki, Milli İdeyasını tam reallaşdıraraq yeni tarixi mərhələyə qədəm qoyub və indi də strateji hədəfinə doğru uğurla irəliləyir.

Əlbəttə, bu, bütün problemlərin həll edildiyi anlamına gəlmir. Əsas odur ki, 32 il əvvəl seçilən dövlət quruculuğu kursu özünü ən mürəkkəb geosiyasi şərtlər daxilində belə doğruldur! Bu proses dinamikdir və şərtlər dəyişə bilər!

Buradan belə sual yaranır: 90-cı illərdə Azərbaycan cəmiyyətində siyasi identikliyi müəyyən edən əsas faktorlar hansılar idi?

Aparılan nəzəri, fəlsəfi və politoloji tədqiqatlar göstərir ki, heç bir cəmiyyətdə dövlətçilik ideyası qısa müddətdə formalaşıb toplumun psixoloji, iradi, mənəvi və intellektual faktına çevrilə bilməz. Əksinə, əsrlərin sınağından keçmiş dəyişməz "kodlar" və "sosial-psixoloji, mənəvi, iradi, intellektual memlər" olmalıdır ki, onların əsasında cəmiyyət çətin situasiyalarda düzgün reaksiya verə bilsin.

Bu baxımdan, yuxarıda qoyduğumuz sual çərçivəsində iki mühüm faktorun təhlili aktuallaşır:

– xalqda dövlətçilik ənənəsinin dəyişməz “kod” kimi təsdiqi;

– siyasi varisliyin milli maraqlar və dövlətçilik kontekstində davamlı təmin olunma mexanizminin siyasi şüurda və seçim fəlsəfəsində oturuşması.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Yelisey bəyanatları Qafqazı hədəfə alıb

**Son günlər Fransa siyasi dairələrinin təmsilçiləri, xüsusilə bəzi deputatlar, parlament dostluq qruplarının sabiq rəhbərləri tərəfindən Azərbaycana qarşı əsassız və qərəzli bəyanatlar səsləndirilir. Fransa Milli Assambleyasının Fransa–Ermənistan dostluq qrupunun keçmiş rəhbəri Ann-Lorens Petelin Sünik bölgəsində, guya, Azərbaycan Ordusunun mülki əhalini hədəfə aldığına dair səsləndirdiyi fikirlər qərəzli və qeyri-obyektivdir. Petel buna qədər də özünün anti-Azərbaycan mövqeyi ilə seçilib.**




Onun Avropa İttifaqı (Aİ) missiyasının Ermənistandakı fəaliyyətinin genişləndirilməsinə dair təklifləri bölgədə sülhün və sabitliyin obyektiv vasitəçiliyindən daha çox tərəfkeşliyin göstəricisidir. Əslində, Petelin məqsədi Hayastanın törətdiyi təxribatları ört-basdır etmək, onu beynəlxalq rəyə “əzabkeş” obrazında təqdim etməkdir. Belə yanaşmaların isə Fransa–Azərbaycan münasibətlərinə zərbə vurması bir yana, həm də Aİ-nin Cənubi Qafqazda iddia etdiyi neytral vasitəçilik roluna xələl gətirir.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, şərti sərhəddə baş verən insidentlərə səbəb Ermənistanın qanunsuz hərbi fəaliyyətləri və təxribatlarıdır. Azərbaycanın məqsədi bölgədə sabitliyin və davamlı sülhü təmin etməkdir. Ölkəmiz heç bir halda mülki əhaliyə qarşı təhdid yaratmır və ya hücum həyata keçirmir.

***



Bəli, Bakı bölgədə davamlı sülhün əldə olunmasında maraqlıdır. Bunun üçün Ermənistanla dövlət sərhədinin delimitasiya və demarkasiyasını, ardınca münasibətlərin tənzimlənməsini əsas məqsəd kimi görür. Azərbaycan sülh və əməkdaşlıq təşəbbüslərinin gerçəkləşməsi üçün dialoqa və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə üstünlük verir. Bu zaman Bakı beynəlxalq tərəfdaşlarından da eyni konstruktiv və obyektiv yanaşma gözləyir.

Bununla belə, təəssüf ki, Afrikadakı müstəmləkəçilik siyasətindən əl çəkmədiyinə görə nüfuzunu itirən Fransa Cənubi Qafqaz regionunu yeni geosiyasi təsir vasitəsinə çevirmək məqsədilə qərəzli və təxribat xarakterli mövqe nümayiş etdirir, bölgədə sabitliyi pozmağa çalışır. Bu məqsədlə Fransanın Ermənistanı açıq şəkildə dəstəkləməsi, sülh müqaviləsinin imzalanmasına süni əngəllər yaradılması və gərginliyin artırılması cəhdləri davam edir. Rəsmi Paris Azərbaycanın dəfələrlə etdiyi çağırışlara məhəl qoymayaraq Ermənistanda revanşist əhval-ruhiyyəni qızışdırmağa, bu ölkəyə silah-sursat verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə çalışır.

Fransanın bu yalançı dəstək vədi artıq Ermənistanın hərbi-siyasi rəhbərliyinin çıxışlarında da özünü göstərir. Məsələn, Ermənistan baş naziri Nikol Paşinyan və müdafiə naziri Suren Papikyan müsahibələrində Fransanın hərbi və diplomatik dəstəyini qabardırlar. Suren Papikyan çıxışlarının birində deyir: “Ermənistan müxtəlif supergüclər və digər dost ölkələr səviyyəsində yeni tərəfdaşlar əldə edib. İlk növbədə söhbət bizim əsas tərəfdaşlarımıza çevrilmiş Fransa və Hindistandan gedir. Amma hələlik adlarını çəkmək istəmədiyim başqa ölkələr də var”.

Halbuki, Aİ-nin aparıcı dövləti kimi Fransa aranı qarışdırmağa deyil, obyektivliyə və balans prinsiplərinə sadiq qalmalı, emosional və birtərəfli bəyanatlardan çəkinməlidir. Göründüyü kimi, ermənipərəst Makron hakimiyyəti Cənubi Qafqaza yönəlik məkrli siyasətindən əl çəkmək barədə düşünmür. Hələ də Azərbaycanın 44 günlük müharibədə qələbəsini həzm edə, yaratdığı reallıqla barışa bilmir. Petelin hazırkı təxribatçı və yalan bəyanatı da bu zəncirin bir halqasıdır. Digər tərəfdən ondan fərqli bir şey gözləməyə dəyərdimi? Əlbəttə, yox.

***

Qeyd etmək lazımdır ki, Ann-Lorens Petelin bəyanatı regionun mövcud reallığından uzaqdır və birtərəfli yanaşma ilə sülh və əməkdaşlıq prosesinə ciddi zərbə vurur. Əslində, hər iki tərəfin mövqelərinə hörmətlə yanaşan, beynəlxalq hüquq əsasında qurulan və dialoqa əsaslanan siyasət bölgənin inkişafı və təhlükəsizliyi üçün yeganə düzgün yoldur.

Siyasi şərhçi Əhməd Abbasbəylinin qeyd etdiyi kimi, Fransa uzun müddətdir ki, öz daxili və xarici problemlərindən diqqəti yayındırmaq üçün Azərbaycana qarşı qərəzli siyasət aparır: “Bu, nə Fransa ictimaiyyətinə, nə də Cənubi Qafqazın xalqlarına fayda gətirir. Azərbaycan qalib ölkə kimi Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif edib və bölgədə əməkdaşlığa əsaslanan gələcək qurmaq niyyətindədir. Lakin sülhə nail olmaq üçün birtərəfli mövqelər deyil, beynəlxalq hüquqa əsaslanan obyektiv və konstruktiv yanaşmalar tələb olunur!

Fransa rəhbərliyinin birtərəfli və emosional çıxışları isə regionda etimad mühitinə zərbə vurur və sülhə aparan yolda maneə rolunu oynayır. Əgər Paris, doğrudan da, bölgənin rifahında maraqlıdırsa, neytral vasitəçilik prinsiplərinə sadiq qalmalı, Ermənistanın təxribatçı addımlarına göz yummamalıdır. İstənilən halda onun Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının tərəfdarı kimi fon yaratması həm obyektivlik, həm də reallıq baxımından şübhəlidir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# Vətən müharibəsində Ermənistanın Azərbaycanın mülki infrastrukturuna vurduğu ziyan tədqiq olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 2-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə 2020-ci ildə baş vermiş 44 günlük müharibə dövründə Azərbaycanın mülki infrastrukturuna ziyan vurulması, mülki şəxslərin öldürülməsi ilə bağlı hadisə yerinə baxış protokolları və ekspert rəyləri Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin iştirakı ilə tədqiq olunub.

Əvvəlcə müharibə zamanı Ağcabədi rayonunun atəşə tutulması faktları üzrə sənədlər tədqiq edilib. Bildirilib ki, 2020-ci il sentyabrın 27-də saat 6 radələrindən Ermənistan silahlı qüvvələri tərəfindən başlamış silahlı hücumlar və hərbi təcavüz nəticəsində Ağcabədi rayonu üzrə 1 mülki şəxs qəsdən öldürülüb, 19 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət almış şəxslərdən 5-i qadın, 14-ü isə kişi, o cümlədən 2-si azyaşlıdır.

Silahlı hücumlar və hərbi təcavüz nəticəsində Ağcabədi rayonu üzrə 536 mülki təyinatlı tikiliyə, 17 nəqliyyat vasitəsinə və 50 fermer təsərrüfatına xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Ağdam rayonunun atəşə tutulması ilə bağlı tədqiq edilən sənədlərə əsasən, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək ağır artilleriya qurğuları hesab olunan "T-64", "T-72", "T-80", "T-90" tipli tanklardan, "2S3 Akasiya", "2S1 Qvozdika" və digər özüyeriyən artilleriya qurğularından, "2A36 Giasint B", "D-20", "D-30", "D-44", "D-81" ("D-81M") markalı toplardan, mina və qumbaraatanlardan, "BM-21" ("Qrad"), eləcə də digər markalı iriçaplı silahlardan atəşlər açılaraq Ağdam rayonunda vahid niyyətlə ümumilikdə 7 mülki şəxs qəsdən öldürülüb, 46 mülki şəxsə qəsdən xəsarət yetirilib.

Ağdam rayonu ərazisində dövlət mülkiyyətinə, 2098 fiziki və 2 hüquqi şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Digər sənədlərə əsasən, 44 günlük müharibə dövründə Beyləqan rayonunun atəşə tutulması nəticəsində 2 mülki şəxs həlak olub, 5 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Rayonda 73 mülki təyinatlı tikiliyə, 3 nəqliyyat vasitəsinə ziyan vurulub. 73 mülki təyinatlı tikilidən 62-si fərdi yaşayış evi, 10-u sahibkarlıq sahəsi, 1-i isə inzibati binadır.

Bərdə ilə bağlı baxış protokollarına əsasən, rayon Ermənistan silahlı qüvvələri tərəfindən "Qrad" markalı 122 millimetr çaplı "G2000", "Smerç" markalı 300 millimetr çaplı "9M528" reaktiv yaylım atəş sistemlərindən atəşə tutulub. Nəticədə 2020-ci il oktyabrın 5-dən noyabrın 7-dək Bərdə rayonunda ümumilikdə 29 mülki şəxs qəsdən öldürülüb, 112 mülki şəxsə xəsarətlər yetirilib. Həmin hücumlar zamanı Bərdə rayonu ərazisində dövlət mülkiyyətinə, 333 fiziki və 2 hüquqi şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Sənədlərə əsasən, Füzuli rayonunun atəşə tutulması nəticəsində 3 dinc şəxs qəsdən öldürülüb, ümumilikdə 17 mülki şəxs qəsdən xəsarət yetirilməklə yaralanıb.

Füzuli rayonu ərazisində dövlət mülkiyyətinə və 376 fiziki şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Bildirilib ki, 44 günlük müharibə zamanı Goranboy rayonunda və Naftalan şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raket və digər partlayıcı qurğuların partlaması nəticəsində 8 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. 368 nəfərin əmlakına, 7 nəfərin avtomobilinə zərər dəyib. Daha 8 nəfərin isə qeyri-yaşayış sahəsinə zərər vurulub.

Daha sonra Mingəçevir şəhərinin atəşə tutulması faktları üzrə sənədlər tədqiq edilib. Sənədlərə əsasən, müəyyən olunub ki, silahlı münaqişə zonasından tamamilə kənar coğrafi koordinatda yerləşən, Azərbaycanın ən böyük 4-cü şəhəri olan Mingəçevir, habelə həmin şəhərdə yerləşən və ölkəni elektrik enerjisi ilə təmin edən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyət 2020-ci il oktyabrın 4-də saat 22 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən böyük dağıdıcı qüvvəyə malik "Smerç" reaktiv yaylım atəşli raketlərlə qəsdən hədəfə alınaraq həmin istiqamətdə atəşlər açılıb.

Müəyyən edilib ki, "Smerç" raketlərindən biri Mingəçevir şəhəri, Bozdağ küçəsi, 60 ünvanında yerləşən, 1984-cü il təvəllüdlü Bağırov Elçin Yaqub oğluna məxsus fərdi yaşayış evinin həyətyanı sahəsində inşa edilmiş darvazanın qarşısına düşərək partlayıb. Nəticədə evə, onun "Hyundai Grandeur" markalı avtomobilinə, həyətyanı sahənin qarşısında olmuş qohumu - Ağdam rayonunun Evoğlu kənd sakini, 1958-ci il təvəllüdlü Səfərov Atamoğlan Sabir oğluna məxsus "KamAz 55111" markalı yük avtomobilinə ziyan vurulub. Həmçinin Bağırov Elçin Yaqub oğlu, 1957-ci il təvəllüdlü anası Bağırova Nabat Çərkəz qızı, qohumu Səfərov Atamoğlan Sabir oğlu, eləcə də qonşuluğunda yerləşən fərdi yaşayış evinin sahibi, 2004-cü il təvəllüdlü İbrahimli Adil Müşviq oğlu bədən xəsarətləri alıblar.

Müəyyən olunub ki, hadisə yerindən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-yə olan məsafə 2800, Mingəçevir su anbarının bəndinə olan məsafə isə 5300 metrdir.

"Smerç" raketlərindən biri Mingəçevir şəhəri, Azdres qəsəbəsində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin 6 və 7-ci enerji bloklarının arasındakı boş sahəyə düşüb və asfalt örtüyü dələrək 40 santimetr dərinliyində yerə batıb, lakin xoşbəxtlikdən partlamayıb. Raketin düşdüyü yerdən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin 6-cı enerji blokunun giriş qapısınadək məsafə 19 metr, 7-ci enerji blokunun giriş qapısınadək məsafə isə 29 metrdir.

Həmçinin müəyyən edilib ki, Ermənistan silahlı qüvvələri oktyabrın 4-dən sonrakı günlərdə də Mingəçevir şəhərini qəsdən hədəfə alaraq həmin istiqamətdə raket mərmiləri atıb. Belə ki, oktyabrın 11-də saat 5 radələrində "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yerləşdiyi ərazi yenidən hədəf seçilib və atılmış raket MMC-nin inzibati binasının həyətyanı sahəsindəki parkın ərazisində çəmənlik sahəyə düşüb. Xoşbəxtlikdən raket partlamadığı üçün həlak olan və ya xəsarət alan olmayıb.

Hadisələrin baş verdiyi yerin ətraf ərazilərində hər hansı hərbi obyekt olmayıb.

Hadisələr zamanı Mingəçevirdə 45 fərdi yaşayış evinə zərər dəyib.

Daha sonra məhkəmədə müharibə zamanı Bakı-Tbilisi-Ceyhan boru kəmərinin və Cənub Qafqaz Boru Kəmərinin "Smerç" raketi ilə hədəf alınmasına dair (Yevlax rayonu və Goranboy rayonunun Goran kəndi istiqamətdə raket atılması faktları) sənədlər tədqiq edilib.

Məhkəmə prosesində 44 günlük müharibə zamanı Tərtər rayonunun ağır artilleriyadan atəşə tutulması nəticəsində mülki şəxslərin ölməsi, mülki infrastruktura, vətəndaşların əmlaklarına zərər dəyməsi üzrə sənədlər də tədqiq olunub.

Fasilədən sonra məhkəmədə zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Məhkəmədə zərərçəkmiş şəxslərin barəsindəki tibbi-ekspertiza rəyləri də elan olunub.

Məhkəmə prosesində təqsirləndirilən şəxs Davit İşxanyana müdafiəçisinin səhhətinə görə prosesdə iştirak edə bilməyəcəyi, ona yeni müdafiəçinin təyin olunacağı bildirilib. D.İşxanyan müdafiəçisinin yaxşı vəkil olduğunu deyərək, yeni vəkilin təyinatına etiraz etmədiyini bildirib.

Məhkəmə prosesi iyunun 5-də davam etdiriləcək.

***XQ***

# Kabus Zəngəzur dəhlizinin "başında dolaşır"

## *İrəvanın "fransızsayağı konsulluq oyunu" Moskva və Tehranın əsəblərini tarıma çəkib*

**Həm 2020-ci ilə qədər, həm də post-müharibə dövründə rəsmi Paris Azərbaycanla Ermənistan arasında sülh prosesinə maneçilik törətmək, bu yolla Cənubi Qafqaza "bayrağını sancmaq" üçün bütün vasitələrə əl atır. Emmanuel Makron iqtidarının bu məqsədə çatmaq üçün bu gün Nikol Paşinyan hakimiyyətinin zəifliyindən maksimum istifadə son vaxtlar siyasi diskussiyalarda Zəngəzur dəhlizi ilə bağlı ritorikanın güclənməsi Parisi növbəti qeyri-konstruktiv addımlara sövq edib.**



Fransanın Ermənistanın Zəngəzur bölgəsində konsulluq açmaq planı reallaşdı. Bu barədə Ermənistan mediası məlumat yayıb. "İyunun 2-də Gorusda Ermənistan–Fransa konfransı və Sünikdə (Zəngəzur-red.) Fransa konsulluğunun açılış mərasimi keçirilib. Strateji əhəmiyyəti və Sünik regionu ilə Fransanın Auvergne-Rhône-Alp regionu arasında hərtərəfli əməkdaşlığı nəzərə alınaraq görüş yeri kimi Gorus şəhəri seçilib. Fəxri konsul postuna milliyyətcə erməni olan və Gorus Frankofoniya Mərkəzinin direktoru vəzifəsini icra edən Karmen Apunts təyin olunub. Açılış mərasimində Fransanın Ermənistandakı səfiri, Ermənistan xarici işlər nazirinin müavini, Gorus meri, Sünik qubernatoru, Vyana meri, fransalı bir neçə senator və digərləri iştirak ediblər", – "Hraparak" qəzeti yazıb.

Fransanın Ermənistandakı səfirliyindən verilən məlumata görə, bu, baş konsulluq deyil, fəxri konsulluqdur. Yerli ekspertlər Fransanın Sünikdəki konsulluğunun "kollektiv Qərb"ə xidmət edəcək diplomatik-hərbi kəşfiyyat məqsədi daşıyacağı fikrini bölüşürlər.

***

Beləliklə, rəsmi Parisin bu addımı ilə bir nəfər belə Fransa vətəndaşının yaşamadığı Zəngəzurda viza xidməti barədə deyil, geosiyasi proseslərə daha yaxından nəzarətə nail olmağı hədəflədiyi məlumdur. Əsas məqsədin Zəngəzur dəhlizi üzərində geniş təsir imkanını, transmilli iqtisadi layihələrdən böyük dividendlər qazanmağın olduğu şübhə doğurmur. Əslində, bu fakt Bakıdan çox Tehranı, xüsusilə də Moskvanı narahat etməlidir. Konsulluq məsələsi Zəngəzur dəhlizi ətrafında hələ də davam edən siyasi diskussiyalar və Fransa–Ermənistan münasibətlərinin intensivləşməsi fonunda çeşidli şərhlərə, ehtimallara rəvac verib. Siyasi ekspertlərin fikrincə, Fransanın Gorusda baş konsulluq açması qətiyyən sırf diplomatik və ya texniki məsələ deyil. Bu addımın arxasında Parisin İrəvanı Cənubi Qafqazda özünün geosiyasi dayağına çevrmək niyyəti gizlənir.

Sünik vilayəti təkcə Ermənistan üçün yox, həm də Azərbaycan və Türkiyə üçün strateji əhəmiyyət daşıyır. Həmin ərazidə hansı ölkənin diplomatik nümayəndəliyinin yerləşməsindən asılı olmayaraq, Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməli, Zəngəzurdan Naxçıvana yol verməlidir. Rəsmi Parisin bu yolun açılmasına mane olmaq gücü yoxdur. Fransa bununla Rusiyaya qarşı əzələ nümayiş etdirir. Rəsmi Moskva iki il bundan əvvəl Qafan vilayətində konsulluq açmaq istəsə də, Ermənistan hökuməti buna icazə vermədi. Amma Fransaya dərhal "yaşıl işıq" yandırdı. Gorusda konsulluğun açılması, həmçinin Rusiyanın planının pozulması deməkdir.

Məsələyə Moskvanın reaksiyası özünü çox gözlətmədi. Rusiya müdafiə naziri Andrey Belousov bildirib ki, son vaxtlar Ermənistanın Sünik vilayəti ətrafında gərginlik artıb və buna səbəb xarici ölkələrin Cənubi Qafqazda fəallığını gücləndirməsidir. Kreml prosesə məhz müdafiə naziri səviyyəsində münasibət bildirməklə Ermənistanı xəbərdar edir ki, bu hadisənin nəticəsi onun üçün heç də yaxşı olmayacaq. Yəni, Belousov dolayısı ilə Kremlin Fransanın Zəngəzurda konsulluq açmasının əleyhinə çıxdığını dilə gətirib. Moskva hesab edir ki, Fransanın Ermənistandakı fəallığının əsas məqsədi Rusiyanı bu bölgədən sıxışdırıb çıxarmaqdır. 2026-cı ildə keçiriləcək parlament seçkiləri öncəsi Hayastanda rusiyameyilli müxalifətin güclənməsi fonunda baş verən bu hadisə İrəvanın Moskvaya "strateji xəyanəti" kimi də başa düşülə bilər.

Konsulluq "çubuğunun" bir başı da İrana toxunur. Doğrudur, İran cəlbedici Zəngəzur vilayətinin Qafan şəhərində hələ 2022-ci ildə Baş konsulluğunu açıb. Amma rəsmi Tehran Ermənistanın kənar dövlətləri regiona gətirməsindən narahat olduğunu üstüörtülü şəkildə dəfələrlə biruzə verib. İndi görünən odur ki, İran–Ermənistan sərhədinin yaxınlığında Fransa konsulluğunun açılması ikitərəfli münasibətlərin soyumasına səbəb ola bilər. Nikol Paşinyan hökuməti kənar qüvvələri Cənubi Qafqaza gətirməklə bölgədə vəziyyəti gərginləşdirir. Aşkar görünən mənzərə ondan xəbər verir ki, İrəvanın Zəngəzurda "konsulluq oyunu" Moskva və Tehranı əməlli-başlı əsəbiləşdirib.

***

"Biz Fransanın Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə və demokratiyanın daha da möhkəmləndirilməsinə verdiyi dəstəyi, Ermənistanın müdafiə qabiliyyətinin və iqtisadi dayanıqlığının gücləndirilməsində Parisin ikitərəfli və Aİ formatında göstərdiyi yardımı, Qərblə yaxınlaşma cəhdimizə dəstəyini yüksək qiymətləndiririk". Bunu Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan dünən Ermənistan və Fransa arasında mərkəzləşdirilməmiş əməkdaşlıq üzrə 5-ci konfransda çıxışında deyib. Onun sözlərinə görə, Ermənistan üçün strateji əhəmiyyət kəsb edən ərazilərin, o cümlədən Sünik vilayətinin inkişafı və dayanıqlığının artırılması məqsədini nəzərə alaraq, bu konfransın Gorusda keçirilməsi "təbii və gözləniləndir".

Gorusda Fransanın fəxri konsulluğunun açılmasını aydın siyasi iradənin ifadəsi kimi dəyərləndirən Kostanyan hökumətlər arasında əldə edilmiş razılaşmanın yerinə yetirilməsi üçün yaxın gələcəkdə fransız şirkətləri tərəfindən Sünikdə strateji əhəmiyyət kəsb edən infrastruktur layihəsinin həyata keçirilməsinin şahidi olacağını bildirib. Onun sözlərinə görə, iki dövlət arasında münasibətlər görünməmiş yüksək səviyyədədir və həm də regional çağırışların aradan qaldırılmasında Ermənistana yardım göstərmək məqsədi güdür.

"Ermənistan bütün mövcud çağırışlara baxmayaraq, regionda davamlı sülhün bərqərar olması üçün qətiyyətli səylər göstərir". Çıxışında daha sonra sülh sazişinə də toxunan hay nazir müavini qeyd edib ki, Ermənistan onu dərhal imzalamağa, sonra isə ratifikasiya etməyə hazırdır: "Problemlərin həllinin ən aydın, birbaşa və ən qısa yolu regionumuzda dinc yanaşı yaşama erasının başlanğıcını qoyacaq sazişin imzalanması və ratifikasiyasıdır".

Kostanyanın erməni riyakarlığının, ikiüzlülüyünün əyani nümayişi hesab oluna biləcək çıxışına qısa sözardı olaraq bunu deməyi vacib sayırıq ki, bölgə dövlətlərinin – Rusiyanın və İranın iradəsinin ziddinə gedərək, Fransanın bayrağını Zəngəzura sancmaqla Cənubi Qafqazda sülhə deyil, eskalasiyaya xidmət etdiyini görməzdən gələn İrəvan "konsulluq oyunu"nun öz başında çatlayacağını da unutmamalıdır.

***

Bakı İrəvandan Zəngəzur dəhlizinin açılmasını tələb edir. Şübhə etmirik ki, Azərbaycan ilin sonuna qədər bu ədalətli istəyinə də nail olacaq. Fransanın Gorusda konsulluq açması Qərbin, NATO-nun Cənubi Qafqazda möhkəmlənməsi deməkdir. Azərbaycan heç bir hərbi blokun üzvü deyil. Bəli, Fransa NATO-nun aparıcı siyasi-hərbi parçasıdır. Biz isə NATO-nun ikinci böyük gücü sayılan Türkiyə ilə müttəfiqik. Paris İrəvanı öz çətiri altına almağa çalışmaqla Rusiyanı daha da hiddətləndirmək istəyir. Müəyyən mənada, bu, Bakının da maraqlarına cavab verir. Yəni, Ermənistan uğrunda yeni savaş bizi yeni-yeni təhlükələrindən sığortalaya bilər. Fransa bölgədən uzaq ölkədir və Zəngəzurda "səyyar bir konsulluq" açmaqla bu bölgəyə rəmzi bayrağını "sancmaqla", bugünədək necə idisə, bundan sonra da heç nəyə nail ola bilməyəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Fransa faydasız işlərlə məşğuldur. Bu gün onu neçə yüz illik müstəmləkəyə malik Afrikadan qovurlar, amma gəlib Gorusda konsulluq açır. Buna real heç bir təsiri olmayacaq nümayişkarənə hərəkət deyə bilərik. Paris bununla, sadəcə olaraq, Paşinyan hökumətinə özünün dəstəyini nümayiş etdirir. Azərbaycan tərəfdən, guya, hansısa hərbi müdaxilə olacağı təqdirdə, Fransanın orada yellənən bayrağı erməniləri nədənsə qorumağa hesablanıb. Özləri də yaxşı anlayırlar ki, konsulluğun açılması rəmzi xarakter daşıyan bir addımdır. Fransa orda nə konsulluq xidməti göstərəcək, nə də Gorusda yaşayan insanların həyatına müsbət təsiri olacaq.

Avropa İttifaqının bu ərazidə yerləşdirilmiş müşahidə missiyasının, demək olar ki, yarısı keçmiş fransız jandarmları və kəşfiyyatçılarıdır. Bəlkə konsulluq onlara hansısa nəzarəti həyata keçirmək, yaxud fəaliyyətlərinə dəstək vermək barədə düşünür. Amma Gorusdakı bir binanın üstünə Fransa bayrağını sancmaqla bölgədə nəyisə dəyişəcəklərini düşünürlərsə, kökündən yanılırlar.

Son zamanlar Fransanın atdığı addımların siyasi aqibəti ondan ibarət olub ki, sözdə edəcəklərindən danışırlar, fəqət işə gələndə əllərinin boş olduğu üzə çıxır. Azərbaycan rəsmi Parisin bu cür "siyasi jestləri"nə heç fikir verməməlidir.

Fransa ilə müqayisədə Rusiyanın Qafanda konsulluq açmaq planı təsirli addım sayıla bilərdi. Çünki burada söhbət Ermənistanın daxili həyatına müdaxilədən gedir. Misal üçün, Rusiyanın Gümrüdə hərbi bazasının və konsulluğunun olması müəyyən mənada ruspərəst qüvvələrə dəstək sayıla bilər. Hətta o bölgədəki seçkilərdə həmin qüvvələr Paşinyanın namizədini kənarda saxlamağı bacardılar. Məhz neokommunisti, mafioz namizədi Gümrüyə mer seçdilər. Moskvanın Qafanda konsulluq açmaq planına Paşinyan hökuməti icazə verməyib. Bəli, buna müəyyən əhəmiyyət kəsb edən hadisə demək olar. O ki qaldı Fransanın Gorusda açdığı konsulluğa, bunun nə daxildə, nə də beynəlxalq müstəvidə effekti olacaq.

# Bakı Enerji Həftəsi – qlobal tərəfdaşlıq platforması

## *30-cu Beynəlxalq Xəzər Neft-Qaz və 13-cü Energetika və Yaşıl Enerji sərgiləri*

**Bugünlərdə dünyanın enerji mərkəzlərinin diqqəti yenidən Azərbaycan paytaxtına yönəlib. Dünən öz işinə başlayan Bakı Enerji Həftəsinin ilk günündə 30-cu Beynəlxalq Xəzər Neft-Qaz və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin təntənəli açılış mərasimi keçirilib.**

Xatırladaq ki, builki sərgilərdə 39 ölkədən 267 şirkət iştirak edir. Onların 40 faizi ənənəvi neft-qaz sərgisinin daimi iştirakçıları olsalar da, bu mötəbər beynəlxalq tədbirin debütantları da az deyil. Məhz ümumi iştirakçıların 35 faizini təşkil edən yeni şirkətlər hesabına sərgi salonu bir qədər də genişlənib. Yeni iştirakçıların əksəriyyəti isə Azərbaycanın "yaşıl" enerji sahəsinə yüksək maraq göstərən xarici şirkətlərdir. Ümumilikdə, sərgi iştirakçılarının 70 faizini xarici şirkətlər, 30 faizini isə yerli müəssisələr təşkil edir.

Xəzər regionunun ən nüfuzlu enerji tədbirinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də bir çox dünya ölkələrinin dövlət və hökumət rəsmilərinin, şirkət nümayəndələrinin, yüksək səviyyəli qonaqların və beynəlxalq enerji ekspertlərinin iştirakı sərginin əhəmiyyətini qat-qat artırır. Məlum olduğu kimi, Azərbaycan paytaxtı uzun müddətdir ki, nüfuzlu tədbirlərin keçirildiyi və mühüm qərarların qəbul edildiyi, əməkdaşlıqların müzakirə olunduğu məkana çevrilib. Bundan əlavə, Azərbaycanın enerji sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmiz artıq enerji sektorunda öz sözünü deməyə müvəffəq olub. Belə ki, hazırda Azərbaycan yalnız özünün deyil, digər ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Ölkəmizin həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən Bakı Enerji Həftəsinin təşkilatçıları isə "Iteca Caspian" və onun beynəlxalq tərəfdaşları olan "İCA Events" və "Caspian Event Management" şirkətləridir. Baş tərəfdaşı SOCAR olan Bakı Enerji Həftəsinin builki sponsorlarının siyahısı da olduqca genişdir. Bu da, heç şübhəsiz, Bakı Enerji həftəsinin nüfuzunu və yüksək statusunu təsdiqləyir.

30-cu Beynəlxalq Neft və Qaz sərgisinin əhatə etdiyi bölmələrə neft-qaz yataqlarının işlənməsi, karbohidrogenlərin hasilatı və nəqli, telekommunikasiya və IT, neft-qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə, həmçinin süni intellekt, dekarbonizasiya, qazma sahəsi, eləcə də neft və qeyri-neft-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim olunur.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) ayrı-ayrı müəssisələrinin öz nailiyyət və perspektivlərini geniş nümayiş etdirməsi tədbirə marağı qat-qat artırırdı. Bundan əlavə, ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrinin operatoru olan BP şirkəti, qardaş Türkiyənin TPAO, Fransanın "TotalEnergies", Rusiyanın "Ural Steel", Özbəkistanın "Uzbekneftegaz", Azərbaycanda bərpa olunan enerji layihələrinin iştirakçıları olan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanın "Acwa Power", eləcə də dünyanın neft-qaz, nəqliyyat-logistika və təchizat sahələrində fəaliyyət göstərən onlarca firma və şirkəti öz qabaqcıl təcrübə və nailiyyətlərini sərgidə nümayiş etdirmək üçün yaxşı imkan qazanmışdılar.

Prezident İlham Əliyevin iyunun 2-də Bakı Enerji Həftəsi iştirakçılarına ünvanladığı müraciət ölkəmizin enerji strategiyasının keçmişinə və gələcəyinə aydın baxış




təqdim etdi. Bu mühüm beynəlxalq enerji toplantısı artıq təkcə regional deyil, həm də qlobal miqyasda nüfuzlu enerji platformasına çevrilərək Azərbaycanın enerji diplomatiyasının və iqtisadi modernləşməsinin mühüm dayaqlarından biri kimi özünü qabarıq büruzə verdi.

Dövlətimizin başçısı müraciətində bildirdi ki, Bakı Enerji Həftəsinin tarixi Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə əsası qoyulan "Caspian Oil & Gas" sərgisi ilə başlayır. Bu sərgi müstəqilliyimizin ilk illərində Azərbaycanın dünya enerji bazarına inteqrasiyasını gerçəkləşdirən önəmli hadisələrdən biridir. Məhz belə bir tədbirin əsasında formalaşan Bakı Enerji Həftəsi hazırda təkcə neft və qaz məsələlərinin deyil, həm də bərpa olunan enerji, enerji təhlükəsizliyi və dayanıqlı inkişaf mövzularının müzakirə olunduğu çoxşaxəli platformadır.

Bu gün Bakı Enerji Həftəsi dünya üzrə enerji siyasətçilərinin, şirkət rəhbərlərinin, beynəlxalq təşkilatların və ekspertlərin diqqət mərkəzindədir. Burada aparılan diskussiyalar və bağlanan əməkdaşlıqlar Azərbaycanın qlobal enerji xəritəsindəki mövqeyini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu forum həm də enerji sahəsində strateji tərəfdaşlıqların qurulması üçün unikal fürsətlər yaradır.

Ölkə rəhbərinin müraciətində diqqət çəkən əsas məqamlardan biri də Azərbaycanın "yaşıl" enerji gündəliyinin genişlənməsidir. Prezident İlham Əliyev vurğulayır ki, Azərbaycanın enerji strategiyası bu gün artıq yalnız karbohidrogen resurslarının ixracı ilə məhdudlaşmır. İqlim dəyişiklikləri, enerji keçidi və texnoloji innovasiyalar fonunda respublikamız alternativ və bərpa olunan enerji mənbələrinə yönələn məqsədyönlü siyasət yürüdür.

Xüsusilə Zəngilan, Cəbrayıl və Laçında yaradılan "yaşıl" enerji zonaları, Xəzər dənizində külək enerjisi layihələri və günəş stansiyalarının inşası bu sahədə atılan addımların bariz nümunəsidir. Xarici investorlarla imzalanan sazişlər, həmçinin Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Avropa ölkələri ilə enerji əməkdaşlığı Azərbaycanın bu sahədə beynəlxalq etimad qazandığını təsdiqləyir.

Enerji sahəsində aparıcı rol oynayan ölkə kimi Azərbaycanın "yaşıl" enerjiyə keçid prosesində təşəbbüskar mövqedə çıxış etməsi həm regional enerji təhlükəsizliyinə töhfə verir, həm də milli iqtisadiyyatın şaxələndirilməsinə xidmət göstərir. Bu baxımdan Bakı Enerji Həftəsi Azərbaycanın enerji siyasətinin uğurlarını nümayiş etdirməklə yanaşı, eyni zamanda, gələcək hədəflərin müzakirə olunduğu beynəlxalq tərəfdaşlıq platformasıdır.

Beləliklə, Bakı Enerji Həftəsi Azərbaycanın geosiyasi və iqtisadi imkanlarını bir daha ortaya qoyaraq sübut edir ki, ölkəmiz həm enerji istehsalında, həm də qlobal enerji siyasətinin formalaşdırılmasında söz sahibinə çevrilib. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu forum təkcə enerji sahəsinin deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq nüfuzunun və strateji tərəfdaşlıqlarının gücləndirilməsi baxımından da beynəlxalq aləmdə yüksək dəyərləndirilib.

Burada bir məqamı da diqqətə çatdırmaq istərdik. Azərbaycanın açıq dənizə çıxışı olmamasına baxmayaraq, ölkəmiz son illər ərzində Avrasiyanın aparıcı nəqliyyat və enerji mərkəzlərindən birinə çevrilib. Bu nailiyyət təsadüfi deyil, Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu nəticə infrastruktur layihələrinə yatırılan böyük sərmayələrin, strateji planlaşdırmanın və davamlı siyasi iradənin nəticəsidir. Xəzər dənizindən Aralıq və Qara dənizədək uzanan strateji enerji marşrutları Azərbaycanın qlobal enerji xəritəsində mövqeyini möhkəmləndirib.

Bu layihələrin tacı, şübhəsiz, Cənub Qaz Dəhlizidir. Uzunluğu 3600 kilometr olan bu kompleks infrastruktur layihəsi Azərbaycanın dəniz yataqlarından çıxarılan təbii qazın İtaliya sahillərinədək təhlükəsiz şəkildə çatdırılmasına şərait yaradır. Bu yalnız iqtisadi deyil, eyni zamanda, geosiyasi uğurdur. Çünki Azərbaycanın iştirakı ilə gerçəkləşən bu layihə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

Prezident İlham Əliyev "Xəzər Neft-Qaz" sərgisinin açılış mərasimindəki çıxışında qeyd edib ki, ötən il Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı 8 idisə, bu gün həmin rəqəm 12-yə çatıb. Bu artım təsadüfi deyil, Azərbaycan həm hasilat imkanlarını artırır, həm də yeni bazarlara çıxış imkanlarını genişləndirir. 2024-cü ildə təbii qaz ixracının həcmi 25 milyard kubmetr təşkil edib. Hazırda imzalanmış müqavilələr və yeni sazişlər çərçivəsində bu göstəricinin 2030-cu ilədək daha 8 milyard kubmetr artırılması planlaşdırılır. Bu artım təkcə mövcud 5 yataqdan deyil, həm də istismar olunacaq yeni yataqlardan hasilat hesabına mümkün olacaq. Hasilatın və ixracın genişlənməsi, enerji resurslarının səmərəli idarə olunmasının və xarici investorlarla etibarlı əməkdaşlığın göstəricisidir.

Azərbaycanın enerji strategiyası təkcə qaz və neftlə məhdudlaşmır. Ölkə "yaşıl" enerjiyə keçid istiqamətində də əhəmiyyətli addımlar atır. Prezident İlham Əliyev bildirib ki, imzalanmış müqavilələrə əsasən 2030-cu ilə qədər 6,5 giqavat həcmində bərpa olunan enerji istehsalı nəzərdə tutulur. Bu, Azərbaycanın ümumi enerji istehsalının 35 faizindən çoxunu təşkil edəcək.

Bu sahədə atılan addımlar təkcə daxili tələbatı ödəmək üçün deyil, həm də qaz ehtiyatlarına qənaət edərək, onların ixracını artırmaq məqsədi daşıyır. Yəni "yaşıl" enerji investisiyası yalnız ekoloji deyil, həm də iqtisadi fayda gətirir.

***

Yeri gəlmişkən, Xəzər Neft-Qaz sərgisi istər yerli, istərsə də, digər ölkələrin şirkətlərinə öz imkanları, nailiyyət və perspektivlərini əyani şəkildə nümayiş etdirməyə fürsət yaradır. Elə sərgi barədə rəy və təəssüratlarını öyrəndiyimiz iştirakçılar da bu mötəbər tədbirdə əməkdaşlıq əlaqələrini genişləndirmək, sərginin yaratdığı imkanlardan səmərəli istifadə etmək məqsədində olduqlarını vurğuladılar.

**Bəxtiyar ASLANBƏYLİ, BP-nin Xəzər regionu üzrə vitse-prezidenti:**




– BP Azərbaycan dövləti ilə ilk hasilatın pay bölgüsü sazişi imzalayan şirkət kimi birinci gündən etibarən ölkənin neft-qaz sənayesində baş verən bütün vacib hadisələrin iştirakçısı olub. Bu baxımdan Bakı Enerji Həftəsi və onun mühüm tədbiri olan Xəzər Neft-Qaz sərgisində fasiləsiz iştirakımızı qeyd edə bilərəm. Xəzər Neft-Qaz sərgisinin təsis edilməsindən 30 il keçməsinə baxmayaraq, bu əhəmiyyətli sərgi yenə də öz statusunu qoruyub saxlayır. Məhz bu səbəbdəndir ki, sərgi iştirakçılarının sayı ildən-ilə artır. Hər il həm ölkədə, həm də ölkənin hüdudlarından kənarda fəaliyyət göstərən çoxsaylı yeni şirkətlər sərgiyə gəlirlər.

Bakı Enerji Həftəsinə, eləcə də Xəzər Neft və Qaz Sərgisinə dövlət tərəfindən kifayət qədər yüksək diqqət var. Dövlət başçısı, eləcə də hökumət nümayəndələri sərgidə yaxından iştirak edirlər. Əslində, bu sərgi əlavə bir imkandır ki, biz il ərzində, bütövlükdə 30 il müddətində ölkədə göstərdiyimiz fəaliyyət barədə həm özümüzə, həm hökumətə, həm də geniş ictimaiyyətə hesabat verək. Eyni zamanda, sərgi yeni planlarımızın bölüşməsi, yeni müqavilələrin imzalanması üçün ideal məkandır. Bütün bunlar sərginin əhəmiyyətini qat-qat artırır.

Sərgi, həm də geniş əməkdaşlıq meydanıdır. Burada dövlət və hökumət üzvləri, tərəfdaş şirkətlər, ölkədə fəaliyyət göstərən subpodrat şirkətlər, eləcə də media təmsilçiləri və beyin mərkəzlərinin nümayəndələri bir araya gəlir. Bütövlükdə isə, sənaye sektoru ilə əlaqəli irili-xırdalı bütün şirkətlər bura gəlir. Bu baxımdan sərgi dialoq üçün, hesabat üçün, yeni əməkdaşlıq üçün gözəl platformadır. Sərgidə iştirak etməklə nailiyyətlərimiz barədə məlumatları çatdırırıq. Budəfəki sərgidə və konfransda da bir sıra yeniliklərin və əməkdaşlıq müqavilələrinin imzalanmasının şahidi olacaqsınız.

**Elnur ƏLİYEV, "Franklin Offshore Caspian ltd" şirkətinin regional direktoru:**



"Franklin Offshore İnternational" şirkəti 1984-cü ildə Sinqapurda təsis edilib. Qısa müddətdə böyük inkişaf yolu keçərək qlobal şirkətə çevrilib. 1997-ci ildə şirkətin Azərbaycanda rəsmi nümayəndəliyi yaradılıb. Artıq 30 ilə yaxındır ki, şirkət ölkədə fəaliyyət göstərir. Şirkətimizin Azərbaycandakı əsas fəaliyyət istiqamətləri dəniz və dənizçilik mühəndisliyi, gəmiqayırma və gəmi tikintisi, neft-qaz platformalarının inşası, təmiri və xidməti, eləcə də xüsusi yükqaldırma və ekspertiza xidmətlərindən ibarətdir.

Sərgi zalında bizə ayrılmış pavilyonda nümayiş etdiriyimiz stenddə şirkətimizin bəzi məhsul və xidmətləri ilə tanış olmaq mümkündür. Həmin məhsulların əksəriyyəti ölkə daxilində istehsal olunur. Yeri gəlmişkən, hazırda bizim Qaradağ rayonunun ərazisində iri istehsal müəssisəmiz fəaliyyət göstərir. Bununla yanaşı, şirkətin digər ölkələrdəki zavodlarında istehsal olunan məhsulları da Azərbaycana idxal edib onların satışını həyata keçiririk.

Gördüyünüz monitorda həyata keçirilən əməliyyatların videogörüntüləri yayımlanır ki, bu da sərgi iştirakçılarına şirkətimiz haqqında dolğun məlumat əldə etməyə imkan verir. Hazırda şirkətin Azərbaycan nümayəndəliyində 100-dən artıq əməkdaş çalışır. Şirkətimiz Azərbaycanda BP, SOCAR, "Total-Abşeron", "Caspian Drilinq", "Bos şelf", ASCO və digər şirkətlərlə uğurla əməkdaşlıq edir.

Bununla yanaşı, 2021-ci ildən etibarən ölkənin müdafiə sənayesi sektoru ilə əməkdaşlıq çərçivəsində bir sıra layihələr həyata keçiririk. Ümid edirik ki, qarşıdakı illərdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik.

Xəzər Neft və Qaz Sərgisinə gəldikdə isə, qeyd etmək istəyirəm ki, şirkətimiz ilk vaxtlarda bu mötəbər tədbirdə xüsusi fəallığı ilə seçilib. Müəyyən fasilədən sonra yenidən burada iştirakımızla qürur duyuruq. Sərginin təşkilatçılığı olduqca yüksək səviyyədədir. Bir qədər əvvəl ölkə Prezidenti İlham Əliyev bura gələrək sərgi ilə yaxından tanış oldu, dəyərli fikir və tövsiyələrini verdi. Cənab Prezidentin çıxışına diqqətlə qulaq asdıq, olduqca faydalı məlumatlar aldıq.

Gördüyünüz kimi, sərginin ilk saatları olmasına baxmayaraq, ziyarətçilərin sayı anbaan artır. Bu da tədbirə olan marağdan irəli gəlir. Ümid edirəm ki, biz də bu möhtəşəm sərgidən maksimum faydalanacağıq.

# "Yaşıl enerji" üzrə əməkdaşlıq

## *Yeni layihələrə meydan açılıb*

**Bakı Enerji Həftəsi çərçivəsində ümumi gücü 200 MVt olan 3 günəş enerjisi layihələrinin reallaşdırılmasını, həmçinin Energetika Nazirliyi ilə "China Energy Engineering Corporation Limited" və "Maire Tecnimont S.p.A." arasında "yaşıl" enerji sahəsində əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.**

Energetika Nazirliyi ilə "Universal Solar Azerbaijan" MMC arasında ölkəmizdə ilk dəfə olaraq bərpa olunan enerji sahəsində keçirilmiş beynəlxalq hərrac mexanizmi əsasında reallaşdırılan 100 MVt gücündə "Qobustan" Günəş Elektrik Stansiyası (GES) layihəsi üzrə "Torpaq icarə müqaviləsi" imzalanıb.







Sənədi energetika naziri Pərviz Şahbazov və şirkətin direktoru Tao Zhicheng imzalayıblar. Layihə üzrə "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" isə "Azərenerji" ASC adından qurumun İdarə Heyətinin sədri Baba Rzayev, şirkət adından direktor Tao Zhicheng tərəfindən imzalanıb.

***

Azad edilmiş ərazilərin "yaşıl" enerji zonasına çevrilməsi məqsədilə həyata keçirilən təşəbbüslər çərçivəsində Cəbrayıl rayonunda tikilməsi planlaşdırılan 2 günəş elektrik stansiyası üzrə də müqavilələr imzalanıb. 50 MVt gücündə "Üfüq" GES və 50 MVt gücündə "Şəms" GES layihələri üzrə "Torpaq icarə müqavilə"ləri energetika naziri Pərviz Şahbazov, "Enerso Jabrayil" MMC şirkətinin direktoru Eldar Məmmədzadə və "Clean Energy Jabrayil" MMC-nin direktoru Xəyalə Nağıyeva imzalayıb. Hər iki layihəyə dair "Enerji alqı-satqı müqavilə"ləri və "Ötürücü şəbəkəyə qoşulma müqavilə"ləri də imzalanıb.

Cəbrayılda inşa olunacaq günəş stansiyaları ilə bağlı "Norm" ASC ilə birgə balanslaşdırma müqavilələrinə də imza atılıb.

***

Bundan başqa, Energetika Nazirliyi və "Maire Tecnimont S.p.A." arasında "Enerji Keçidi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun müddətinin uzadılması məqsədilə sənədə müvafiq dəyişiklik edilməsi haqqında Protokol da imzalanıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Mərkəzi Dövlət Arxivi – 105

# Mötəbər tarixi həqiqətlər məbədi

**Ulu öndərin müdrik fikri arxiv xidmətinin mahiyyətini, arxiv sənədinin dəyərini, arxiv işinin ictimai-siyasi və elmi-tarixi əhəmiyyətini dəqiq və sərrast ifadə edir. Dövlət idarəçiliyində zəngin təcrübəsi və siyasi uzaqgörənliyi ilə müstəqil Azərbaycan dövlətinin uğurlu inkişaf strategiyasını müəyyən edən Ulu öndər xalqımızın milli-mənəvi sərvəti olan mədəni irsin, tarixi yaddaşın qorunmasında arxivlərin rolunu və əhəmiyyətini yüksək qiymətləndirmiş, onu dövlət idaretmə sisteminin mühüm elementi hesab etmişdir.**

> **“Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu ‚xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir”.**
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli lider**




Sosial idarəetmədə fəal iştirak edən dövlət strukturu olaraq arxiv sisteminin cəmiyyətdəki rolu və əhəmiyyəti məsələsi həmişə diqqət mərkəzində olmuş və obyektiv dəyərləndirilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin çıxışlarında, elm adamları ilə görüşlərində tariximizin taleyüklü problemləri ilə bağlı irəli sürdüyü fikir və təşəbbüslərində, çağırışlarında xalqımızın tarixi irsinin qorunmasının vacibliyi önə çəkilir. Görkəmli dövlət və ictimai xadimlərin, sahə üzrə ekspertlərin ictimai elmlərin inkişaf istiqamətlərini müəyyən edən nəzəri tezislərində humanitar və ictimai elmlər sahələrində çalışan alimlərin və tədqiqatçıların, xüsusilə tarixçilərin öz elmi araşdırmalarında obyektiv təhlil və tənqid metoduna əsaslanaraq ən azı yüzillik tarixə malik mənbələrdən, qədim məxəzlərdən, arxiv sənədlərindən istifadə olunmasının aktuallığı qeyd olunur.

Həqiqətən də, arxiv tarixi keçmişimizlə bağlı həqiqətlərin öyrənilməsi və düzgün elmi nəticələrin əldə edilməsi üçün vacib olan qiymətli sənədlərin saxlandığı xəzinə, elmi-tarixi tədqiqatlar üçün mənbəşünaslıq bazası təşkil edən qiymətli mənbə rolunu oynamışdır. Arxiv həm də hakimiyyətin dayağını ehtiva edən bir təşkilat olmaqla, dövlətin və fərdlərin qanuni haqlarının, millətlərarası münasibətlərin qorunmasına və inkişafına xidmət edən orqan olaraq fəaliyyət göstərməkdədir. Başqa sözlə, arxivlər sosial, individual, kollektiv fəaliyyət sahələrində yaddaş üçün vacib əhəmiyyət daşıyan tarixi məlumatların qorunduğu dövlət qurumudur.




2025-ci ildə Azərbaycanda Mərkəzi Dövlət Arxivinin (MDA) və vahid dövlət arxiv fondunun təşkilinin 105 ili tamam olur. Lakin geosiyasi baxımdan əlverişli zonada yerləşən Azərbaycanda arxiv işinin tarixi təcrübəsi daha qədim dövrlərə təsadüf edir. İşğalçı dövlətlərin mübarizə meydanına çevrilmiş Azərbaycanın keçmişi ilə bağlı yaranan qiymətli arxiv sənədlərinin bir hissəsi məhv edilmiş, yaxud talanıb aparılmışdır. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın başına gətirilən müsibətlərin tarixi yaddaşı olan arxiv sənədlərinin toplanılması məqsədi ilə Xarici İşlər Nazirliyinin 1919-cu il 13 oktyabr tarixli 59 nömrəli əmri ilə Nazirliyin tərkibində “Zaqafqaziyanın müsəlman əhalisinə qarşı rus siyasətinə dair” arxiv sənədlərinin toplanması məqsədilə xüsusi komissiya yaratmışdır. Komissiyanın sədri Aslan bəy Kriçinski, üzvləri Əli Yusif, Məhəmməd bəy Ağayev və Kərim Sulkeviç təyin edilir. Komissiyanın fəaliyyətinin təşkili üçün xərclərin nazirliyin xərclər smetası hesabına aparılması müəyyən olunur. Xüsusi Komissiyanın ilk iclası Aslan bəy Kriçinskinin sədrliyi və üzvlər Əli Yusif, Məhəmməd bəy Ağayev və Kərim Sulkeviçin iştirakı ilə 14 oktyabr 1919-cu ildə keçirilir və komissiyanın sədri Aslan bəy komissiya üzvlərini Xarici İşlər Nazirliyinin qeyd olunan əmri ilə tanış edərək müzakirə olunacaq məsələlər barədə məlumatlandırır. Qısa bir tarixi dövrdə fəaliyyət göstərən həmin komissiyanın fədakar üzvləri imperiya əsarəti dövründə ölkəmizin quberniya və qəza idarələrində, canişinliklərində, xüsusi firma və ictimai təşkilatlarda yaranan sənədlərin toplanılması, sistemləşdirilməsi və arxeoqrafik cəhətdən işlənilərək çap edilməsinə böyük əmək sərf edərək respublikamızda arxiv işinin və arxeoqrafiya elminin ilkin təməlini qoyurlar.

Ölkəmizdə dövlət arxiv xidmətinin əsası Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 6 dekabr tarixli “Vahid dövlət arxiv fondunun təşkil edilməsi və Xalq Maarif Komissarlğı yanında Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında” Dekretlə qoyulmuşdur. Hələ may ayında Xalq Maarif komissarlığında ölkədə arxiv işi sahəsində fəaliyyəti tənzimləyən dövlət orqanının yaradılması məsələsinin müzakirəsinə başlanılır və ali hakimiyyət orqanı olan Azərbaycan İnqilab Komitəsinə təqdim etmək üçün təkliflər hazırlanır. Xalq Maarif Komissarlığı tərəfindən hazırlanmış “Vahid dövlət arxiv fondunun təşkil edilməsi və Xalq Maarif Komissarlğı yanında Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında” Dekretin layihəsi görkəmli dövlət və ictimai xadim Nəriman Nərimanovun sədrliyi ilə Azərbaycan İnqilab Komitəsinin 6 dekabr 1920-ci il tarixli iclasında müzakirə olunaraq qəbul edilir və dekabrın 15-də “Kommunist” qəzetində dərc edilərək qüvvəyə minir.

Səkkiz maddədən ibarət bu Dekret Azərbaycanda əvvəllər mövcud olmuş və fəaliyyətdə olan idarə, müəssisə və təşkilatların arxiv fondu sənədlərinin vahid dövlət arxiv fondunun tərkibinə daxil edilməsinin və daimi mühafizə üçün Mərkəzi Dövlət Arxivinə təhvil verilməsinin hüquqi mexanizmlərini müəyyən edən ilk qanunvericilik aktıdır. Dekretdə arxiv işinin təşkilatı-hüquqi əsasları, dövlət arxiv fondunun idarə edilməsinin Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinə həvalə edilməsi və hökumət idarələrinin 1920-ci il aprelin 28-nə qədər başa çatmış bütün işlərin və yazışmaların Mərkəzi Dövlət Arxivinin sərəncamına keçməsi barədə son dərəcə mühüm maddələr daxil edildi. Tarixi əhəmiyyətə malik bu qanunvericilik aktında fəaliyyət göstərən idarələrə Mərkəzi Dövlət Arxivi ilə razılaşdırılmış qarşılıqlı sazişə əsasən öz sənədlərini müəyyən müddətdə idarə arxivlərində saxlamaq və Mərkəzi Dövlət Arxivinin həmin sənədlərə nəzarət və istifadə etmək qaydası, Dövlət Arxivinin icazəsi və yazılı razılığı olmadan heç bir işi, yazışmanı və ya ayrı-ayrı kağızları belə məhv etməyə ixtiyarı olmadığı barədə müddəalar öz əksini tapdı. Dekretlə Azərbaycan Dövlət Nəşriyyatına bütün yerli çap məhsullarının, eləcə də Sovet Rusiyasından alınan bütün nəşrlərin (kitabların, kitabçaların, jurnalların, qəzetlərin, vərəqələrin, plakatların, əmrlərin və s.) istisnasız olaraq hamısından üç nüsxənin Mərkəzi Dövlət Arxivinə göndərilməsi tapşırıldı.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə yaradılan Mərkəzi Dövlət Arxivi 1921-ci ilin yanvarından Xalq Maarif Komissarlığı yanında fəaliyyətə başladı. Fəaliyyətə 3 ştat vahidi ilə başlayan Mərkəzi Dövlət Arxivinin işçilərinin sayı 1922-ci ildə bir ştat vahidi (arxivçi-elmi işçi) artırıldı. Azərbaycanın xalq maarif naziri D.Bünyadzadənin əmri ilə Azərbaycan Mərkəzi Dövlət Arxivinin ilk direktoru vəzifəsinə adıçəkilən Dekretin layihəsinin hazırlanmasında fəal iştirak etmiş görkəmli tarixçi-arxivçi A.L.Popov təyin edildi. Şübhəsiz, fəaliyyətə kiçik işçi sayı ilə başlayan Mərkəzi Dövlət Arxivi ilk dövrlərdə qarşya qoyulmuş vəzifələrin həllində, xüsusilə sənədlərin mühafizəsinin təmin edilməsi, qeydiyyatı, arxiv materiallarının qaydaya salınması və digər işlərdə ciddi çətinliklərlə üzləşdi və vəziyyətdən çıxmaq üçün Xalq Maarif Komissarlığının digər strukturlarının əməkdaşlarını bu sahəyə cəlb etməli oldu. Arxivçilər xüsusilə qiymətli arxiv sənədlərinin məhv edilməsi, möhtəkirlər tərəfindən bazarlarda satışının qarşısının alınması məqsədilə yerlərdə reydlər keçirir, aşkar edilmiş faktların qarşısını alır (məsələn, Xalq Cümhuriyyəti hökumətinə məxsus sənədlərin düyü ilə dəyişmək üçün İrana göndərilməsi faktı) və bununla bağlı aidiyyəti hökumət qurumlarını məlumatlandırırdılar.

Yaranmış vəziyyət, xüsusilə ölkədə qiymətli arxiv sənədlərinin məhv edilməsi və dağıdılması hallarının mövcudluğu, hökumət tərəfindən daha ciddi tədbirlərin görülməsini zəruri edirdi. Azərbaycan SSR Xalq Komissarları Soveti bunu nəzərə alaraq və AzMİK-nin 6 dekabr 1920-ci il tarixli Dekretin tələblərini daha da inkişaf etdirməklə arxiv sənədlərinin mühafizəsi, istifadəsi və məhv edilməsi qaydalarının pozulmasına görə cəza tədbirlərinin sərtləşdirilməsi məqsədi ilə 18 may 1922-ci ildə “Keçmişdə və indi mövcud olan hökumət idarələrinin, ictimai təşkilatların və ticarət-sənaye müəssisələrinin arxivlərinin qorunması haqqında” Dekret qəbul edir. Hökumət tərəfindən görülən tədbirlərə baxmayaraq, ölkədə arxiv sənədlərinin vahid dövlət arxiv fonduna toplanılmasında ciddi çətinliklər qalmaqda davam edir və bir çox hallarda hətta hökumət idarələri tərəfindən Azərbaycanın ictimai həyatının bu və ya digər tərəfdən öyrənilməsi üçün özündə nadir və qiymətli məlumatlar əks etdirən arxiv sənədlərinin bilərəkdən məhv edilməsi, satılmasına, ölkədən çıxarılmasına şərait yaradılır və yaxud qarşısının alınmasına mane olduqları müşahidə edilirdi. Arxiv sənədlərinin toplanması və mühafizəsi sahəsində yaranan neqativ hallar, yol verilən nöqsanlar Azərbaycanda arxiv qurumunun təşkilati formasının dəyişdirilməsinə zərurət yaradırdı.

Mərkəzi Dövlət Arxivinin materiallarının toplanılması və mühafizəsi sahəsində fəaliyyət dairəsinin genişləndirilməsi, dövlət və ictimai təşkilatların bu sahədəki işlərinə nəzarət imkanlarının artırılması məqsədilə AzMİK-nin Rəyasət Heyəti 12 avqust 1922-ci ildə Mərkəzi Dövlət Arxivinin metodiki münasibətdə Xalq Maarif Komissarlığının nəzarətində qalmaqla, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tabeliyinə verilməsi barədə qərar qəbul edir. Mərkəzi Dövlət Arxivinin ali dövlət hakimiyyəti orqanına tabe edilməsi onun nüfuzunun əhəmiyyətli dərəcədə artması və hüquqi statusunun möhkəmlənməsi ilə bərabər, həm də ştat vahidinin artmasına, texniki və maliyyə təminatının yaxşılaşmasına səbəb oldu. Eyni zamanda, MDA-nin fəaliyyətinin təkmilləşdirilməsi və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində görülən tədbirlərin əhatə dairəsini genişləndirdi.

Mərkəzi İcraiyyə Komitəsi respublikamızın vahid arxiv fondu sənədlərindən daha məqsədyönlü istifadəsinin təşkili məqsədilə 27 fevral 1923-cü ildə daha bir qərar qəbul etdi. Qərarla AzSSR-inin bütün dövlət idarələrinə və şəxsi təşkilatlarına Mərkəzi Dövlət Arxivinin icazəsi və razılığı olmadan hər hansı bir arxiv işini (sənədini) almaq, satmaq, məhv etmək, başqa müəssisəyə və yaxud şəxsə təhvil vermək qadağan olunurdu. Bütün müəssisə, təşkilat və idarələrə 10 gün ərzində (qəzalardakı idarələrə 15 gün ərzində) öz arxivlərini yaratmaqla Mərkəzi Dövlət Arxivində qeydiyyatdan keçirilməsi, cari fəaliyyətdə istifadəyə tələb olunmayan bütün arxiv işlərinin (sənədlərin) Dövlət Arxivinin tələbi əsasında dövlət mühafizəsinə təhvil verilməsi, eyni zamanda məşhur ictimai xadimlərin məktubları, mükafatlandırılma barədə fəxri fərmanları, aktlar, tarixi dəyəri olan digər arxiv işlərinin (sənədlərinin) sahibi olan fiziki şəxslərin isə Bakıda bir ay (qəzalarda 2 ay) müddətində Dövlət Arxivində qeydiyyatdan keçməsi tələb olunurdu. Eyni zamanda, qəbul edilən qərarlarda ölkədə arxiv işinin təşkilində qarşılaşılan məsələlərin hüquqi müstəvidə tənzimləməsini və onun sonrakı mərhələdə daha təkmil inkişafını təmin edən hüquqi normalar müəyyənləşdirilirdi. AzMİK-in 23 avqust 1923-cü ildə qəbul etdiyi “Təşkilatlarda arxiv materiallarının mühafizəsi və onların Mərkəzi Dövlət Arxivinə təhvil verilməsi haqqında” qərarı bunu bir daha təsdiq edir.



Adıçəkilən qərar ölkə hüdudlarında fəaliyyət göstərən təşkilatlarda arxiv işinin təşkilinin əsas istiqamətlərini, təşkilatlarda kargüzarlıq və sənədlərlə işin aparılması qaydalarını müəyyən edir, sənədlərin tamlığının qorunması üçün məsul şəxslərin müəyyən edilməsi kimi mühüm məsələlərin tənzimləməsində böyük əhəmiyyət daşıyır. Qərarda təşkilatların fəaliyyətində yaranan cari sənədlərin təsnifat nömrələrinə uyğun qovluqlarda qruplaşdırılması, qovluqların tikilməsi və işlərin siyahısının hazırlanması, Dövlət Arxivinə işlərin siyahılar əsasında bağlamalarda təhvil verilməsinin zəruriliyi kimi arxiv quruculuğunun ilkin dövrü üçün vacib olan məsələlər əhatə olunurdu. Təşkilatlara Mərkəzi Dövlət Arxivinin razılığı olmadan qaydalardan kənar fəaliyyətə icazə verilmirdi. Qərar ölkəmizdə kargüzarlıq və sənədlərlə işin təşkili prinsiplərini və qaydalarını müəyyən edən ilk normativ-hüquqi sənəd olmaqla, Dövlət Arxivinin sənədlərin idarə edilməsi sahəsində rolunu və səlahiyyətlərini müəyyən etdi. Möhkəmlənməkdə olan ölkənin ali hökumət orqanları tərəfindən arxiv sahəsi ilə bağlı bir-birinin ardınca qəbul edilən qərarlar, görülmüş tədbirlər, habelə Mərkəzi Dövlət Arxivinin əməkdaşlarının fədakar əməyi nəticəsində 1922-ci ilin ortaları üçün Azərbaycanda arxiv sənədlərinin məhv edilməsi və dağıdılması halları əhəmiyyətli dərəcədə azaldı, həmçinin arxiv sənədlərinin qeydiyyatı və mühafizəsi işinin təşkilində müsbət irəliləyiş əldə edildi. Bir ildən artıq bir dövrdə Mərkəzi Dövlət Arxivində 26, “Əmək muzeyi”ndə 5, yerlərdəki təşkilatlarda 16 arxiv fondu olmaqla, bütövlükdə 47 arxiv fondu formalaşdırılaraq qeydiyyata alındı, respublikamızın qəzalarındakı (Şəki, Ağdaş və s.) yerli təşkilatlarda arxiv fondlarının yaradılması işinə start verildi.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində arxiv sənədlərinin toplanması və komplektləşdirilməsi ilə Mərkəzi Dövlət Arxivi (MDA) ilə yanaşı, digər təşkilatlar, Əmək Muzeyi, Oktyabr İnqilabının və Kommunist partiyası tarixinin öyrənilməsi üzrə Komissiyanın Azərbaycan Bürosu və digər ictimai təşkilatlar məşğul olurdu. Mərkəzi Dövlət Arxivi eyni zamanda “Əmək Muzeyi”nin inqilab tarixi şöbəsinə daxil olan sənədlərin uçotunu aparır və onların məhv edilməsi yalnız Mərkəzi Arxivin razılığı ilə həyata keçirilirdi. Muzeyin İnqilab tarixi şöbəsi yalnız MDA təlimat və qaydalarından istifadə etməklə arxiv sənədlərindən Azərbaycandakı inqilabi hərəkatın tarixinin öyrənilməsi üçün elmi məqsədlərdə istifadə etmək səlahiyyətinə malik idi. Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin 1921-ci il dekabr tarixli qərarı ilə yaradılan “Azərbaycan Partiya Tarixi Bürosu (Azistpart) isə respublikamızda inqilabi hərəkatın tarixinin öyrənilməsi üçün arxiv sənədlərindən geniş istifadə etməklə yanaşı, həm də onların toplanılması, sistemləşdirilməsi və qaydaya salınmasını həyata keçirirdi. Lakin sonradan MDA ilə Partiya tarixi bürosunun fəaliyyət istiqamətləri dəqiqləşdirilmiş, Mərkəzi Dövlət Arxivinə arxiv sənədlərinin toplanması və mühafizəsinin təmin edilməsi, AK(b)P MK yanında yaradılan Partiya Tarixi Bürosuna isə Mərkəzi Dövlət Arxivlərinin topladığı materiallardan elmi məqsədlər üçün istifadənin həyata keçirilməsi vəzifəsi verilmişdi.

Xatırladaq ki, (AK(b)P MK yanında Partiya Tarixi Bürosunun adı 1929-cu ildən dəyişdirilərək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Marksizm-Leninizm İnstitutu, daha sonra 1956-cı ildən Partiya Tarixi İnstitutu, SSRİ dağıldıqdan sonra 1991-ci ildən Baş Arxiv İdarəsinin tərkibində Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi adlandırılmış, 21 iyun 2007-ci ildən sözügedən arxiv Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyinə (hazırkı-İctimai-Siyasi Sənədlər Arxivi) verilmişdir.

Mərkəzi Dövlət Arxivi 1923-cü ildə AK(b)P MK müraciət edərək Azərbaycanın inqilabi hərəkatı tarixinə dair bütün sənədləri bir yerə toplamaqla Mərkəzi Dövlət Arxivinin tərkibində inqilab-tarixi şöbəsinin yaradılması məsələsini qaldırır. AK(b)P MK Mərkəzi Dövlət Arxivinin təklifinə baxaraq MDA-nın tərkibində belə bir şöbənin yaradılmasını məqsədəuyğun hesab edir və “Əmək muzeyi”nin İnqilab tarixi şöbəsində saxlanılan sənədlərin MDA-a təhvil verilməsi barədə qərar qəbul edir. 15 fevral 1925-ci ildə həmin sənədlərin bazasında Mərkəzi Dövlət Arxivində inqilab tarixi şöbəsi yaradılır və “Əmək muzeyi”ndə saxlanılan inqilab tarixinə dair bütün sənədlərin Mərkəzi Dövlət Arxivinin inqilab-tarixi şöbəsinə təhvil verilməsi təmin olunur.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin “Azərbaycanda arxiv işi haqqında” 1925-ci il 6 iyun tarixli Dekreti ölkəmizin arxiv quruculuğu tarixində xüsusi əhəmiyyətə malik hüquqi sənəd kimi qiymətləndirilir. Azərbaycan SSR-də arxiv işi ilə bağlı əvvəllər verilmiş qərarları təsdiq edərək onları daha da inkişaf etdirmək məqsədilə qəbul edilən bu Dekret ölkəmizin arxiv quruculuğu tarixində öz əhəmiyyəti ilə seçilir. Dekretə əsasən bütün idarələr öz arxiv materiallarını qaydaya salmaqla arxiv siyahıları əsasında MDA-ya təhvil verməyə məcbur edilir, iri idarələrdən (2000-dən artıq işi olan) texniki və metodiki cəhətdən MDA-ya tabe olan arxivçi ştatının yardılması tələb olunur, arxiv materialları saxlanılan bütün idarələrə onları məhv etmək və satmaq qadağan edilir, saxlanılmalı olmayan işləri məhv etmək və satmaq ixtiyarı yalnız Mərkəzi Dövlət Arxivinə verilir və həmin sənədlərin satışından əldə edilən vəsaitin Mərkəzi Dövlət Arxivinin xüsusi fonduna daxil edilməsi nəzərdə tutulur. Arxivlərə diqqətsiz yanaşmanın qarşısının alınması və Dekretin dürüst yerinə yetirilməsinə nəzarət edilməsi prokurorluq orqanlarına tapşırılır. Eyni zamanda arxiv işi üzrə əvvəllər mövcud olmuş və bu Dekretlə ziddiyyət təşkil edən bütün qanunvericilik aktları qüvvədən düşmüş hesab edilir. 6 iyun 1925-ci il tarixli Dekret ölkədə arxiv işinə və arxiv sənədlərinə olan münasibətin dəyişməsinə təsir göstərməklə, idarələrin öz arxiv materiallarının vəziyyəti və qorunması ilə bağlı məsuliyyətlərini artırır, eyni zamanda MDA ilə idarələr arasındakı işgüzar münasibətlərin hüquqi normalarını müəyyən edən mükəmməl qanunvericilik aktı kimi tarixə düşür. Dekret arxiv işçilərini öz işlərinə daha məsuliyyətlə yanaşmağa sövq etməklə, bu sahədəki çətinliklərin aradan qaldırılmasına yeni imkanlar yaradır.

**(ardı var)**

***Əsgər RƏSULOV,***
***Milli Arxiv İdarəsinin rəisi,***
***Həsən HƏSƏNOV,***
***Milli Arxiv İdarəsi rəisinin müavini***

Tariximiz səhnədə

# Qərbi Azərbaycana Qayıdış milli-etnik yaddaş aynasında



**Çağdaş Azərbaycan ədəbi prosesində çoxşaxəli fəaliyyəti ilə tanınan Hidayətin yaradıcılığında milli-mənəvi problemlər, xalqın tarixi taleyi kimi mövzular xüsusi yer tutur. Bu baxımdan tanınmış teatr xadimlərinin onun yalnız dramaturgiyasına deyil, ümumiyyətlə, ədəbi-bədii yaradıcılığına müntəzəm şəkildə müraciət etmələri təbii haldır.**

Ədibin "Məni qınamayın", "Mənzil əhvalatı", "Məhəbbət yaşayır hələ", "Burdan min atlı keçdi" və digər əsərlərinin müxtəlif illərdə İrəvan, Ağdam, Naxçıvan, Sumqayıt teatrlarında tamaşaya qoyulması bu xüsusiyyətlərlə bağlıdır. Bu yaxınlarda Hidayətin Sumqayıt Dövlət Dram Teatrında "İrəvanda nəyim qaldı" adlı əsərinin səhnə təcəssümü şəhərin ədəbi-mədəni həyatında uğurlu hadisələrdən biri sayıla bilər.

İki hissəli tarixi-xronoloji dram olan bu tamaşa Hidayətin uzun illər (1986, 1999 və 2015-ci illər) qələmə alıb tamamladığı "Burdan min altı keçdi" memuarının və "İrəvana 7 məktub" əsərinin motivləri əsasında hazırlanıb. Qeyd edək ki, Sumqayıt teatrının yaradıcı kollektivi 2015-ci ildə də bu memuarın əsasında eyniadlı tamaşa hazırlamış və uğurla nümayiş etdirmişdi. "Burdan min atlı keçdi" əsərinin süjet xəttində əks olunan yüksək Azərbaycançılıq ideologiyası, Hidayətin erməni millətçilərinə qarşı prinsipial mövqeyi, İrəvandakı fəaliyyəti və sair kimi məsələlər tamaşanın quruluşçu rejissoru, Xalq artisti Firudin Məhərrəmovun diqqətini cəlb edib və belə bir tamaşanı yenidən səhnəyə gətirib.

Ayrıca olaraq vurğulamaq lazımdır ki, Heydər Əliyev bir obraz kimi əsərdə iştirak etməsə də, səhnə arxası nitqi, Anton Koçinyanla dialoqu, Ədibin Ulu öndər haqqında düşüncələri, Vətənin çətin günlərində Ağbirçək ananın Heydər Əliyevi haraylaması və s. epizodlar bu qüdrətli şəxsiyyətin mənəvi əzəmətini dolğun şəkildə təcəssüm etdirir. Bu baxımdan onun erməniləri qorxuya salan varlığı bütün səhnələrdə müşahidə olunur, səsi və nəfəsi duyulur. Əsərdə təsvir edilən hadisələrin sosial-fəlsəfi mahiyyətini və məna ruhunu dərindən duyan rejissor istər tamaşanın süjet və kompozisiyasını, istərsə də obrazlar sistemini uzun bir zaman kəsimində baş verən hadisələrlə üzvi şəkildə əlaqələndirib. Bu cəhət "İrəvanda nəyim qaldı..." tamaşasının müasirlik ruhunu daha da gücləndirir.

Pyesdə cərəyan edən hadisələr 20 illik bir zamanı (1968–1988) və fərqli məkanları (İrəvan, Qərbi Azərbaycanın Kalinino rayonu, Moskva və Xankəndi) əhatə etsə də, quruluşçu rejissor uğurlu tapıntılarla hadisələrin xronoloji ardıcıllığını və məkanın konkretliyini təmin edə bilib. Əsərin əsas qəhrəmanı Ədib (ssenari müəllifi Hidayət bu obrazın prototipidir) süjet xəttinin inkişafında başlıca rol oynayır. Proloq, 10 şəkil və epiloqdan ibarət olan tamaşanın elə 1-ci şəklində Ədib ötkəm və cəsarətli, Qərbi azərbaycanlıların milli-mənəvi dəyərlərinin keşiyində dayanmağı bacaran bir obraz kimi çıxış edir. Səhnə boyu erməni şovinistlərinin apardıqları ikiüzlü siyasətin əsl mahiyyətini dərk edib anlayan Ədibin xarakterik xüsusiyyətləri Ermənistan rəhbərləri ilə görüşündə qabarıq cizgilərlə üzə çıxır. Bu obrazı canlandıran Əməkdar artist Cəlal Məmmədov Ədibin milli-mənəvi aləmini, yüksək vəzifəli erməni rəhbərləri qarşısında azərbaycançılıq mövqeyini qorxub-çəkinmədən nümayiş etdirməsini təbii hərəkətlər və yaddaqalan detallarla oynayır. Tarixi-xronoloji dramın 1-ci şəklində Ədibin Ermənistan KP MK-nın katibi Robert Xaçatryanla, 3-cü şəklində erməni yazıçısı, 4-cü şəklində İrəvan şəhər partiya komitəsinin katibi Stepanyanla dialoqunda bir tərəfdən ermənilərin "türksüz Ermənistan" yaratmaq kimi məkrli planları üzə çıxırsa, digər bir tərəfdən Ədibin onlara qarşı sərt və dəyişməz mövqeyi tamaşaçı rəğbəti qazanır. Ədibə nə qədər təzyiqlər olsa da, o, öz iradəsindən dönmür, Stepanyanın köməkçisinin (gənc aktyor Emil Həmidov) "Siz qurd ürəyi yemisiniz. İnadkar türk" replikası əslində erməni şovinistlərinin azərbaycanlı qarşısında mənəvi məğlubiyyəti kimi səslənir.

Maraq doğuran səhnələrdən biri də Ədib–Xaçatryan xəttidir. Qatı daşnak olan bu erməni obrazının daxili siması aktyor Akif Mirzəyevin ifasında yaxşı açılır. Elə bu epizodda dramatik konfliktin gərginləşməsi gələcək hadisələrin xalqımız üçün daha ciddi bir istiqamət alacağından xəbər verir. Özünü İrəvan Dövlət Azərbaycan Dram Teatrının xüsusi "qayğıkeşi" kimi göstərməyə çalışan Xaçatryan nə qədər cəhd göstərsə də, mənfur niyyətini gizlədə bilmir, Ədibin hazırcavablığı, ayıq-sayıq olması onu geri çəkilməyə məcbur edir. Bu epizodda diqqəti çəkən məqamlardan biri onun Ədibə erməni qızları ilə, daha doğrusu, katibəsi Hasmiklə evlənməyi təklif etməsidir. Ermənilərin bir qayda olaraq istifadə etdikləri ikrah doğuran bu üsul tamaşaçılarda nifrət hissi oyadır. Katibənin (aktrisa İlahə Səfərova) nazlı-qəmzəli hərəkətləri, R.Xaçatryanla yığcam dialoqu sübut edir ki, erməni hökumətində sıravi işçidən tutmuş ali rəhbərliyədək hamı "böyük Ermənistan" xülyası ilə yaşayır.

Hadisələrin sürətli inkişafı, erməni daşnaklarının törətdikləri cinayətlər tamaşaçıların diqqətini 6-cı şəkildə Qərbi Azərbaycanda yeni bir məkana – Kalinino rayon milis idarəsinə yönəldir. Əsərin əsas süjet xəttində olduğu kimi, bu epizodda da real həyati həqiqətlər, erməni hiyləgərliyi, Qərbi Azərbaycanda soydaşlarımızın sıxışdırılması aktyor ansamblının yaratdığı canlı səhnələrdir. Rayon milis idarəsinin rəisi Şaxmazasyan (Əməkdar artist Vidadi Məmmədov), onun köməkçisi (aktyor Şəmistan Süleymanlı) erməni xislətinin başlıca atributlarından olan böhtançılıq və qorxaqlıq kimi xüsusiyyətləri inandırıcı vasitələrlə açıb göstərirlər. Kalinino rayonunda azərbaycanlı əhalini hər vəchlə sıxışdırmağa, onları doğma yurdlarından didərgin salmağa çalışan Şaxmazasyan cinayət axtarış şöbəsinin baş leytenantı Lətif Kərimovun (aktyor Habil Xanlarov) qarşısında aciz qalır. Əvvəldə özünü qəhrəman kimi aparan milis rəisinin sonra Kərimov tərəfindən döyülərək stolun altında gizlənməsi və papağını (!) axtarması nifrət qarışıq gülüş doğurur.

Eyni mənəvi məğlubiyyətlə Anton Koçinyan da (aktyor İlham Səfərli) üzləşir. Həmin dövrdə Ermənistana rəhbərlik edən bu qatı millətçi "İrəvanda azərbaycanlıların heç nəyi olmamalıdır" kimi rəzil bir düşüncə ilə yaşayır. Dağlıq Qarabağı Ermənistanın tərkibinə qatmaq, Naxçıvandan, Qazaxdan, Gədəbəydən torpaq qoparmaq iddiasında olan Koçinyanın arzusu Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə gözündə qalır. Onun Moskvada Suslovun kabinetini müti və qorxaq bir görkəmdə tərk etməsi etno-genetik erməni xislətini təcəssüm etdirir.

Ümumiyyətlə, həm proloqda, həm də ayrı-ayrı epizodlarda tarixi məqamları əks etdirən görüntülər hadisələrin dramatizmini və əsərin mübariz ruhunu, torpağa, Vətənə bağlılıq idealını milli-mənəvi sərvət kimi tamaşaçı yaddaşına həkk edir. Qədim Azərbaycan və İrəvan xəritəsi, məscidlər, qalalar, dağıdılıb xarabazara  çevrilən yurd yerləri, deportasiya vəhşətləri və s. görüntülər əsərin əsas ideyasının açılmasında ilk andan münbit bir  zəmin rolu oynayır.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının və onun gənc direktoru Ədibin ətrafında başlayıb cərəyan edən hadisələrin şaxələnərək getdikcə gərginləşməsi, Ulu öndərin qələbələri erməni millətçilərinin mənfur simalarının cılızlığını əsər boyu nümayiş etdirir. Ermənistan SSR Ali Soveti Riyasət Heyətinin sədri Harutyunyan (aktyor Oqtay Mehdiyev) H.Əliyevin mərkəzi hakimiyyətdə yüksək vəzifə tutmasını faciə adlandırır: "Yoldaşlar, son hadisədən hamınız xəbərdarsınız yəqin. Ağır xəbərdir... Mən deyərdim ki, Ermənistan üçün faciəli bir xəbərdir. Ermənilərin böyük düşməni Heydər Əliyev Siyasi Büronun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini təyin edilib. Bunun bizim üçün nə demək olduğunu hamınız yəqin ki, yaxşı bilirsiniz". Bu millətçi erməni rəhbərinin və deputatların iştirakı ilə keçirilən iclas əslində erməni xislətini və xəyanətkarlığını simvolizə edir: H.Əliyevə ləkə yaxmaq, təxribatlar törətmək, Kremlə böhtan dolu məktublar göndərmək və s.

Tamaşanın sonuncu – 10-cu şəkli həm hadisələrin tüğyan etməsi, həm də ermənilərin havadarlarına arxalanaraq məkrli planlarını həyata keçirmələri canlı səhnələrdə, personajların gərgin dialoqlarında süjetin kuliminasiya nöqtəsini tamamlayır. Xankəndidə keçirilən mitinq, vilayət partiya komitəsinin 1-ci katibinin daha betər daşnak erməni ilə əvəz edilməsi, tamaşaçıları sanki o ağır illərə qaytarır, onların yaddaşını təzələyir. Epizodik bir obraz olan Ağbirçək ananın (Əməkdar artist İlahə Səfərova) o vaxtkı Azərbaycan rəhbərinə: "Bu işin bir çarəsi yoxdurmu?! Niyə meydan verirsiniz bu yağılara?! Bu gavurlara?!" – deyə hiddət dolu müraciəti ritorik səciyyə daşımır. Bu, fikrimizcə, təklənmiş Qərbi Azərbaycanın və Qarabağın taleyinin təcəssümüdür. Başqa sözlə, Ədib Qərbi Azərbaycanda taleyin ümidinə buraxılmış azərbaycanlıları, Ağbirçək ana isə qarabağlıları təmsil edirlər. Çıxış yolu tapa bilməyən bir xalqın öz xilaskarını axtarması bu iki obrazın üzərində cəmləşmişdir. Bütün Azərbaycan xalqının qüdrətli bir şəxsiyyətdən, xilaskar liderdən nicat gözləməsi, Ağbirçək ananın səhnəni lərzəyə gətirən fəryadında əks-səda tapmışdır: "Off!... Hardasan, ay Heydər Əliyev, hardasan?!" Lakin Ağbirçək ananın sözləri heç də ümidsizlik doğurmur, bu fəryad xalqın Ulu öndərə bəslədiyi sonsuz inamın ifadəsi olub ürəklərdə ümid işığını sönməyə qoymur.

Ssenari müəllifinin  və teatrın yaradıcı kollektivinin uğurlu tapıntısı kimi diqqəti çəkən bu fraqment 44 günlük Vətən müharibəsində xalqımızın qazandığı Qələbənin təntənəsini nümayiş etdirir. İşğal dövründə baş vermiş qanlı fəlakətlər, faciəvi olaylar, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu sərkərdəlik və diplomatik fəaliyyəti, Qələbə sevinci və s. həyəcanlı musiqi sədaları ilə müşayiət olunur ki, bu da tamaşanın mübariz ruhuna xüsusi bir əzmkarlıq gətirir. Dövlət başçımızın Qərbi Azərbaycan İcmasının binasında bir qrup ziyalı ilə görüşündə səsləndirdiyi fikirlər, cazibədar görüntülər tamaşaçıları haqq və ədalət uğrunda yeni bir mübarizə yoluna – Qərbi Azərbaycana qayıdışa səfərbər edir. Prezidentimiz  həmin tarixi görüşdə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir". Bu dərin mənalı fikirlər Qərbi azərbaycanlıların dinc və ləyaqətli bir şəkildə ulu torpaqlara, ata-baba ocaqlarına qayıdış inamının əbədiliyini və sarsılmazlığını ifadə edir. Pyesin proloqunda və tamaşanın bütün şəkillərində qədim yurd yerlərini əks etdirən xəritələrin nümayişi bu tarixi və inkarolunmaz həqiqəti milli-etnik yaddaşlara yenidən həkk edir.

Pyesin adı, proloqdan epiloqa, musiqi tərtibatından səhnə dekorasiyasına, pərdəarxası səsdən tarixi görüntülərədək – bütün bunlar vahid kompozisiyada ustalıqla uyğunlaşdırılaraq erməni saxtakarlıqlarının, törədilən soyqırımlarının, deportasiya və repressiyaların ifşası ilə məhdudlaşmır. Eyni zamanda, bu harmoniya humanist bəşər övladına ünvanlanmış, vətən ağrılı "İrəvanda nəyim qaldı?" sualının tarixi-məntiqi cavabı, ittiham aktı kimi səslənir. Tamaşanın sosial-siyasi əhəmiyyəti və ədəbi-estetik dəyəri də məhz bu amillərlə bağlıdır.

Tamaşada maraqlı bir aktyor ansamblı yaradılıb. Ayrıca olaraq qeyd etmək yerinə düşər ki, erməni obrazlarını fərdi xüsusiyyətləri ilə canlandıran aktyorlar hiss olunmadan eyni bir məramla birləşib, istər-istəməz, erməni xislətinin ümumi cəhətlərini ortaya qoyurlar: yalan, hiylə və saxtakarlıq, onlara pay verilmiş torpaqların aborigen əhalisini – azərbaycanlıları buradan didərgin salmaq. Məsələn, erməni mədəniyyət naziri (Əməkdar artist İzaməddin Bağırov) nə qədər canfəşanlıq etsə də, Ədiblə görüş səhnəsində saxtakarlığını gizlədə bilmir. Eyni sözləri Anton Koçinyana, Robert Xaçatryana da şamil etmək olar. Erməni surətləri arasında yalnız bir nəfər – yazıçısı-məmur (aktyor Əjdər Zeynalov) iç üzünü müəyyən qədər gizlədə bilmir, ermənilərə xas olan paxıllığı və xudpəsəndliyi etiraf edir.

Sumqayıt şəhər rəhbərliyinin, Milli Məclis deputatlarının, ictimaiyyət nümayəndələrinin, Qərbi Azərbaycan İcması Sumqayıt təmsilçilərinin də seyr etdikləri, özünün 57-ci mövsümdə uğurlu və orijinal məzmunlu bu tamaşa ilə pərəstişkarlarını ürəkdən sevindirən teatrın yaradıcı kollektivi bununla repertuarını da dolğunlaşdırıb,  zənginləşdirib. Qeyd etdiyimiz kimi, Hidayətin ssenarisi əsasında hazırlanmış bu tamaşa bəsit, zahiri səhnələşdirmə motivlərindən uzaq olub, müəllifin və teatr kollektivinin yaradıcılıq axtarışlarının gələcək bəhrələrinə də önəmli stimul yaradır. Buna görədir ki, "İrəvanda nəyim qaldı..." tamaşası yalnız Qərbi azərbaycanlıları deyil, bütün xalqımızı Qərbi Azərbaycana qayıdış istiqamətində daha qətiyyətli, inamlı və inadlı addımlar atmağa çağırır. Bu çağırışın min illəri silkələyən müqəddəs bir məramı var: Biz qayıdacağıq!

***Avtandil AĞBABA,***
***filologiya elmləri doktoru,***
***professor, Əməkdar jurnalist,***
***QAİ Ziyalılar Şurasının üzvü***

*Yeni nəşrlər*

# Hər kitab bir dünyadır

**Türkiyənin tanınmış "KeTeBe" nəşriyyatında Xalq yazıçısı Anarın "Bir fırsat bulsam" ("Macal") adlı nəsr kitabı işıq üzü görüb.**










Kitabda yazıçının "Macal", "Otel otağı", "Dantenin yubileyi" adlı irihəcmli əsərləri, eləcə də son vaxtlarda bu povestlərin davamı kimi qələmə aldığı, qəhrəmanlarının sonrakı taleyini oxucularına təqdim etdiyi "Kəbirlinskinin son etirafı" və "Balaca Fuadın son xahişi" hekayələri yer alıb.

Türk oxucularına yeni və daha orijinal tərcümədə təqdim olunan kitabdakı mətnləri türkiyəli yazıçı-tərcüməçi İmdat Avşar çevirib. Yazıçı "böyük problemlər, kiçik sevinclər" vasitəsilə insanı və həyatı anlamaq üçün səyahətə çıxır və adi insanların qeyri-adi hekayələrini izləyib bəşəriyyətin ümumi problemlərini zərif şəkildə ifadə etməyə çalışır. Anar onların tənhalığı, var olmaq üçün axtarışlarını və məhv edilmiş dünyalarını təsvir edərkən bu qarmaqarışıq həyata bənzərsiz bir baxış təqdim edir. Azərbaycan cəmiyyətinin XX əsrdə yaşadığı böyük dəyişikliklərə ayna tutan yazıçı Sovet və xüsusilə də Stalin dövründəki hadisələri mətnlərində əks etdirir. Anar Azərbaycan–Türkiyə münasibətlərinə həssaslıqla yanaşır, yaratdığı dərin tarixi arxa plana əlavə olaraq, mənəvi dəyərlərin itirilməsinə diqqət çəkir, insan ruhunun qaranlıq tərəflərinin xəritəsini yaradır.

Yazıçı ilə qarşılıqlı müqaviləsi olan və əsərlərinin ardıcıl çapını nəzərdə tutan "Ketebe" bu ilin sonuna kimi yazıçının böyük türk şairi Nazim Hikmət haqqında "Kərəm kimi" romanının nəşrini nəzərdə tutur.

***

**Rusdilli tatar yazıçısı, məşhur  romanlar müəllifi, "Böyük kitab" və "Yasnaya Polyana" mükafatları laureatı Gözəl Yaxinanın  "Züleyxa gözlərini açır" romanını oxuculara "Qanun" nəşriyyatı təqdim edib.**

Onun qələmindən süzülən "Övladlarım", "Səmərqənd eşelonu" kimi əsərlər, sadəcə roman deyil – yaddaşımızı silkələyən, insanın iç dünyasına güzgü tutan ədəbi abidələrdir.

Ötən əsrin 30-cu illərində ucqar bir tatar kəndində baş verənlər sürgün həyatı yaşayan qızın taleyi haqqında olan bu əsər bizə öyrədir ki, sükut da danışa bilər, göz yaşı da tarix yaza bilər. Güzəl Yaxina öz romanında bir qadının faciəsindəki və ruhunun oyanışındakı bütün xırdalıqları zərif xətlərlə qabardaraq ustalıqla təqdim edir.  Onun qəhrəmanları oxucunun içində yaşayır — iz qoyaraq, düşündürərək, dəyişdirərək. Nəhayət, mübarizə ruhu qalib gəlir. Görəsən, bu gecikmiş qələbə nəyəsə yarayacaqmı?.. Oxuyanlar biləcək.

***

**Şair Zaur Ustacın şəhidlərimizin əziz xatirəsinə həsr etdiyi "40 gün – 40 şeir" kitabı eyni adlı layihə üzrə qələmə alınanların məcmusudur.**

Topludakı şeirlərdən canını torpaq uğrunda qurban verən döyüşçülərimizin parlaq obrazı canlanır, igidlərimizin sözlə çəkilmiş portretləri boy göstərir. Bütün nümunələr oxucunu həm kövrəldir, həm də qürurlandırır. Kitabda 44 günlük savaşda qalib olmağımıza yol açan Xalq–Ali Baş Komandan–Ordu birliyi də poetik dillə təqdim edilib. Bu sırada general Polad Həşimova, qəhrəman zabitimiz İlqar Mirzəyevə həsr edilən təsirli şeirlər də yer alıb.

"Zabitlər" şeiri şərəfli peşənin özəlliklərini göstərir:

**Şaxtada sınar şaxı,**
**Gündə çıxar cızdağı.**
**Palçıqlı çəkmələri**
**Daşıyır Yurd torpağı.**

Kitabda belə duyğulu misralar çoxdur:
***Sıra ilə gəlirik, yer ver,***
***girək qoynuna...***
***Çox dilək diləmişdim -***
***Bayraq olsun kəfənim,***
***Xəyalım gerçək olub,***
***sevinməsin düşmənim,***
***Dualarım qəbuldu,***
***ağlamasın sevənim,***
***Ana, sən də gözünün***
***qorasını sıxma ha...***
***"Oğul düşmən çəpəri",***
***qurban gedər torpağa...***

Vətənpərvər şair Zaur Ustacın Vətən duyğulu şeirləri sadə və yaddaqalan olduğu qədər də gözəldir.

***Ə.ƏLİYEV***
***XQ***

*Milli irsimiz*

# "Möminə xatun" yeni ömür qazanır

**Məlum olduğu kimi, may ayının 22-də Prezident İlham Əliyev Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Bu sənəd Azərbaycan tarixinə, mədəniyyətinə, mənəviyyatına dövlətin diqqət və qayğısının bariz nümunəsidir və mədəniyyət incilərimizin dünyaya yeni spektrdən tanıdılması baxımından böyük önəm daşıyır.**

Möminə xatun türbəsi təkcə nadir memarlıq abidələri ilə zəngin olan Naxçıvan bölgəsinin deyil, ümumiyyətlə, İslam memarlığının  XII əsrə aid olan ən möhtəşəm abidələrindəndir. Türbə qırmızı kərpicləri, firuzəyi rəngli kirəmitləri və həndəsi naxışları ilə seçilən orta əsr "Naxçıvan memarlıq məktəbi"nin möhtəşəm nümunələrindən biri kimi tanınır. Dövrün tanınmış memarı Əcəmi Naxçıvani bu abidəni yerli hökmdar Şəmsəddin Eldənizin sevimli arvadının – dünyanın və dinin cəlalı, İslamın və müsəlmanların namusu Möminə xatunun  xatirəsinə ucaldıb.



Möminə xatun dövlət işlərində yaxından iştirak edir və bəzən Atabəyə səhih məlumatlar çatdırmaq üçün özü səfərlərə çıxırdı. Salnaməçi Sədrəddin əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə" ("Səlcuq dövləti haqqında xəbərlər") əsərində onun haqqında yazıb: "Möminə xatun həmişə Şəmsəddin Eldənizi ölkə səyahətlərində müşayiət edirdi; dövlət əhəmiyyətli məsələlərin həllində onun fikri ilə hesablaşırdılar. Möminə xatun xalq arasında da böyük hörmətə layiq idi, çünki ölkə vətəndaşlarının tale və maraqlarına biganə deyildi; mədəniyyətin, maarifin inkişafına köməklik edirdi. Bu ağıllı və hörmətəlayiq qadının şərəfinə Naxçıvanda nadir və möhtəşəm məqbərə tikilmişdir".

Elə Birinci Qarabağ müharibəsinin iştirakçısı, bərpaçı rəssam Əjdər Qafarovun böyük saygı ilə yaratdığı və hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan rəngli portretindən də Möminə xatunun necə ciddi və qayğıkeş bir azərbaycanlı xanım olduğu görünür. Onun türbəsinin 10  tərəfindən birində yazılıb: "Biz gedərik, dünya qalandır", "Biz ölərik – bu, yadigardır". Tədqiqatçı O. Aslanapanın fikrincə, Möminə xatun türbəsində memar Əcəminin  ustalığı, həmçinin bu türbəni sifariş edənin nüfuzu və böyüklüyü də əks olunub.

Əcəmi Naxçıvaninin yaratdığı tarixi abidənin zamanımıza qədər gəlib çıxması bu torpaqlarda yaşayan xalqın qədimliyini bir daha ortaya qoyur. Bu, eyni zamanda, Azərbaycan dövlətinin bütün tarix və mədəniyyət abidələrimizə böyük hörmətlə, diqqətlə yanaşdığının göstəricisidir. Hazırda ölkəmizdə, xüsusilə də 30 illik işğaldan azad olunan Qarabağda gedən quruculuq işləri ilə bərabər,  düşmənin vandalcasına tərəfindən yerlə-yeksan etdiyi mədəniyyət abidələrimiz yenidən bərpa edilir, ikinci həyat qazanır. Qədim torpağımız olan Naxçıvanda Möminə xatun türbəsinin yenidən bərpa edilməsi üçün vəsait ayrılması həm mənəvi baxımdan çox əhəmiyyətlidir, həm də Azərbaycanın mədəniyyət incisinin dünyaya yenidən, yeni spektrdən tanıdılması baxımından xüsusi önəm daşıyır. Xatırladaq ki, 1998-ci ildə Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

UNESCO siyahısında yer tutan bu abidə Atabəylər Memarlıq Kompleksinə daxil olan tikililər arasında arxitektur elementlərinin zənginliyi ilə seçilir. Üst piramidal örtüyü uçulmuş türbənin indiki yerüstü ucalığı 25 metrə yaxındır, ilkin halında isə onun hündürlüyü 35 metr olub. Türbə qırmızı dioritdən olan qaya daşları  ilə örtülən postament (altlıq) üstündə ucaldılıb.

Türbənin bərpası ilə bağlı Prezident sərəncamı Azərbaycan mədəniyyətinin qorunması və inkişafına əhəmiyyətli töhfə olacaq. Bütün dünyaya əsrlərdən bəri bu torpaqların əzəli sakinlərinin, əzəli sahiblərinin məhz azərbaycanlı olduqlarını bir daha nümayiş etdirəcəkdir. Bir daha dünyaya ədalət, bu ədalət prinsipinin arxasında dayanan Azərbaycanın varlığını nümayiş və isbat edəcək.

***XQ***

Bölgələrin yeni növrağı

# Qarabağın aran qapısı

## *Ağcabədinin gündüzləri ürəkaçan, gecələri cazibəlidir*



**Təkcə paytaxt Bakının deyil, regionlarımızın da sürətli inkişafı, şəhər və qəsəbələrin, kəndlərin abadlaşdırılması, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində görülən işlər, yaşıllıqların artırılması dövlətmizin iqtisadi qüdrətinin təzahürü kimi, ölkəmizə gələn qonaqları da heyrətləndirir, onlarda Azərbaycanla bağlı xoş təəssüratların yaranmasına səbəb olur.**

Bölgələrə hər növbəti səfər zamanı müsbət dəyişikliklərin şahidi olmaq, insanların rahatlığı naminə atılmış addımları, yenilikləri seyr etmək, təbii ki, çox qürurvericidir. Bir neçə aylıq ayrılıqdan sonra qonağı olduğum Ağcabədi də bu mənada inkişafı ilə diqqət çəkir. Şəhər gündən-günə daha da abadlaşır, yamyaşıl parkları, yeni asfalt döşənmiş küçələri, ən əsası isə təmizliyi ilə göz oxşayır. Gecələr gur işıqlara qərq olan Ağcabədini gəzdikcə, yol kənarlarında, parklarda əkilmiş, xüsusi qayğı ilə qulluq edilən palma, tuya, kedra, kiparis, yapon əzgili kimi ekzotik ağacların, sərv, eldar şamı, çinar, göyrüş və müxtəlif meyvə ağaclarının, çoxsaylı dekorativ güllərin, çiçəklərin, evenost bəzək kollarının sehrli gözəlliyindən, insanı bihuş edən ətrindən zövq almamaq mümkün deyil. Bütün bunlar isə rayon rəhbərliyinin, aidiyyəti dövlət qurumları əməkdaşlarının, o cümlədən sakinlərin məsuliyyətinin və Ağcabədiyə göstərdikləri sevginin nəticəsidir.

Faktlar da son bir ildə şəhərin inkişafı, gözəlləşdirilməsi, əhalinin rahatlığı istiqamətində çoxsaylı işlərin görüldüyünü göstərir. Səfər zamanı həmsöhbət olduğumuz Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fikrət Allahverdiyevdən öyrəndik ki, ötən dövrdə küçələrin asfaltlanması, yeni səkilərin çəkilməsi, işıq dirəklərinin quraşdırılması, işıqlandırma sisteminin müasirləşdirilməsi, yaşıllıqların salınması və onlara qulluq, bir sözlə, şəhərin abadlaşdırılması xüsusi diqqətdə saxlanılıb.

Emin Fərzəliyev, Həmidə Məmmədquluzadə, Cəfər Cabbarlı, Zülfü Adıgözəlov, İsmət Qayıbov küçələrində asfalt yolun salınması, şəhərdaxili küçələrdə 7 min kvadratmetr sahədə isə çala təmiri işlərinin əksər hissəsi başa çatdırılıb. Ümumilikdə, Ağcabədinin küçələrinə 32 min 913 kvadratmetr asfalt örtüyünün döşənməsi nəzərdə tutulub.

Yol infrastrukturunun yaxşılaşdırılması məqsədilə atılmış addımlar daha çox şəhid Emin Fərzəliyevin adı verilmiş (keçmiş Bünyad Sərdarov küçəsi – M.R.) küçənin sakinlərini və o ətrafda yaşayanları sevindirib. Çünki 10 dalandan ibarət küçədə rayonun daha bir şəhidi Camal İbrahimovun adını daşıyan şəhər 8 nömrəli tam orta məktəb yerləşir.

Əvvəllər yağış yağanda küçədə su gölməçələri əmələ gəlir, yolların kənarı tamamilə palçıq olurdu. Bu səbəbdən valideynlər məktəbə uşaqlarını aparıb, gətirməkdə çətinlik çəkirdilər. İndi isə küçə asfaltlanıb, problemlər aradan qalxıb. Bu, həm də canlarını torpaqlarımızın azadlığı uğrunda qurban vermiş şəhidlərimizin xatirəsinə hörmətin nümunəsidir. Asfaltlama işləri isə mütəmadi olaraq davam etdirilir, növbədə yeni küçə və prospektlər var.



F.Allahverdiyev onu da bildirdi ki, şəhərin küçə və parklarının işıqlandırılmasında fasilələrin yaranmaması, bu sahədə yeniliklərin tətbiqi xüsusi diqqətdə saxlanılır. Son bir ildə rayon Yaşıllaşdırma və işıqlandırma idarəsi tərəfindən yüksək keyfiyyətli elektrik materialları alınıb, küçə işıq dirəklərində sıradan çıxmış yeraltı kabellər vaxtlı-vaxtında dəyişdirilib, led lampalar yenisi ilə əvəz edilərək maqnit ötürücü və foto-relelər quraşdırılıb. İndi hava qaralanda işıqlar avtomatik olaraq yanır, səhərlər isə sönür.

Bununla yanaşı, "Azərişıq" ASC ilə işin yüksək səviyyədə qurulması şəhərin gecə işıqlandırılmasında hər hansı fasiləyə yol verilməməsinə və səhərə qədər təmin edilməsinə imkan yaradıb. Qarşılıqlı hesablaşma nəticəsində isə cari ilin əvvəlinə olan göstəriciyə görə, elektrik sərfiyyatı üzrə heç bir borcun olmadığı müəyyənləşib. Üstəlik, müasir texnoloji avadanlıqlardan istifadə diqqətçəkən qənaətə gətirib çıxarıb. Məsələn, ötən il Bakı Abadlıq Xidməti tərəfindən istismara verilmiş "Philips" firmasına məxsus 2 min ədəd işıq plafonlu dirəklərə xidmət göstərilib. Belə plafonlar quraşdırılmış hər dirək ay ərzində cəmi 1,2-1,4 AZN vəsait sərf edir. Araşdırmalar göstərir ki, 3 il bundan əvvələ kimi küçə işıqlandırılmasına hər il 70-80 min manat elektrik enerjisi pulu ödənilirdisə, son 3 ildə bu məbləğ 30-40 min manat təşkil edir. Bu isə elektrik enerjisi üçün ayrılan büdcə vəsaitinə yarıbayarı qənaət deməkdir.

Ağcabədidə yeni yaşıllıqların salınması, parklarda, küçə və prospektlərdə ağacların, kolların, güllərin əkilməsi şəhərin daha da gözəlləşməsinə, havasının təmizliyinin artırılmasına şərait yaradır. Təkcə son bir il ərzində Heydər Əliyev, Zəfər, Üzeyir Hacıbəyli prospektlərində, Nəriman Nərimanov, Səməd Vurğun, Nəsimi, Həzi Aslanov, Hüsü Hacıyev, Qarabağ və digər küçələrdə 10 minlərlə müxtəlif növ ağac, bəzək kolları, güllər, çiçəklər əkilib. Mövsümə uyğun olaraq ağaclarda budama, suvarma və dərmanlama işləri aparılıb.

Şəhər ərazisində görülən çoxsaylı işlərlə yanaşı, həyətlərin abadlaşdırılması da nəzərdə tutulur. Kommunal Xidmət və Mənzil İstismarı İdarəsi əsaslı təmir işləri çərçivəsində abad həyətlərin yaradılmasına start verəcək.

Yeri gəlmişkən, Ağcabədidə yuxarıda bəhs etdiyimiz gözoxşayan təmizlik sözügedən qurumun əməkdaşlarının fədakarlıqlarının, əl əməklərinin nəticəsidir. Burada "əl əməyi" ifadəsi məcazi mənada deyil, sözün əsl mənasında işlənib. Fikrət Allahverdiyevlə söhbət zamanı məlum oldu ki, şəhərin zibillikləri həmin idarənin işçiləri tərəfindən əllə təmizlənərək yığılır, daha sonra müqavilələr imzalanmış şəxslər tərəfindən onların şəxsi texnikaları ilə daşınır. Səbəb küçələrin süpürülməsi, zibilin yığılması və daşınması üçün xüsusi maşınların olmamasıdır. Regionların daha da inkişafı, xüsusilə insan əməyinin yüngülləşdirilməsi baxımından bu məsələnin aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınması məqsədəuyğun olardı. Axı ölkəmizin hər yerinə olduğu kimi, Ağcabədiyə də tez-tez xarici qonaqlar təşrif buyururlar.



***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağcabədi**

---

Beynəlxalq həyat

# Ukraynanın "Hörümçək toru"nun irimiqyaslı təyyarə ovu




**(əvvəli 1-ci səhifədə)**

Strateji bombardmançı təyyarələr — xüsusən Tu-95MS və Tu-22M3 — Rusiyanın uzaqmənzilli raket hücumlarının əsas vektoru hesab olunur. Onlar Ukraynadakı kritik infrastruktur və hərbi obyektlərə qanadlı raketlər vasitəsilə zərbələr endirmək üçün istifadə edilir. Əgər 41 təyyarənin sıradan çıxarılması təsdiqlənərsə, bu, Rusiya aviasiyasının strateji komponentinin təxminən 34 faizinin itirilməsi anlamına gəlir. Bu isə kütləvi raket zərbələrinin intensivliyini kəskin şəkildə azalda bilər. Mütəxəssislər bildirirlər ki, Rusiya bundan sonra əvvəlki kimi hər gecə onlarca qanadlı raket buraxa bilməyəcək.

Strateji bombardmançıların istehsalı olduqca çətin və uzunmüddətli bir prosesdir. Əksər təyyarələr sovet dövründə istehsal olunmuşdur və onların əvəzlənməsi və ya əsaslı təmiri sanksiyalarla əhatələnmiş sənaye infrastrukturu şəraitində real olaraq mümkün görünmür. Bəzi hərbi analitiklərin fikrincə, belə təyyarələrin birinin bərpası bir ildən çox vaxt aparır, bəzilərinin əvəzlənməsi isə ümumiyyətlə mümkün deyil. Müşahidəçilər hesab edirlər ki, Tu-160 raketdaşıyıcılarının itirilməsi Rusiya üçün xüsusilə ağrılı olacaq - bu, Rusiya Hərbi Kosmik Qüvvələrinin ən bahalı və unikal təyyarəsidir.

Bununla bərabər, əgər A-50 tipli erkən xəbərdarlıq və nəzarət təyyarəsinin də məhv edilməsi faktı təsdiqlənərsə, bu, Rusiyanın hava əməliyyatlarını koordinasiya etmək və hədəfləri müəyyənləşdirmək qabiliyyətinə ciddi zərbə olacaq. Çünki A-50 Rusiyanın havadakı "göz və qulaqları" kimi tanınır və onun sıradan çıxarılması komanda-idarəetmə zəncirində boşluqlar yaradacaq.

Hətta təyyarələrin bir hissəsi yalnız zədələnmiş olsa belə, onların texniki baxışa və təmirə göndərilməsi donanmanın sıxlığını azaldacaq, qalan resurslara və texniki heyətə əlavə yük yaradacaq. Bu isə Rusiya Hərbi-Kosmik Qüvvələrinin döyüş qabiliyyətinə sistemli təsir edə bilər.

Ukraynanın belə bir əməliyyatı uğurla həyata keçirməsi onun uzaqmənzilli zərbə qabiliyyətlərinin artdığını və Rusiyanın hava hücumundan müdafiə sistemlərinin dərin arxa cəbhədə də yetərsiz olduğunu göstərir. Bu, Kremlin "dərin arxa cəbhədə" təhlükəsizliklə bağlı tezislərini sarsıdır. Bu əməliyyatın unikallığı ondan ibarət idi ki, pilotsuz təyyarələr Ukraynadan idarə edilmirdi, yük maşınları ilə gizli şəkildə aerodromlara yaxınlaşdırılaraq qısa məsafədən hədəflərə doğru buraxılırdı. Eyni zamanda, dronlar süni intellekt tərəfindən idarə olunurdu və hədəfi müstəqil olaraq seçirdi.

Eyni zamanda, bu cür uğurlu əməliyyat Ukrayna cəmiyyətində qələbə rəmzi və ölkənin təhlükəsizlik və müdafiə strukturlarının effektivliyinin göstəricisi kimi qəbul olunur. Prezident Volodimir Zelenskinin bu əməliyyatı "tarix kitablarına düşəcək parlaq nəticə" adlandırması da məhz bu kontekstdə dəyərləndirilməlidir. Ən əsası, böyük itkilər barədə xəbərlər Rusiya hərbçilərinin, xüsusən də strateji aviasiya uçuşlarının istismarı və dəstəklənməsi ilə bilavasitə iştirak edən bölmələrin şəxsi heyətində mənəvi-psixoloji təsir doğura bilər.

Strateji aviasiyanın zəifləməsi Rusiyanı ballistik və qanadlı raketlərə, kamikadze dronlara və digər zərbə vasitələrinə daha çox arxalanmağa məcbur edə bilər. Lakin strateji bombardmançıların eyni anda onlarla raket buraxmaq qabiliyyəti hələ də unikal olaraq qalır. Bundan əlavə, bu təyyarələr Rusiyanın nüvə triadasının (üçlüyünün) hava komponentinə daxildir. Mütəxəssislərin fikrincə, onların zəifliyinin üzə çıxarılması Rusiyanın strateji təhlükəsizlik təfəkkürünə də təsir edə bilər.

Bu addım Ukraynanın Rusiya hücumlarına cavab olaraq döyüşləri öz ərazisinə keçirməklə və həssas hərbi hədəfləri vurmaqla Rusiyaya "asimmetrik" zərər vurmaq strategiyasının bir hissəsidir. Bundan başqa, Ukraynanın belə uğurlu əməliyyatları Qərb tərəfdaşları üçün hərbi yardımın davam etdirilməsi və genişləndirilməsi lehinə arqument ola bilər. Çünki bu əməliyyat Ukraynanın resurslardan səmərəli istifadə etmək və mühüm nəticələr qazanmaq qabiliyyətini nümayiş etdirir. Dünya görür ki, Ukrayna xüsusi xidmət orqanları XXI əsr müharibəsi aparır və nəticəni kəmiyyətlə deyil, keyfiyyətlə qazanırlar.

Nəticə etibarilə, Ukraynanın bəyan etdiyi itkilər real təsdiqini taparsa, bu əməliyyat Rusiya aviasiyasına və onun strateji hücum qabiliyyətinə yönəlmiş ən mühüm zərbələrdən biri kimi tarixə düşəcək. Bu hadisə həm hərbi əməliyyatların gələcək gedişinə, həm də strateji planlaşdırmaya ciddi təsir göstərə bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

---

Maraq dünyamız

# Yer kürəsi 8 milyard insanın ümumi evidir

## *Fərqliliklər isə kifayət qədər çoxdur*

**Planetimizdə əhalinin sayı sürətlə artır. Demoqrafların hesablamalarına görə, dünya əhalisi bu sürətlə artmağa davam etsə, 2040-cı ildə planetimizdə 10 milyard insan yaşayacaq. Böyük Britaniyada nəşr olunan "The New England Magazine" jurnalında bu yaxınlarda dərc olunan hesabatda qeyd olunub ki, hazırda Yer kürəsində 8 milyarda yaxın insan yaşayır.**

Adıçəkilən nəşr planetimizdə əhalinin inkişafı ilə bağlı mövcud vəziyyəti oxuculara daha sadə və aydın olsun, – deyə əsasən faizlərlə təqdim edib. Beləliklə, Yer kürəsindəki 8 milyard insanın 11 faizi Avropada yerləşir. 5 faizi Amerika materikinin şimalında, 9 faizi isə cənubunda məskunlaşıb. Dünya əhalisinin 15 faizi "Qara qitə"nin payına düşür. Əhalinin ən sıx məskunlaşdığı qitə isə Asiyadır. Belə ki, dünyadakı bütün insanların 60 faizi məhz "Sarı qitə"də yaşayır.

Planetimizdə urbanizasiya prosesi sürətlənir. Hazırda ümumi əhalinin 49 faizi kəndlərdə, 51 faizi şəhərlərdə yaşayır. Əvvəlki onilliklərdə bu nisbət kəndin xeyrinə idi. Üstəlik, bu proses ilbəil sürətlənir. Əhalinin mənzillə təminat məsələsində pozitiv dəyişikliklər baş verir. Hazırda dünyada ailələrin 77 faizinin yaşamaq üçün başının üstündə, obrazlı desək, "damı" var. 23 faizin isə qalmağa öz yeri yoxdur, onlar ya kirayədə qalır, ya da küçələrdə gecələyirlər.



Yer kürəsində insanların 63 faizi ərzaq sarıdan çətinlik çəkmir. 15 faiz isə normal qidalana bilmir. "Qarınqulu"ların sayı isə azalmır. 21 faiz normadan çox yeyir. Artıq çəkidən əziyyət çəkənlərin sayı isə həkimlərin "həyəcan təbili" çalmalarına baxmayaraq, durmadan artır.

Əhalinin 87 faizi içməli sudan korluq çəkmir. 13 faizin isə şəraiti yoxdur, yaxud çirklənmiş su mənbələrindən istifadə etməyə məcbur qalıb. Gələcəkdə içməli su çatışmazlığı özünü kəskin surətdə göstərəcək. Ölkələr arasında su mənbələrinə çıxış uğrunda müharibələr də başlaya bilər.

İnsanların dörddə üçünün mobil telefonu var. 25 faizinin belə bir imkanı yoxdur. Çoxlarımıza elə gəlir ki, internetdən istifadə etməyən az ailə tapmaq olar. Əslə, belə deyil. Belə ki, yalnız 30 faiz insanın internetə çıxışı var. Qalan 70 faizin internetə daxil olmaq şəraiti yoxdur.

Dünyada ali təhsilli insanların sayı faiz etibarilə yüksək deyil, yalnız 7 faiz ali təhsillidir. Belə çıxır ki, əhalinin 93 faizi heç vaxt kollec və ya universitetlərdə oxumayıb. 83 faiz tam sərbəst oxuyub-yaza bilir, 17 faiz isə tam savadsızdır.

İnsanların dini mənsubiyyətləri ilə bağlı biliklər də çoxlarında maraq doğurur. Dünya əhalisinin 33 faizini xristianlar, 22 faizini müsəlmanlar, 14 faizini hindular, 7 faizini buddistlər, 12 faizini digər dinlərə sitayiş edənlər təşkil edir. Yer kürəsində məskunlaşan 12 faiz insanın heç biri dini mənsubiyyəti yoxdur.

Dünyada ölüm faizləri də, təəssüf ki, yüksəkdir. Hesablanıb ki, insanların 26 faizi həyatda 14 ildən az yaşayır, 66 faizi 15–64 yaş arasında ölür, cəmi 8 faiz 65 yaşdan yuxarı insanlardır. Müdriklər, adətən, deyirlər ki, əgər insanın özəl yaşayış yeri varsa, sağlam qida və təmiz sudan istifadə edə bilirsə, taledən şikayət etməyə dəyməz. Necə deyərlər, yuxarı baxıb gileylənməkdənsə, aşağıya baxıb şükür etmək məsləhətdir.

Hesablanıb ki, Yer kürəsində 5 mindən çox xalq yaşayır. İnsanların 12 faizi çin dilində, 5 faizi ispan, 3 faizi isə portuqal, ərəb, benqal, hind, türk dillərində danışır. Elə dillər var ki, həmin dillə danışanların sayı günbəgün azalır.

Göründüyü kimi, Yer kürəsi insanların dil və dini mənsubiyyətlərinə, təbii sərvətlərə çıxış imkanlarına, yaşayış səviyyəsinə və s. parametrlərə görə çox rəngarəngdir. Yadımdadır, 1970-ci illərin axırlarında tələbəsi olduğum Moskva Dövlət Universitetində kosmonavtlarla tez-tez görüşlər keçirilərdi. Belə görüşlərin birində kosmonavtlardan biri dedi ki, o, səmada, ilk növbədə, saysız-hesabsız obyektlər arasında Yer planetini axtarıb. Futbol topundan bir qədər böyük görünən Yer adlı ulduzun onun üçün nə qədər doğma olduğunu bir daha hiss edib.

Bəli, sakini olduğumuz qalaktikada yerləşən milyardlarla ulduz arasında yalnız bizim planetimizdə dünyanın əşrəfi sayılan insanlar yaşayıb yaradırlar. Gəlin Allahın hər birimizə lütf etdiyi bu nadir şansı layiqincə dəyərləndirək və ən azı, həyatda olmağımıza görə şükür edək!

***M.HACIXANLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 114 (30808) 3 iyun 2025-ci il, çərşənbə axşamı

**İdman**

## Avarçəkənlərimiz beynəlxalq reqatada 14 medal qazanıblar



**Azərbaycan təmsilçiləri Qazaxıstanın Uralsk şəhərində kayak və kanoe üzrə beynəlxalq reqatada 14 medal qazanıblar. Bu barədə mətbuata Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından məlumat verilib. Komanda üzvləri 3 qızıl, 6 gümüş və 5 bürünc mükafat əldə ediblər.**

İvan Vorobjanskiy bir nəfərlik kayak qayığında həm 200, həm də 500 metr məsafəyə yarışlarda qızıl medala sahib olub. Həmçinin 200 metrdə Elmir Tarverdiyev 2-ci, 500 metrdə Mustafa Vəlizadə 3-cü yer tutub.

İki nəfərlik kayak qayığında 500 metr məsafədə İvan Vorobjanskiy – Vacib Babayev cütü bütün rəqiblərini qabaqlayıb. Mustafa Vəlizadə və Elmir Tarverdiyevin sürdüyü qayıq finişi ikinci keçib. İvan Vorobjanski rusiyalı idmançı ilə birgə bürünc medal qazanıblar. 200 metr məsafəyə yarışlarda İvan Vorobjanskiy - Hüseyn Həsənov dueti 2-ci, Vacib Babayevlə Nuran Rəhimli fəxri kürsünün 3-cü pilləsinə qalxıblar.

Kanoedə Hüseyn Səmədli 3 kateqoriya üzrə mükafatçılar sırasına düşüb. 200 metr məsafədə bir nəfərlik qayıqda bürünc, iki nəfərlik qayıqda gümüş medal qazanıb. 500 metr məsafədə iki nəfərlik qayıqda Hüseyn Səmədli 3-cü olub.

*XQ*

## Xəzərin sahili qoy təmiz olsun!

**Sabunçu Rayon İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Xəzər dənizi sahillərində çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsi məqsədilə aksiya keçirilib. Aksiyada rayon ərazisində fəaliyyət göstərən bir çox dövlət və özəl qurumların əməkdaşları və ictimai birliyin könüllüləri iştirak ediblər.**



Tədbir Pirşağı qəsəbəsindəki ictimai çimərlik ərazisində təşkil edilib. Zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları ərazini çox sayda tullantıdan, xüsusən də davamlı zərərə səbəb olan plastik qablardan təmizləyiblər. Toplanan 2 tona yaxın tullantı "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

*XQ*

## "Çınqıl Servis" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da "Çınqıl Servis" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

İclas, İmişli rayonu, Çaxırlı kəndi, "Çınqıl Servis" ASC-də keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü il üzrə maliyyə ilinin yekunlarına aid hesabat.
2. Digər məsələlər.

E-mail: cinqil.servis@mail.ru

*"Çınqıl-Servis" ASC*

**Yeni idman zirvəsi**

# Minifutbolumuz Dünya birincisi oldu!

**İlk dəfə ölkəmizdə keçirilən minifutbol üzrə Dünya çempionatı Azərbaycan komandasının tarixi qələbəsi ilə başa çatdı. 2022-ci ildə Avropa çempionluğunu qazanan millimiz futbolun bu növündə bütün dünyada ən güclü olduğunu sübut etdi.**





Minifutbol haqqında bildirək ki, o, futbolun kiçik versiyasıdır və süni örtüklü meydanda oynanılır. Bu növdə dünya çempionatı rəsmən "WMF World Cup" adlanır və 2015-ci ildən başlayaraq iki ildən bir keçirilir. Matçlar altı-altıya və 50 dəqiqə ərzində oynanılır. Böyük futbolda son dünya çempionu Argentinanın minifutbolda hər dəfə qrupda qalması, top sehrbazlarının vətəni Braziliyanın son iki mundiala qatılmaması, İtaliya komandasının, ümumiyyətlə, heç vaxt iştirak etməməsi kimi məqamlar da diqqət çəkir.

Bakıda keçirilən dünya çempionatı sayca beşinci idi və mayın 21-dən iyunun 1-dək davam etdi. Mundiala Milli Gimnastika Arenasının ev sahibliyi etdiyini də vurğulayaq. 32 komandanın mübarizəsində qalib gələn Azərbaycan millisinin ardınca Macarıstan 2-ci, Serbiya 3-cü, Monteneqro isə 4-cü oldular.

Komandamızın turnirdə keçdiyi yola nəzər salaq. Futbolçularımız yarışa debütant Bəhreynlə heç-heçə (1:1) ilə başlayıb azarkeşləri həyəcanlandırsalar da, sonra qələbələr ard-arda gəlməyə başladı. Qrup mərhələsində Sloveniya (4:0) və Mavritaniya (2:0), 1/8 finalda son dünya çempionu Rumıniya (1:1, pen. 2:1), sonra İngiltərə (2:1), yarımfinalda Monteneqro (2:1), nəhayət, finalda ötən mundialda 3-cü yer uğrunda görüşdə uduzduğumuz Macarıstan məğlub edildi (4:2).

Mundialın ən yaxşı oyunçusu da çempionlar arasından seçildi - Azərbaycan komandasının üzvü Ramiz Çovdarov bu şərəfə layiq görüldü. O və Təmkin Xəlilzadə hərəyə 3 qolla millimizin ən məhsuldar oyunçuları oldular. Ümumiyyətlə, mundial ərzində 9 futbolçumuzun qol vurması, hətta qapıçı Ağaseyid Qasımovun fərqlənməsi də diqqəti çəkir.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda çıxışı ölkə rəhbərliyinin də diqqət mərkəzindədir. İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial şəbəkə hesablarında minifutbol üzrə Azərbaycan milli komandasının dünya çempionu olması münasibətilə paylaşım edib: "Azərbaycan minifutbol yığması dünya çempionatının qalibidir! Komandamıza parlaq qələbəyə görə təşəkkür edirəm! Sizinlə fəxr edirik! Milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!".

Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov qazanılan uğurda Azərbaycan Prezidenti İlham Əliyevin böyük rolu olduğunu qeyd edib: "Prezident İlham Əliyevin dəstəyini də unutmamalıyıq. Onun bizə dəstəyi, xeyir-duası sayəsində qələbə qazana bildik. Bunun üçün ölkə başçısına dərin təşəkkürümüzü bildiririk. Daim dövlətin dəstəyini hiss edirik. Bundan sonra da gənc nəslin minifutbola cəlb olunması üçün əlimizdən gələni edəcəyik".

ABŞ-ın Azərbaycandakı səfirliyi də minifutbol yığmamızı dünya çempionluğu münasibəti ilə təbrik edib. Səfirliyin bununla bağlı sosial şəbəkə hesabındakı paylaşımda deyilir: "Azərbaycanın minifutbol milli komandasını tarixdə ilk dəfə minifutbol üzrə dünya çempionatının qalibi olması münasibətilə təbrik edirik! Növbəti turnirdə ABŞ komandasına uğurlar arzulayırıq!"

Hətta əfsanəvi Lionel Messi də xalqımıza öz təbriklərini göndərib. Argentinalı futbolçu videomüraciətində bildirib: "Minifutbol üzrə dünya çempionu olmağınız münasibətilə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Sizi bir daha təbrik edirəm, qucaqlayıram və bu anın dadını çıxarmağı arzulayıram".

"Möhtəşəm çempionat izlədik" - bunu da Dünya Minifutbol Federasiyasının vitse-prezidenti Peter Kralik deyib. O, Bakıda keçirilən dünya çempionatı haqqında fikirlərini belə ifadə edib: "Azərbaycan möhtəşəm oyunlardan sonra qalib gəldi. Ev sahibi komanda mərhələləri adlayanda həmişə xoş olur. Təşkilatçılıq yüksək səviyyədə idi. Tədbirdən çox məmnun qaldıq".



Çempionluğun, necə deyərlər, öz uşaqlarımızla, legionersiz qazanılması bu uğuru xüsusilə əlamətdar edir. Gəlin, dünya çempionlarının adlarını bir xatırlayaq: qapıçılar Vəli Qafarov və Ağaseyid Qasımov, həmçinin meydan oyunçuları Kamran Abdullazadə, Mirkamil Əliyev, Elvin Əlizadə (kapitan), Taleh Babayev, Xətai Bağırov, Ramiz Çovdarov, Samir Həmzəyev, Məhəmməd Xəlilov, Təmkin Xəlilzadə, Vüsal İsayev, Rəvan Kərimov, Kamran Qürbətov, Mirmehdi Rzayev, Eşqin Tağıyev və Müseyib Vəliyev. Baş məşqçi Elşad Quliyev, məşqçilər Sərxan Məstiyev və Ramin Həsənzadə.

"Bütün xalqımızı təbrik edirik. Çox gözəl qələbə oldu" - bu da qələbənin əsas memarlarından olan Elşad Quliyevin sözlərdir. Baş məşqçi final oyunundan dərhal sonra fikirlərini belə ifadə etdi: "Rəhbərliyimizi, əməyi keçən hər kəsi təbrik edirik. Çox möhtəşəm qələbədir. Bu hissləri yaşamaq lazımdır. Biz bütün oyunlara templə başlayırıq. Bəzən son zərbəmiz alınırdı, bəzən alınmırdı. Bu dəfə hər şey yaxşı oldu və 4 qolla qalib gəldik".

***Rasim MÖVSÜMOV***

**HAVA**

## Abşeronda yağmursuz, bölgələrdə yağış...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 17-21° isti, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 faiz olacaq.**



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 16-20°, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 13-18° isti olacaq.

*XQ*

**Sağlamlıq**

## Duzun çoxluğu – əhvalın yoxluğu

**Endokrinoloq Zuhra Pavlova qidada duzun depressiyaya səbəb olduğunu bildirib:**



"Çünki duz, davranış dəyişiklikləri ilə əlaqəli iltihablı protein IL-17A istehsalını stimullaşdırır. Bir qrup alimin apardığı araşdırmanın nəticəsi "The Journal of Immunology"də dərc olunub.

Araşdırmada 5 həftə yüksək duzlu yemlə qidalanan gəmiricilərin fəallığı azalıb və onlar ətrafa daha az maraq göstəriblər. Müayinə zamanı onlarda iltihablı zülalın səviyyəsində artım müşahidə edilib.

Lakin IL-17A yeməyən siçanlar depressiv davranış nümayiş etdirməmişlər.

Normadan artıq duzun zərərli olması yeni xəbər deyil. Amma insanlar bunu tez-tez unudurlar. Söhbət təkcə mümkün depressiyadan deyil, həm də digər xəstəliklərin, o cümlədən insult və infarktın inkişaf riskinin artması ilə bağlıdır".

Həkim xatırladıb ki, ÜST-ün tövsiyə etdiyi norma gündə beş qrama qədər duzdur. Nəinki yemək bişirəndə duz əlavə edilir, həm də "duzsuz" çörəkdə, hətta şirin ketçupda bol olan "gizli" duz var.

Məhsulların tərkibini oxuyun. Əgər duz inqrediyentlər siyahısında birinci yerdədirsə, deməli, o, normadan artıqdır.

Fast food, yarımfabrikatlar, kolbasa ilə xüsusilə diqqətli olmaq lazımdır: "Mən bu məhsullardan tamamilə imtina etməyi tövsiyə edərdim" – Pavlova bildirib.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 1129
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00